

# Lavrovun Bakıya səfərinin pərdəarxası...

*Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana işgüzar səfər edəcək. Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova məlumat verib. "Mövcud razılaşmalara uyğun olaraq Rusiyanın Xarici İşlər Nazirliyinin rəhbəri 5-6 may tarixlərində İrəvana və 10-11 may tarixlərində Bakıya səfər edəcək. Ermənistan və Azərbaycan rəhbərliyi ilə danışıqlar planlaşdırılır",- deyə Zaxarova qeyd edib.*

Səh.13


# UNİKAL

№16 (2054) 1 may 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




# Oqtay Şirəliyevin havaya sovurduğu 16 il...

## Sabiq nazirin sayəsində indi Azərbaycan səhiyyəsinin özünü "sağaltmaq" lazımdır

*Nəhayət, çoxdan gözlənilən hadisə baş verdi: Oqtay Şirəliyev uzun illərdir tutduğu Səhiyyə naziri postundan kənarlaşdırıldı. Son zamanlar cəmiyyətin səsini eşidib üzünü görməyə ümumiyyətlə həsrət qaldığı Şirəliyevin nazir olduğu dövrü səhiyyə sahəsi üçün ürəkaçan kimi qiymətləndirmək çətindir. Düzdür, bu müddətdə birbaşa ölkə rəhbərliyinin diqqət və qayğısı ilə çox sayda yeni, müasir xəstəxanalar açıldı, tibb ocaqlarının maddi-texniki bazası gücləndirildi. Lakin Şirəliyev sözügedən sahə üçün xarakterik olan neqativ halları - rüşvəti, korrupsiyanı aradan qaldırmaqda nəinki uğursuz davrandı, hətta bu neqativ halların daha da güclənməsinin önünü açdı.*

Səh.3



# İcra başçılarının həbsi davam edəcək

Səh.8

## Nazim İbrahimovun həbs edilən qardaşının əmlakları müsadirə edildi



*Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun qardaşının əmlaklarının siyahısı müəyyənləşdirilib. Unikal.org-un əldə etdiyi məlumata görə, "STS" şirkəti və "Sahil-D Kompani" MMC-nin təsisçisi Sahib İbrahimovun mülkiyyətində olan qeyri-yaşayış, torpaq və bağ sahələri...*

Səh.4

## Baş Prokurorluq rektorun açıqlamasını təkzib etdi



*Bakı Slavyan Universitetinin (BSU) Əlavə və qiyabi təhsil şöbəsinin müdiri Dürdanə Əliyevanın qanunsuz əməlləri ilə bağlı daxil olmuş çoxsaylı şikayətlər əsasında aparılmış araşdırmalar nəticəsində cinayət işinin başlanılması ilə bağlı Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən...*

Səh.2

## Başlıbel faciəsi Dağlıq Qarabağ həqiqətləri olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır!



*ABŞ Prezidenti Co Baydenin aprelin 24-də səsləndirdiyi bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətləri təhrif etməsi Dağlıq Qarabağ münaqişəsində olduğu kimi bir daha Qərbin ikili standarta davam etdiyini sübut etdi. Baxmayaraq ki, ermənilərin və onların havadarlarının...*

Səh.15

# İş adamına görə iki müğənni arasında qalmaqal böyüdü

***DTX-nin həbs etdiyi Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədova açılan cinayət işində adı keçən Famil Xəlilovun (Veyis Xəlilov) şəxsi münasibəti olduğu müğənnilər Şəbnəm Tovuzlu və Vəfa Şərifova arasında qalmaqal yenidən başlayıb.***

Buna səbəb hər iki ifaçının iş adamı ilə münasibəti olması xəbərlərinin yayılması olub. Vəfa video yayaraq Şəbnəmlə fotosunun yanaşı verilməsinə əsəbiləşdiyini deyib. O, ifaçıya söz ataraq bunları əlavə edib: ”Efirə çıxan gündən demişəm ki, 6 ildir ailəliyəm və qız övladım var. Səbəb də odur ki, getdiyim məclislərdə dəvət etdikləri şəxsin ailəli olduğunu bilmələridir. Ona uyğun davranırlar. Kiminsə əlini, ayağını, hədiyyələrini göstərib kiməsə acıq verməmişəm. Bir xanım müğənni ilə şəklimi yanyana qoyursuz və yazırsız sevgili olub. Bir kişinin həyatında çox qadın ola bilər. Həyat yoldaşımı keçmişinə görə qınaya bilmirəm. Əsas odur qadının keçmişi təmiz olsun. Mənim səhvim deyil. Həyat yoldaşımın həyatında 3-5 aylıq qiyməti bəlli olan insanlar ola bilər. Məni onla niyə vurursuz? Qız övladı böyüdürəm, ona görə çox şeydən keçmişəm”.



Şəbnəm Tovuzlunun qarşı tərəfə cavabı gecikməyib. Sənətçi video açıqlama yayaraq Vəfanı hədələyib: ”Səhərdən xoşagəlməz adlarla şəklim oldu. Bir qadın çıxıb deyir qız uşağım, ailəm var. Toya ailəliyəm deyə çağırırlar. Bizim də ailəmiz, qızımız var. Keçmişini, kim olduğunu unutma, 2008-2009-cu illəri sənə xatırladıram. Olduğun halları unutma, yaxşı? Onları indiki ətrafında olan insanlar yox, mən bilirdim. Allah Tacir Şahmalıoğlunun canını sağ etsin. Qurban olsun olduqlarına. Hər zaman dostluğu, insanlığı, yaxşılığı bilən insanam. Sakit dururam, amma sənə görə yox. Ailəsinin qədrini bilən xanım, evdə oturub danışmaz. Az ailəm de, kim olduğunu hər kəs gözəl bilir”.

# Burada tək qadın-kişi sevgisindən söz getmir" - Roza Zərgərli



***Müğənni Roza Zərgərli ”Ə vlöbilasğ” adlı mahnısına çəkdirdiyi klipini təqdim edib.***

Ekran işinin rejissorluğu Nail Naiboğluna həvalə edilib. Bəstənin sözləri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, musiqisi Sevinc Tofiqqızına məxsusdur.

R.Zərgərli yeni işindən danışarkən bildirib ki, klipdə peşəkar aktyorlara müraciət etməyib: ”Mahnı 2 il yarım bundan əvvəl yazılıb. Qazaxıstanın Karaqanda şəhərində keçirilən bir festivalda rus dilində mahnı lazım idi, mən də ”Ə vlöbilasğ”ı seçdim. Bu yaxınlarda qərara gəldim ki, mahnını yeni aranjimanda hazırlayım. Givi Usenaşvili yeni formada mahnını təhvil verdi. Bu il Nizami Gəncəvi ilidir. Ona görə də çəkiliş məkanı kimi Nizami küçəsini seçdik. Klipdə sevginin hər növünü göstərmək istədik. Burada tək qadın-kişi sevgisindən söz getmir. Eyni zamanda ana-övlad, vətənə, heyvana olan sevgi də əks olunub. Azərbaycan tolerant dövlətdir. Buna görə də klipdə rus əsilli uşaq çəkdik. İkinci Vətən müharibəsinin iştirakçısı, qazimiz Pərvin Abdullayev də ”Ə vlöbilasğ”da rol alıb. Bəzi kadrlarımız isə real həyatda yaşanan hadisələr olub”.

# Nəsrin "Yasak elma"dan qalmaqallı şəkildə ayrılıb

***Azərbaycanlı aktrisa Nəsrin Cavadzadənin ”Yasak elma” serialından ayrılıq səbəbi bəlli olub.***



Ekran işinin rejissoru Murat Öztürk xəstələndiyi üçün onu əvvəlki həmkarı Neslihan Yeşilyurt əvəz edib.

Eda Ece həmin gün çəkilişi olmasa da rejissoru görmək üçün çəkiliş meydanına gəlib. N.Yeşilyurt aktrisa ilə söhbət etmək üçün isə işi köməkçisinə həvalə edib.

Nəsrin Cavadzadə çəkiliş uzandığı və üşüdüyü üçün rejissora ”İşi qurtarıb, sonra söhbət edərdiniz” söyləyib. Bu zaman isə onlar arasında gərginlik yaşanıb. Daha sonra Nəsrin çəkiliş meydançasını tərk edib və telefonunu söndürüb.

Yaşanan hadisə barədə serialın prodüseri məlumatlandırılıb və aktrisaya ölüm səhnəsi yazılıb.

Qeyd edək ki, yayılan xəbərlər barədə Nəsrin Cavadzadə hələlik açıqlama verməyib.

# "Pis günlər geridə qaldı" - Barışdılar



***Xəbər verdiyimiz kimi, bloger cütlük Fərid Abdullayev və Nagehan Abdullayeva ayrılmışdı.***

Axşam.az xəbər verir ki, ayrılıq xəbərlərindən sonra Fərid Rusiyaya, Nagehan isə bir müddətlik türkiyəyə getmişdi.

Nagehan birlikdə görüntülərini yayımlayaraq Fəridlə barışdıqlarını, boşanma fikrindən daşındıqlarını bildirib: ”Bu videonu paylaşmağı nə vaxtdır gözləyirdim. Bütün pis günlər geridə qaldı. Bizim sevgimizi bilənlər bilir. Bu vaxta qədər çox çətin günlər aşdıq, bu da onlardan biri. Çox şükür, Abdullayevlər yenidən bir aradadır”.

Qeyd edək ki, Fərid və Nagehan Türkiyədə evlilik proqramında tanış olub və ailə qurublar. Cütlüyün Kumsal adlı bir qız övladı var.

# "Ermənistan razılaşmaları pozur" - Ceyhun Bayramov

***"Məqsədimiz məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıtması üçün şərait yaratmaqdır. İndi orada heç nə yoxdur, hər şey məhv edilib. Bu ərazilərin sözün əsl mənasında minalarla "zəhərlənmiş" olması hər şeyi qəlizləşdirir".***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Litvalı həmkarı Qabrielius Landsbergis ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Nazir bildirib ki, çağırışlara baxmayaraq, Ermənistan minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir və bununla da əldə olunmuş razılaşmaları pozur.

"Litvalı həmkarıma keçən ilin noyabrın 10-dan bəri 22 nəfərin mina partlaması nəticəsində öldüyü barədə məlumat verdim. Dünya ictimaiyyəti də buna diqqət yetirməlidir", - C.Bayramov vurğulayıb.

# Azərbaycanda bu tarixdən "AstraZeneca" peyvəndinə başlanılır

***Azərbaycan Respublikasında "COVID-19" xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq ölkə üzrə peyvəndlənmə prosesi mərhələli şəkildə davam edir.***




"Unikal" xəbər verir ki, bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında bildirilir.

Qeyd olunub ki, mayın 3-dən ilkin olaraq 60 yaş və daha yuxarı şəxslər "COVID-19" xəstəliyinə qarşı peyvəndlənmə zamanı İngiltərənin Oxford universitetinin istehsalı olan "Vaxzevria" vaksinindən (İstehsalçı şirkət "AstraZeneca") də istifadə edə biləcəklər. "Vaxzevria" peyvəndinin istifadəsi Bakı şəhəri və 6 regionda - Lənkəran, Şəki, Gəncə, Mingəçevir, Abşeron və Sumqayıtda tətbiq olunacaq. Bu peyvəndin tətbiqi üçün tibb müəssisələrində xüsusi otaqlar ayrılacaq.

"COVAX" platforması çərçivəsində ölkəmizə gətirilən 84 000 doza "Vaxzevria" peyvəndi insanlar arasında seçim imkanlarını artırır və vətəndaşların müxtəlif peyvəndlərə əlçatanlığını təmin edir.

Qeyd edək ki, "AstraZeneca" İngilis-İsveç şirkəti tərəfindən hazırlanan "Vaxzevria" vaksinini Ümumdünya Səhiyyə Təşkilatı təsdiq edib.

# Kərəm Həsənovun yüz milyonlarla manatlıq yanlış hesablaması

## İki dövlət bankından biri dövlət üzərində niyə və necə "yükə" çevrildi?

***Bir müddət öncə yerli KİV yazırdı ki, Azərbaycanda 4 bankın lisenziyası ləğv olunduqdan sonra ölkəmizdə yerli və xarici səhmli 26 bank qalıb, onlardan ikisi isə ölkədə dövlət bankı olaraq fəaliyyət göstərir.***



Bu iki dövlət bankından biri - "Azər Türk Bank"ın səhmlərinin çoxu (75%-i) hazırda ləğv edilmiş Əmlak Məsələləri Dövlət Komitəsinə (ƏMDK) məxsusdur.

Digər dövlət bankı "Azərbaycan Beynəlxalq Bankı"dır. Lakin "Azər Türk Bank"la onun arasında çox ciddi fərq var. Hətta bu fərq o qədər böyükdür ki, müqayisəli rəqəmlərdə ağlasığmaz məbləğlərlə ifadə olunan fərq yaranır. Məsələn, Beynəlxalq Bankın cəmi aktivlərinin həcmi 8 milyard 962 milyon 792 min manat olduğu halda digər dövlət bankının aktivləri 359 milyon 207 min manatdır. Yəni "Azər Türk Bank"ın cəmi aktivləri digər dövlət bankından 8 milyard 603 milyon 585 min manat azdır.

Yerli medianın yazdığına görə, "Azər Türk Bank"ın aktivlərə görə gəliri (ROA) 0.11% təşkil edib. Bir az da konkretləşdirsək, adıçəkilən dövlət bankı 348 milyon 364 min manatın qarşılığında 423 min manat vəsait qazanıb. Bankın 75%-i ƏMDK-yə məxsus olduğuna görə mənfəətin 317 min manatı bankın səhmdarı olan həmin dövlət qurumunun payına düşüb. Bununla da "Azər Türk Bank"ın dövlət səhmdarı bir il ərzində 261 milyon 273 min manata görə 300 min manat və ya 0.11% gəlir əldə edib. Halbuki sözügedən dövlət bankı əmək haqqı və digər kompensasiya növləri üzrə xərclərə 11 milyon 126 min manat vəsait xərcləyib. Ən maraqlısı isə odur ki, ƏMDK-nin sözügedən bankdakı vəsaiti "Azərbaycan Beynəlxalq Bankı"na səhmdar pulu kimi əlavə edilsəydi, daha çox qazanc əldə olunacaqdı.

Bir sözlə, rəqəmlər aydın göstərir ki, "Azər Türk Bank" dövlət üzərində faktiki olaraq əlavə yükə çevrilib. Hətta bəzi iqtisadçı ekspertlər artıq adıçəkilən bankın özəlləşdirilməsinin və ya lisenziyasının ləğvinin digər dövlət bankının daha da sürətli inkişafına təkan verəcəyi qənaətindədir.

Gəlin yada salaq: ötən ilin son rübündə haqqında bəhs elədiyimiz bankın müştərilərinə verdiyi kreditlər 19 mln. 154 min manat azalaraq 160 mln. 248 min manata enib. Bundan başqa, müştərilər banka yerləşdirdiyi əmanətləri geri çəkiblər. Belə ki, bankın depozit portfeli 344 min manat azalaraq 179 mln. 940 min manata enib. Bunun əsas səbəbi fiziki şəxslərin bankda olan depozitlərinin 8 mln. 657 min manat artması qarşılığında, hüquqi şəxslərin depozitlərinin 9 mln. manat azalmasıdır.

Həmçinin bankın faiz gəliri 21 mln. 136 min manat, faiz xərci 6 mln. 378 min manat olub. Buna görə xalis faiz gəliri 14 mln. 759 min manat, beləliklə, qeyri-faiz gəliri 9 mln. 891 min manat, qeyri-faiz xərcləri isə 23 mln. 816 min manat təşkil edib. Nəticədə bankın əməliyyat mənfəəti 834 min manat hesablanıb. Bu da öncəki (2019) ilin eyni dövrü ilə müqayisədə 1 mln. 714 min manat azdır.

Üstəlik, bankın xalis mənfəəti də 180 min manat azalaraq 423 min manata enib.

Digər tərəfdən, "Azər Türk Bank"ın məcmu kapitalı 50 milyon 38 min manatdır ki, bu da banklar qarşısına qoyulan məcmu kapital limitindən cəmi 38 min manat çoxdur. 38 min manatlıq azalmadan sonra isə bu dövlət bankının lisenziyasının gələcək taleyi artıq Azərbaycan Mərkəzi Bankının (AMB) mərhəmətindən asılıdır.

Bütün bunları ümumiləşdirdikdə isə ortaya aydın nəticə çıxır: artıq ləğv edilmiş ƏMDK-nin sabiq sədri Kərəm Həsənov "Azəri Türk Bank"ın səhmlərini almaqla ciddi səhvə yol verib. Əks təqdirdə bu gün ölkənin iqtisadi mediası və mütəxəssisləri həmin bank barədə "dövlət üzərində yük" kimi danışmazdılar. Əslində müstəqil ekspertlər lap əvvəldən hər hansı dövlət qurumunun bir bankda böyük paya sahib olmasını doğru saymırdılar. Bunun bazar iqtisadiyyatının tələbləri ilə səsləşmədiyini qeyd eləməklə yanaşı, müəyyən məmur maraqlarının bəzi risklərə yol aça biləcəyini vurğulayırdılar.

"Azəri Türk Bank"la bağlı ortaya çıxan rəqəmlər həmin ekspertlərin qətiyyən yanılmadığını ortaya qoyur.

Belə çıxır ki, yanılan bir nəfər vardırsa bu da ləğv edilən ƏMDK-nin sabiq sədri Kərəm Həsənovdur.

Həmin yanlışlığın rəqəmlərlə ifadəsi isə milyonlarla manatdır.

Əlavə şərhə ehtiyac yoxdur və nəticə çıxarmağı oxucuların ixtiyarına buraxırıq.

***Aygün Əliyeva***

# İlqar Məmmədov icra baçıları həbs edilən rayonların deputatlarını istefaya çağırdı

***"Həbs edilən icra baçılarının sayı artır, amma o rayonların deputatları hələ də istefanı özlərinə borc bilmir".***



"Unikal" xəbər verir ki, bu barədə ReAl partiyasının sədri İlqar Məmmədov Facebook-da yazıb.

O, bir il əvvəl deputatlara etdiyi çağırışı xatırladıb və qeyd edib ki, icra başçısı həbs edilən rayonları təmsil edən deputatlar könüllü istefa verməli və yenidən seçkiyə qatılmalıdırlar:

"Birincisi, əgər prokurorluq onları bu qədər aşkar cinayətlərin törədilməsində şübhəli bilirsə və sən deputat olaraq indiyədək buna yaxın bir mövzuda ictimai çıxışlar etməmisənsə, istefa - sənin üzərinə düşən bir siyasi borcdur. İstefa ver, rayonda təzədən seçki keçirilsin. Yerli camaat səni haqlı bilərsə, deputat işini davam et.

İkincisi, ötən parlament seçkiləri haqda ATƏT-in yaydığı rəydə birbaşa deyilir ki, bir sıra yerli dövlət qurumları namizədlərə qanunsuz təzyiqlər göstərirdi və nəticədə onlar öz namizədliklərini geri götürürdülər. Bunu məhz hansı icra başçılarının etdiyini yazmasalar da, kriminal şəbəkə qurmaqda şübhəli bilinən icra başçıları şübhələnəcəyimiz bir nömrəli şəxslər olmalıdır. Beləliklə, həmin dairələrə aid deputatların üzərində istefa ikiqat siyasi borc kimi durur".

# Lavrovun Bakıya səfərinin pərdəarxası...

## Rusiya Xarici işlər nazirin Azərbaycan üçün xeyirli bir təklif gətirəyəcəyi gözlənilmir

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Azərbaycana işgüzar səfər edəcək. Bu barədə Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova məlumat verib.***

"Mövcud razılaşmalara uyğun olaraq Rusiyanın Xarici İşlər Nazirliyinin rəhbəri 5-6 may tarixlərində İrəvana və 10-11 may tarixlərində Bakıya səfər edəcək. Ermənistan və Azərbaycan rəhbərliyi ilə danışıqlar planlaşdırılır",-deyə Zaxarova qeyd edib.

Təmaslar zamanı ikitərəfli və regional əməkdaşlıq məsələlərinin, habelə beynəlxalq aləmdə qarşılıqlı fəaliyyətin geniş spektrinin nəzərdən keçirilməsi gözlənilir. Zaxarova vurğulayıb ki, danışıqlarda Dağlıq Qarabağla bağlı bəyanatlara xüsusi diqqət ayrılacaq.

"Unikal" qəzetinə açıqlama verən politoloq Elxan Şahinoğlu deyib ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfərləri heç zaman xeyrimizə olmayıb. Onun sözlərinə görə, Rusiyalı diplomatın bütün təşəbbüsləri ziyanımıza olub: "2016-cı ilin aprelində təcili Bakıya gəldi və inandırdı ki, münaqişənin həlliylə bağlı "həll planı" işə düşəcək. İşğalçıya qarşı əks-hücumu dayandırdıq, ancaq Lavrov Bakını tərk etdikdən sonra Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasının vacibliyini arxa plana keçirdi. Lavrov yenə gəlir. Rusiyanın xarici işlər naziri mayın 5-6-da Ermənistanda, mayın 10 və 11-də isə Azərbaycanda olacaq. Səfərlər arasındakı bir neçə günlük fasilə diqqətimi çəkdi. Belə çıxır ki, Lavrov mayın-5-də İrəvana gedəcək, mayın 6-da Moskvaya qayıdacaq, 4 gün keçdikdən sonra yenidən bölgəyə - Azərbaycana gələcək. Nədən Lavrov birbaşa İrəvandan Bakıya gəlməyəcək? Görünür, Lavrovun hər iki tərəf üçün "sürpriz" təklifləri var. Lavrov həm də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı qabaqlamaq istəyir. Çünki, Ərdoğan daha əvvəl bəyan etmişdi ki, Ramazan bayramında, yəni mayın ortalarında Şuşaya gəlmək istəyir. Bakı və Ankara bu səfərə hazırlıqlara başlayıb. Moskva narahatdır. Kreml Ərdoğanın Şuşaya səfəri zamanı irəli sürəcək təkliflərdən ehtiyat edir. Ərdoğanın aprelin 24-də azərbaycanlı həmkarı İlham Əliyevlə telefon danışığından sonra "birgə addımlar atacağıq" açıqlaması da Kremli narahat etməmiş deyil".



Politoloq onu da qeyd edib ki, Lavrov Bakıya hansı təkliflə gəlirsə-gəlsin, Kremlin növbəti hiyləsinə aldanmaq olmaz: "Rusiyanın Qarabağdakı hərbçiləri Xankəndidə "hərbi parad" keçirəcək və bundan bir gün sonra Lavrov Bakıya gəlib bizi sakitləşdirməyə və "balanslı xarici siyasəti" qorumağa çağıracaq. Rusiya ilə Türkiyə bizim üçün eyni ola bilməz. Bunu Lavrova da anlatmağın zamanıdır".

Politoloq Tofiq Abbasov Lavrovun Azərbaycan və Ermənistana səfəri ilə bağlı danışarkən deyib ki, Azərbaycan öz üzərinə düşən məsuliyyəti dərk edərək, bütün vəzifələrini və öhdəliklərini vaxtında həyata keçirməklə Ermənistan tərəfinə örnək göstərir. Onun sözlərinə görə, Ermənistan isə ciddi cədhlə çalışır ki, özünü məsuliyyətdən geri çəksin. Politoloq hesab edir ki, digər tərəfdən Ermənistan daxilində çox böyük narazılıqlar məhz bu üçtərəfli bəyanatın gücü və aktuallığı ilə bağlıdır ki, işğalçı ölkə həmin mübahisələrə qatlanmalıdır: "Faktiki olaraq Lavrov hələ bölgəyə gəlməzdən əvvəl də Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Rusiyanın bu məsələ ilə bağlı böyük marağının olmasını bildirib. Üçtərəfli bəyanatın vacibliyi və onun icrası da son dərəcə aktual məsələdir. Rusiya bu işlərin hamısında təbii ki, Azərbaycan və Ermənistanla həmkarlıq edərək nəzərdə tutulan planları, o cümlədən kommunikasiyanın blokadadan çıxarılmasını reallaşdırmağa çalışır".

T.Abbasov həmçinin onu da bildirib ki, üç tərəf arasında siyasi məqamlar var ki, bununla bağlı müzakirələr olacaq: "O cümlədən başqa məsələlər də var ki, onlar cari bir tərzdə həm müzakirə obyektidi, həm də tərəflərin yanaşmasına bağlıdır. Təbii ki, bu yanaşmalar hər zaman əyani şəkildə həllini tapır. Yeni planlar, məqamlar da ortaya çıxarır. Onlarla bağlı da tərəflər qərar qəbul edəcələr".

"Ermənistana gəldikdə isə payına düşən məqamlar dərin və mürəkkəbdir. Artıq bu Rusiyanın məsuliyyətində olan bir vəzifədir ki, Ermənistanı qeyri-adekvat siyasət yeridən ölkə kimi həm nizam-intizama çağırsın, həm də yada salsın ki, Ermənistanın baş naziri Nikol Paşinyanın bu bəyanatın üzərində rolu var və sənəd hüquqi baza rolunu oynayır. Bu öhdəliklərdən də yayınmaq və çəkilmək mümkünsüzdü", - deyə o bildirib.

***Z.Məmmədov***

# Torpaqlardan qanunsuz istifadə halları araşdırılıb - Faktlar

***Prezident İlham Əliyevin torpaqlardan istifadəyə nəzarətin gücləndirilməsi, torpaq sahələrinin təyinatı üzrə istifadəsi, bu sahədə pozuntuların aradan qaldırılması ilə bağlı tapşırıqlarına və müvafiq qanunvericiliyə uyğun olaraq, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti nəzarət tədbirlərini davam etdirir.***

Xidmətdən "Unikal"a verilən məlumata görə, qurum tərəfindən ölkə ərazisində torpaqlardan qanunvericiliyə zidd istifadə halları ilə bağlı monitorinqlər və torpaq reydləri keçirilir: "Monitorinqlərin məqsədi torpaqların təyinatından kənar və əsassız istifadə edilməsi, özbaşına zəbt olunması və qanunsuz tikintilərin aparılması hallarını müəyyən etmək, torpaqdan təyinatı üzrə istifadə edilməsinə nəzarətin gücləndirilməsidir".

Rəsmi məlumata görə, cari ilin ilk rübü ərzində torpaq müfəttişləri tərəfindən torpaq qanunvericiliyinin tələblərinin pozulması ilə bağlı 607 hal aşkar edilib: "354 inzibati protokol tərtib edilib. Aparılan monitorinqlərin nəticəsinə görə, ən çox torpaq qanunvericiliyinin tələblərinin pozulması halları 191 olmaqla Bakı şəhərinin payına düşüb.



Bu sahədə qanunazidd hadisələrin xarakteri və məqsədləri ayrı-ayrı regionlar üzrə bir-birindən fərqlənir. Kənd təsərrüfatı təyinatlı torpaqlarda əsasən yaşayış məqsədli tikinti işlərinin aparılması kimi pozuntular daha çox Abşeron rayonundadır. Abşeron rayonunun bir neçə qəsəbəsində vətəndaşların mülkiyyətinə verilmiş pay (əkin) torpaqlarında təyinatına zidd olaraq fərdi yaşayış evlərinin inşası aparılıb.

Bakının Xəzər və Binəqədi rayonlarında kənar şəxslər tərəfindən sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaq sahələrində fərdi yaşayış evlərinin tikilməsi halları aşkar olunub. Tikinti məqsədilə ayrılmayan torpaq sahələrində aparılan qanunsuz tikinti işlərinin qarşısının alınması üçün aidiyyəti dövlət qurumları ilə birgə işlər görülüb.

Problemli məsələlərdən biri də kommunikasiya xətlərinin (yüksək gərginlikli elektrik xətləri, avtomobil və dəmir yolları, magistral neft, qaz, su boru kəmərləri və s.) mühafizə zolağına aid torpaqların zəbt edilərək orada yaşayış evlərinin, sahibkarlıq və digər təyinatlı obyektlərin tikintisidir".

Bu kimi halların paytaxtın Sabunçu, Suraxanı və Xəzər rayonlarında müşahidə edildiyi bildirilib:

"Qeydə alınan pozuntu hallarının qarşısının alınması ilə əlaqədar aşkar edilmiş faktlar aktlaşdırılıb, bu barədə aidiyyəti üzrə müvafiq qurumlara və hüquqmühafizə orqanlarına məlumat verilib".



# Ceyhun Bayramov litvalı nazirə Qarabağdakı vəziyyətdən danışdı

***Aprelin 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının xarici işlər naziri Qabrielius Landsberqis ilə görüşüb.***

"Unikal" xəbər verir ki, nazirlər arasında təkbətək formatda başlanılan görüş, daha sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə geniş formatda davam edib. Nazir Ceyhun Bayramov Azərbaycan və Litva arasında mövcud olan siyasi dialoqun yüksək qiymətləndirildiyini bildirib və bunun davam etdirilməsinin əhəmiyyətini qeyd edib. İkitərəfli münasibətlərin bir sıra istiqamətlər üzrə inkişaf etməkdə olduğu və bu əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların mövcud olduğu vurğulanıb.

Nazir Qabrielius Landsberqis Azərbaycan Respublikasının Prezidenti ilə keçirilən səmimi müzakirələri məmnunluqla qeyd edib. Şərq Tərəfdaşlığı bölgəsinin Litva üçün strateji prioritet kəsb etdiyi və bu xüsusda dost ölkələr, o cümlədən Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının əhəmiyyəti vurğulanıb. Cari ildə diplomatik münasibətlərimizin 30 illiyinin qeyd olunduğunu xatırladan nazir Qabrielius Landsberqis əlaqələrin gələcək inkişaf yolunun planlaşdırılmasının önəmini ifadə edib.

Tərəflər iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, humanitar, təhsil sahələrində, habelə beynəlxalq platformalarda əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar.

Görüşdə nazir Ceyhun Bayramov həmkarına bölgədə mövcud olan cari vəziyyət, üçtərəfli bəyanatın həyata keçirilməsi ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfindən üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməməsi, bölgədə sülh və təhlükəsizliyə təhdid törədən davranışları və digər məsələlər barədə məlumat verib. Nazir Bayramov, habelə bəzi Avropa ölkələri və beynəlxalq institutlar tərəfindən nümayiş etdirilən ikili yanaşmanın qəbuledilməz olduğunu bildirib və sonuncular tərəfindən Ermənistanda yanlış illüziyalar yaradacaq bəyanatların verilməsi və davranışın sərgilənməsinin bölgədə barışıq və sülh şəraitində birgə yaşayışa xidmət etmədiyini vurğulayıb.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Prezident onu nazir müavini təyin etdi



***Təhsil naziri Emin Əmrullayevə yeni müavin təyin olunub.***

Bu barədə Prezident İlham Əliyev sərəncam imzalayıb. Sərəncamla Təhsil nazirliyinin aparat rəhbəri Muxtar Məmmədov təhsil nazirinin müavini təyin olunub.

Bu gün təhsil naziri Emin Əmrullayev yeni nazir müavininə nazirliyin kollektivi ilə birgə uğurlar arzulayıb.

# Ceyhun Bayramova yeni müavin təyin edildi



***Azərbaycan xarici işlər nazirinə yeni müavin təyin olunub.***

Bununla bağlı müvafiq sərəncam imzalanıb. Sərəncama əsasən, Elnur Məmmədov xarici işlər nazirinin müavini təyin edilib.

Qeyd edək ki, E.Məmmədov bu təyinatadək XİN-in Ümumi Katibliyinin rəisi vəzifəsində çalışıb. O, daha əvvəllər təhsil nazirinin müşaviri vəzifəsində çalışıb.

# "Bu, ermənilərin dözümsüzlüklərini göstərən ideologiyadır" - XİN başçısı



***"Radikal ermənilər tərəfindən bir neçə gün əvvəl Los-Ancelesdə törədilmiş insidentlər qəbuledilməzdir və günahkarlar cəzalandırılmalıdır".***

Unikal.org xəbər verir ki, bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov litvalı həmkarı Qabrielius Landsbergis ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib.

Xarici işlər naziri Los-Ancelesdəki mitinqdə Azərbaycan bayrağına bükülmüş mankeni yandıran radikal ermənilərin qəbuledilməz hərəkətləri barədə xatırladıb: "Bu, on illərdir qurulan, təbliğ edilən və ermənilərin bütün dözümsüzlüklərini göstərən ideologiyadır".

O, ermənilərin əlləri qan içində olan faşizm tərəfdarlarına abidələr ucaltmağa davam etdiyini xatırladıb və bunun "uzun illərdir davam edən mənfi tendensiya" olduğunu bildirib.

"Bir neçə gün əvvəl daha bir qəbuledilməz insident - Mahatma Qandinin Yerevandakı abidəsinə qarşı vandalizm baş verib. Sual budur: Qandinin günahı nədir?", - nazir əlavə edib.

Azərbaycan xarici işlər naziri deyib: "Hesab edirəm ki, erməni cəmiyyəti bu ideologiyadan nə qədər tez əl çəksə, onlar üçün bir o qədər yaxşı olacaq. Gələcəyə baxmaq lazımdır, orada yaşayan insanlar bunu nə qədər tez başa düşsələr, onlar üçün və bölgə üçün bir o qədər yaxşı olacaq".

# Nazim İbrahimovun həbs edilən qardaşının əmlakları müsadirə edildi

***Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun qardaşının əmlaklarının siyahısı müəyyənləşdirilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, "STS" şirkəti və "Sahil-D Kompani" MMC-nin təsisçisi Sahib İbrahimovun mülkiyyətində olan qeyri-yaşayış, torpaq və bağ sahələri, həmçinin fərdi yaşayış evləri, mənzil və avtomobillərin üzərinə Binəqədi Rayon Məhkəməsinin müvafiq qərarı ilə həbs qoyulub. S.İbrahimovun sahibi olduğu "UNİX" MMC-yə məxsus 10-AA-320 dövlət qeydiyyat nişanlı avtomobil həmin əmlaklar sırasına daxil edilib.



Qeyd edək ki, Azərbaycan Respublikası Baş Prokurorluğunun Mətbuat xidmətinin yaydığı məlumata görə, "STS" şirkəti və "Sahil-D Kompani" MMC-nin təsisçisi Sahib İbrahimovun qeyd edilən təşkilatların digər vəzifəli şəxsləri ilə qabaqcadan əlbir olaraq 2 milyon manatdan çox pulu mənimsədiyi üçün həbs olunub.

Ona qarşı Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib.

*Seymur Əli*

# Baş Prokurorluq rektorun açıqlamasını təkzib etdi

***Bakı Slavyan Universitetinin (BSU) Əlavə və qiyabi təhsil şöbəsinin müdiri Dürdanə Əliyevanın qanunsuz əməlləri ilə bağlı daxil olmuş çoxsaylı şikayətlər əsasında aparılmış araşdırmalar nəticəsində cinayət işinin başlanılması ilə bağlı Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən 29 aprel 2021-ci il tarixdə ictimaiyyət məlumatlandırılmışdır.***

Baş Prokurorluqdan Unikal.org-a verilən məlumata görə, Bakı Slavyan Universitetinin, Dürdanə Əliyevanın qanunsuz əməllərinə dair cinayət işinin guya vətəndaş şikayətləri əsasında deyil, Universitetin rektorunun Baş Prokurorluq və Təhsil Nazirliyinə etdiyi müraciət əsasında başlandığı barədə məlumatlar yayılıb.

Baş Prokurorluq qeyd edilən məlumatı təkzib edərək bildirir ki, sözügedən cinayət işi Dürdanə Əliyevanın tələbələrin təhsil haqqlarının mənimsəməsi ilə bağlı 25 yanvar 2021-ci il tarixdə Baş Prokurorluğun "161-Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlər əsasında başlanmış və yalnız bundan sonra 04 fevral 2021-ci il tarixdə BSU-nun rektorunun müraciəti Təhsil Nazirliyi vasitəsilə Baş Prokurorluğa



daxil olub.

Təəssüflə bildiririk ki, rəsmi istinada söykənməyən və dəqiqləşdirilməmiş məlumatların yayılması ictimaiyyətdə çaşqınlıq yaradır.

Baş Prokurorluq hər kəsi bu növ təhrif olunmuş məlumatları yaymaqdan çəkinməyə çağırır.

# Əmlak Komitəsinin vəzifəli şəxslərinə cinayət işi açıldı

***Əvvəllər məlumat verildiyi kimi, Türkan qəsəbə sakinləri Xumara Şabanova və Əzizxanım Atayevaya məxsus torpaq sahələrinin saxta sənədlər hazırlanmaqla qanunsuz satılması faktı ilə bağlı prokurorluq orqanları tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.***

Baş Prokurorluğun Mətbuat xidmətindən Unikal.org-a verilən məlumata görə, aparılmış istintaqla fərdi qaydada torpaq alqı-satqısı ilə məşğul olan Çingiz Səfərov, Qərib Nadirov və Daşqın Nəsirovun təhriki ilə Xəzər RİH-nin başçısının Türkan qəsəbəsi üzrə sabiq nümayəndəsi Rahil Babayev və bələdiyyənin sabiq sədri Mehman Ağayevin, eləcə də ləğv edilmiş Əmlak Məsələləri Dövlət Komitəsinin DƏDRX-nin 1 saylı Bakı Ərazi İdarəsinin sabiq rəisi Zəfər Abdulovun, sabiq rəis müavini Eldar



Mirzəyevlə qabaqcadan əlbir olub öz qulluq səlahiyyətlərindən sui-istifadə edib paytaxtın Xəzər rayonu, Türkan qəsəbəsində dəniz sahilində yerləşən ümumilikdə 1.12 ha ölçüdə, 190 min manat dəyərində torpaq sahəsinin ayrı-ayrı şəxslərin qanunsuz mülkiyyətinə verilmələrinə əsaslı şübhələr müəyyən edilib.

İstintaq zamanı Çingiz Səfərov, Qərib Nadirov və Daşqın Nəsirov Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq - külli miqdarda), 320.2 (rəsmi sənədləri saxtalaşdırma, qanunsuz hazırlama və ya istifadə etmə) və başqa maddələri ilə, Rahil Babayev, Mehman Ağayev, Zəfər Abdulov və Eldar Mirzəyev isə Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və başqa maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

Təqsirləndirilən R. Babayev və Ç. Səfərov barəsində məhkəmənin qərarı ilə həbs, D.Nəsirov barəsində həbsə alternativ olan ev dustaqlığı, Z.Abdulov və E.Mirzəyev barəsində polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilmiş, Mehman Ağayev və Qərib Nadirov isə istintaq orqanının çağırışlarına gəlməkdən qəsdən boyun qaçırdıqlarına görə barələrində axtarış elan edilmişdir.

29.04.2021-ci il tarixdə cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

Qeyd edilməlidir ki, axtarışa elan edilmiş Mehman Ağayev və Qərib Nadirov barəsində cinayət işi ayrıca icraata ayrılaraq hazırda Baş Prokurorluğun İstintaq idarəsində istintaqı davam etdirilir.

# Azad Rəhimovun vəfatı ilə bağlı RƏSMİ AÇIQLAMA

***Xəbər verdiyimiz kimi, Azərbaycanın Gənclər və İdman naziri, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Azad Rəhimov dünyasını dəyişib.***

Unikal.org xəbər verir ki, bu haqda Milli Olimpiya Komitəsi rəsmi olaraq məlumat yayıb.

"Ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, Allahdan mərhuma rəhmət diləyirik", - deyə rəsmi açıqlamada bildirilir.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Oqtay Şirəliyevin havaya sovurduğu 16 il...

## Sabiq nazirin sayəsində indi Azərbaycan səhiyyəsinin özünü "sağaltmaq" lazımdır

***Nəhayət, çoxdan gözlənilən hadisə baş verdi: Oqtay Şirəliyev uzun illərdir tutduğu Səhiyyə naziri postundan kənarlaşdırıldı. Son zamanlar cəmiyyətin səsini eşidib üzünü görməyə ümumiyyətlə həsrət qaldığı Şirəliyevin nazir olduğu dövrü səhiyyə sahəsi üçün ürəkaçan kimi qiymətləndirmək çətindir.***

Düzdür, bu müddətdə birbaşa ölkə rəhbərliyinin diqqət və qayğısı ilə çox sayda yeni, müasir xəstəxanalar açıldı, tibb ocaqlarının maddi-texniki bazası gücləndirildi. Lakin Şirəliyev sözügedən sahə üçün xarakterik olan neqativ halları - rüşvəti, korrupsiyanı aradan qaldırmaqda nəinki uğursuz davrandı, hətta bu neqativ halların daha da güclənməsinin önünü açdı.



İş o yerə çatdı ki, Azərbaycan səhiyyəsinin adı son bir neçə ildə həkim səhlənkarlıqlarından tutmuş müəmmalarla dolu çoxmilyonluq tender əməliyyatlarında hallanmağa başladı. Dövlət xəstəxanalarında rüşvətin miqyasını aydın şəkildə gözlər önünə sərən faktlar da öz yerində! İnternetdə ötəri bir axtarış aparmaq kifayətdir ki, belə faktların təkzibolunmazlığının sübutu sayıla biləcək audio və video materiallarla qarşılaşasan. Biz hələ az qala hər ay hansısa xəstəxana direktorunun, baş həkiminin, həkiminin... hüquq-mühafizə orqanları tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsini, qandallanmasını demirik!

Şirəliyevin nazir olduğu dövr eyni zamanda ölkə əhalisinin yerli səhiyyə müəssisələrinə inamının kəskin zəifləməsi ilə xarakterizə edilə bilər. İmkanlı şəxslər - vəzifəlilər, biznesmenlər sağlamlıqlarını Avropa və Amerikanın tibb ocaqlarına etibar edərkən Azərbaycan səhiyyəsindən əlini üzmüş sadə vətəndaşlar isə borc-xərclə də olsa İrana, Gürcüstana, Türkiyəyə, Rusiyaya üz tutmaq məcburiyyətində qaldılar. Bu yalnız hər il milyonlarla manatın ölkədən çıxması demək deyildi. Bu həm də dövlətin yüz milyonlarla manat ayırdığı bir sahədə yanlış idarəçiliyin təzahürü idi. Bir yandan müasir xəstəxanalar, tibb mərkəzləri tikilir, ən müasir tibbi qurğular, cihazlar alınır, lakin o biri yandan vətəndaş həmin xəstəxanalara, tibb mərkəzlərinə güvənməyib ölkə kənarına üz tutursa, Oqtay müəllim bizi məzur görsün: deməli, o və ətrafı öz işini düzgün qura bilməmişdi. Səhiyyə sistemində köhnədən qalan vərdişlər at oynatmağa davam edirdisə, tibbi xidmətin keyfiyyəti tikilən xəstəxanaların gözqamaşdıran görüntüsü, alınan müasir cihazların standartları ilə tərs mütənasib idisə, deməli, bunun məsuliyyəti ni də Şirəliyev və komandası daşımalıdır.

Düzdür, artıq Oqtay müəllim nazir deyil, lakin bunu mütləq qeyd eləmək lazımdır: Şirəliyev nə az, nə çox tam 16 il boyunca (2005 - 2021) səhiyyəyə "patronluq" eləyib. Və sonda görünən odur ki, bu 16 il Azərbaycan səhiyyəsinin modernləşdirilməsi, yeni dövrün tələblərinə uyğunlaşdırılması baxımından itirilmiş illərdir. Əlbəttə, həmin 16 ildə müxtəlif yollarla mənimsənilən pulları hüququn köməyilə qaytarıb yerinə qoymaq mümkündür. Ancaq səhiyyə üçün itirilmiş illəri necə qaytarasan?

Axı bu 16 ildə Oqtay müəllim rəhbərlik etdiyi sahədə ciddi islahatlar apara, keçmişin zərərli meyllərini, vərdişlərini aradan qaldıra, Azərbaycan səhiyyəsinin ən azı bəzi qonşu ölkələrin səhiyyəsi qədər etibar görməsini təmin edə bilərdi. Lakin bunu ya bacarmadı, ya da buna cəhd eləmədi. Hər halda fakt budur ki, illərdir müstəqil ekspertlərdən tutmuş kütləvi informasiya vasitələrinə, sadə vətəndaşlardan, millət vəkillərinədək cəmiyyətin müxtəlif kəsimlərindən eşidilən tənqidlər, iradlar, havada qalmışdı: Səhiyyə Nazirliyinin rəhbərliyi səsləndirilən bütün əks fikirlərə laqeydlik nümayiş etdirir, ən yaxşı halda bu fikirləri ümumi, mücərrəd, ütülü cümlələrlə yalanlamağa çalışırdı. Nəticədə isə adıçəkilən sahədə durum getdikcə ağırlaşırdı. Əks halda nə TƏBİB ortaya çıxardı, nə də ictimai rəydə Şirəliyev ən çox tənqid olunan, qıcıq doğuran, adı daim neqativ mənada hallanan nazirə çevrilərdi.

Oqtay müəllimin 16 illik fəaliyyəti (daha dəqiq desək, fəaliyyətsizliyi!) nəticəsində həqiqi mənzərə göz qabağındadır: bu fəaliyyət, pardon, fəaliyyətsizlik nəticəsində Azərbaycan səhiyyəsi şəfaverici gücünü itirib, indi onun özünü "sağaltmaq" lazımdır!

Ümid edək ki, Şirəliyevin postundan kənarlaşdırılması bu istiqamətdə ilk addım olsa da, son addım olmayacaq. Səhiyyə sisteminin neqativliklərdən "təmizlənərək" müasir standartlara çatması istiqamətində istər kadr, istərsə də struktur islahatları davam edəcək.

Bəli, buna nail olmaq üçün çox təəssüf ki, 16 il itirilib, indi isə hətta 16 gün belə itirmək olmaz!

***Sənan Mirzə***

# İlham Əliyev pravoslav xristian icmasını təbrik etdi



***Prezident İlham Əliyev Azərbaycanın pravoslav xristian icmasına təbrik ünvanlayıb.***

Unikal.org xəbər verir ki, təbrikdə deyilir:

"Hörmətli həmvətənlər! Müqəddəs Pasxa bayramı münasibətilə sizi - Azərbaycanın bütün xristianlarını ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Zəngin multikultural dəyərlərə, tolerantlıq ənənələrinə və nümunəvi dövlət-din münasibətləri modelinə malik olan ölkəmizdə ayrı-ayrı xalqların və konfessiyaların nümayəndələri yüz illərdir ki, mehriban qonşuluq, dostluq və qardaşlıq mühitində vahid ailə kimi yaşayırlar. Cəmiyyətimizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanılması, qarşılıqlı hörmətə və etimada əsaslanan birgəyaşayış mədəniyyətinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin əsas prioritetlərindən biridir.

Müasir dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa mühüm töhfələr verən Azərbaycanda dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız, o cümlədən pravoslav xristianlar ölkədə gedən böyük quruculuq işlərində və respublikamızın sosial-mədəni həyatında fəal iştirak edirlər. Vətən müharibəsi zamanı torpaqlarımızın işğaldan azad olunmasında xristian həmvətənlərimizin xidmətlərini yüksək qiymətləndirirəm. İnanıram ki, onlar Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə qüvvələrini səfərbər edərək bundan sonra da əzmlə çalışacaqlar.

Pasxa bayramı paklığı, yeniliyi, dirçəlişi və xeyirxahlığı təcəssüm etdirir. Bu əziz gündə bir daha hər birinizə xoş bayram ovqatı, ailələrinizə əmin-amanlıq, xoşbəxtlik və rifah arzulayıram. Bayramınız mübarək olsun!".

# 2 nəfər imtahana buraxılmadı, 1 nəfər xaric edildi - RƏSMİ



***Bu gün tam (11 illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış imtahanları keçirilib.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (əlcək, üz sipəri, tibbi maska və s.) təmin olunub.

İmtahanlar 15 şəhər və rayonda keçirilib. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 81 imtahan binası, 1343 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 81 ümumi imtahan rəhbəri, 220 imtahan rəhbəri, 1666 nəzarətçi-müəllim, 161 buraxılışı təşkil edən əməkdaş (mühafizə), 81 bina nümayəndəsi ayrılıb.

Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib. İmtahan keçirilən binaların qarşısında sırada gözləmək üçün nişanlayıcı xətlər çəkilib. İmtahan binasına buraxılış rejiminin növbə ilə - lazımi sosial məsafəni gözləməklə təşkil edilməsinə nail olunub.

İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub. İlkin məlumatlara əsasən 2 nəfərin bədən hərarəti normadan yüksək olduğu üçün binada olan təcili tibbi yardım üzrə həkimin də rəyinə uyğun olaraq imtahana buraxılmayıb.

1 nəfərdə mobil telefon aşkarlandığı üçün imtahandan xaric edilib. Mayın 1-dən etibarən DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalına başlanılacaq.

İmtahanlarda istifadə olunan yazılı cavab tələb edən açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin 3 həftə ərzində elan olunması nəzərdə tutulur.

# "DTX-nin "yolunu gözləyən" çox icra başçısı var"

## Teyyub Qənioğlu: "Həbslərdən digərlərinin də nəticə çıxarmamalarının səbəbi bütün hakimiyyət strukturlarını bürümüş qohumbazlıq və himayədarlıqla əlaqədardır"



***Şəmkir rayon icra hakimiyyətinin başçısı Alimpaşa Məmmədovun həbsindən sonra məmurları yenidən hədəfə gətirib. Artıq 8-ci icra başçısı və ətrafındakı məmurlar həbs olunub. Bu həbslərin davamlılığı onu da göstərir ki, bu qədər həbslər məmurları qanunsuz əməllərdən çəkindirmir. Təkamül Partiyasının sədri, iqtisadçı alim Teyyub Qənioğlu ilə söhbətimiz də bu mövzu ətrafında oldu.***

***-Teyyub bəy, Alimpaşa Məmmədovun həbsi də göstərdi ki, bu həbslərdən nəticə çıxarılmır. Sizcə niyə?***

-Son illər korrupsiyaya, rüşvətxorluğa qarşı ölkəmizdə aparılan işləri, bu sahədə DTX-nin fəaliyyətini müsbət qiymətləndirirəm. Fikir verirsinizsə, indiyədək həbs edilmiş icra başçılarının demək olar ki, hamısına qarşı təxminən eyni ittihamlar irəli sürülür: vəzifədən sui-istifadə, dövlət vəsaitlərinin mənimsənilməsi, dövlət əmlakının ələ keçirilməsi, sahibkarlıq fəaliyyətinə qeyri-qanuni müdaxilə, rüvətxorluq və s. Alimpaşa Məmmədova qarşı irəli sürülən itthamlar göstərir ki, o, bu sahədə daha da "irəli gedib". Ancaq KİV-ə ötəri nəzər salmaq kifayətdir ki, DTX-nin "yolunu gözləyən" hələ çoxsaylı icra başçılarının olduğu qənaətinə gələsən. Ona görə də, bu sahədə daha ciddi və geniş əməliyyatların aparılmasını vacib hesab edirəm. Müxtəlif cinayət əməllərinə yol vermiş icra başçılarının həbs edilməsindən digərlərinin də nəticə çıxarmamalarının səbəbini bütün hakimiyyət strukturlarını bürümüş qohumbazlıq və himayədarlıqla əlaqədar olduğunu düşünürəm. İstənilən səviyyəli vəzifə sahiblərinin tərcümeyi-halını araşdırsan görəcəksən ki, o, yaxın qohumları arasında yüksək vəzifəyə sahib olan yeganə şəxs deyil, əksinə çoxsaylı yaxınlarından biridir. Ona görə də daha yüksək səviyyəli vəzifə sahiblərinə və himayədarlarına arxayın olan məmurlar özlərini toxunulmaz hesab edirlər. Ancaq 8 icra başçısının həbs edildiyini nəzərə alsaq, bundan nəticə çıxarmayanlardan fərqli olaraq, hesab edirəm ki, bu cür düşünənlər yanılırlar.

***-Zaman-zaman kadr siyasətinin düzgün aparılması təklifi olunur? Szcə, kadr siyasəti hansı formada aparılmalıdır ki, nəticə belə sonluqla bitməsin?***

-Kadr islahatlarının aparılması hesab edirəm ki, indi hər kəsi düşündürən ən vacib məsələdir. Müvəffəqiyyətli, səmərəli kadr siyasəti aparmadan digər sahələrdə aparılan islahatlar gözlənilən nəticələri verməyəcək, necə ki, reallıqda biz bunun şahidi oluruq. Yenə də qeyd edim ki, KİV-i izləmək kifayətdir ki, son zamanlar "gəncləşdirmə" adı altında aparılan kadr siyasətinin heç də həmişə gözlənilən nəticəni vermədiyinin şahidi olasan. Hətta "qocaları" əvəz edən "cavanların" etimadı doğrultmamaları, sələflərindən daha çox qanun pozuntularına yol verdiyi haqqında çoxsaylı məlumatlar var. Fikrimcə, bunun əsas səbəbi gənclərin irəli sürülməsində yol verilən qüsurlarla bağlıdır. İndi gənclər irəli sürülərkən əsas arqumentlər budur ki, "xaricdə təhsil alıb", "ingilis dilini bilir" və s. və bu kimi... Ancaq unudulur ki, işçinin ixtisası rəhbərlik edəcəyi sahənin ixtisasına uyğun deyilsə ondan səmərəli fəaliyyət gözləmək olmaz. Ancaq fikrimcə, belə yanaşma yanlış olsa da, əsas səbəb deyil. Əsas səbəb odur ki, gənc adı ilə yüksək vəzifəyə irəli çəkilənlər yenə də hansısa yüksək vəzifəli məmurun yaxın qohumudur. Bu zaman belə gəncin "hansı mühitdə böyüdüyü" nəzərə alınmır, "alma, alma ağacının dibinə düşər" atalar sözü unudulur. Ona görə də hesab edirəm ki, gənclər yüksək vəzifəyə təyin edilərkən ilk növbədə onun ixtisası, vəzifəyə təyin ediləcək sahədə iş təcrübəsi, tərcümeyi-halı ciddi araşdırılmalı və qohumbazlıq, himayədarlıq hallarına yol verilməməlidir.

***-Belə bir məsələ var ki, kiminsə mühüm vəzifəyə çəkilməsi üçün zəmanətçi lazımdır. Kimsə zəmanət verməlidir ki, bu adam sonradan problem yaratmayacaq. Bu, yanaşma doğru deyilsə, dövlət məmuru hardan, kimlər arasından, hansı şərtlərlə seçilməlidir?***

-Keçmiş SSRİ-də belə bir qayda tətbiq olurdu ki, hər bir idarədə, müəssisədə, təşkilatda gələcəkdə hər bir vəzifəyə irəli çəkilmək üçün ehtiyat kadr potensialı yaradılırdı. Düzdür, buna heç də həmişə riayət olunmurdu. Ancaq belə yanaşma bir çox hallarda özünü doğruldurdu. Boşalmış rəhbər vəzifələrə əsasən həmin təşkilatda işləyənlər və uzun illər təcrübədən keçmiş şəxslər təyin olunurdu. İndi bu təcrübə demək olar ki, unudulub, boşalmış rəhbər vəzifələrə, yuxarıda qeyd etdiyim səbəblərdən, əsasən kənardan gətirilənlər təyin olunur və bunun acı nəticələrini görürük. Fikrimcə, bu "təcrübəyə" yenidən baxmaq lazımdır və yüksək vəzifəyə təyin olunanların yaşı, "kimin qohumu olması" deyil, biliyi, bacarığı, təcrübəsi nəzərə alınmalıdır. Belə olarsa zəmanətçiyə ehtiyac qalmaz.

***-Teyyub bəy, başqa bir məqama da toxunmanızı istərdik. Bir neçə gün öncə ABŞ-ın prezidenti Bayden aprel ayının 24-də uydurma "erməni soyqrımı" ifadəsini işlədib. Azərbaycan tərəfi də, bu barədə mövqeyini ifadə etdi. Siz, baş verənləri necə dəyərləndirirsiniz?***

-Bayden bununla özünün və ABŞ-ın güya insan haqlarına qiymət verdiyini nümayiş etdirmək istəyib. Amma unudur ki, tarixdə ən böyük soyqrımı məhz ABŞ yerli hindulara qarşı törədib, milyonlarla hindunu yalnız hindu olduğuna görə məhv edib, doğma torpaqlarından didərgin salıb. Özlərinin hindulara qarşı tarixən sübut edilmiş soyqrımını "unudan" Bayden heç bir zaman baş verməyən "erməni soyqrımı"nı tanımaqla özünü başını kola soxub gizləndiyini hesab edən dəvəquşuna bənzədib. Bayden bilməmiş deyil ki, "erməni soyqrımı" heç vaxt olmayıb! Amma onu da bilir ki, həm ABŞ, həm də Rusiya, eləcə də, bəzi Qərbi Avropa liderləri 100 ildir ki, qondarma "erməni soyqrımı"nı Türkiyəyə qarşı bir siyasi təzyiq vasitəsi kimi istifadə ediblər və bu beləcə də davam etməkdədir.

***-Bu yolla Türkiyəyə təzyiq etmək mümkündürmü?***

-Təbii ki, yox. Onu da unudurlar ki, bu cür cılız siyasətlə Türkiyəni haqq yolundan döndərə, öz müstəqil siyasətini yürütməkdən vaz keçməyə, vassal olmağa vadar edə bilməyiblər və heç vaxt da buna nail ola bilməyəcəklər. Qəribəsi də budur ki, daim türklərə qarşı istifadə edilən alət rolunu oynayan, köçəri, insanlara məxsus bütün mənəvi keyfiyyətlərdən məhrum olan, qaniçən, yürtıcı, təcavüzkar bir toplum olan ermənilərin sevincidir. Bu bədbəxtlər hələ də başa düşmürlər ki, ermənilər, onların taleyi nə ABŞ-ın, nə Rusiyanın, nə də Qərbi Avropa dövlətlərinin vecinə belə deyil, onlar yalnız regionda öz məqsədlərini güdən bu dövlətlərin əlində araqarışdıran maşadırlar. Göründüyü kimi, ermənilər Baydenin "soyqrım" ifadəsinin onları regionda daha çox təcrid halına gətirəcəyini başa düşəcək qədər ağıla da sahib deyillər. Göründüyü kimi 44 günlük müharibədə sarsıdıcı məğlubiyyətə uğrayan ermənilər hələ də ağıllanmayıblar. Deməli onları ağıllandırmaq üçün daha güclü yumruğa ehtiyac var. Hadisələrin gedişi bu yumruğun yetişdiyini göstərir.

***-Baş verənlər Türkiyə-Amerika münasibətlərinin də pisləşməsinə səbəbə olur...***

-ABŞ-la Türkiyə arasındakı münasibətlərə gəlincə, bu ölkə NATO içərisində bizim önəmli müttəfiqimizdir. Ancaq Bayden administrasiyası iki ölkə arasındakı fikir ayrılıqlarının effektiv şəkildə həll edilməli olduğunu çox açıq şəkildə bildirib". ABŞ rəsmisinin bu açıqlaması daldan atılan daşa, "uşaq başı aldatmağa" bənzəyir. Ancaq Co Baydenin bu açıqlamasından məmnun olan ermənilər hələ də anlamırlar ki, bu onların xeyrinə yox, daha çox ziyanlarına işləyən bədnam hadisədir. Hər şeydən göründüyü kimi, ermənilər hələ də, 44 günlük acı məğlubiyyətdən nəticə çıxarmayıblar, regionda yaranan yeni reallıqları dərk etmirlər, öz toplumunun, onları xalq adlandırmaq böyük yanlışlıq olardı. Onlar ölkələrinin gələcək inkişafı barədə deyil, uydurduqları və yalnız özlərinin inandıqları keçmişləri ilə yaşayırlar. Bu bədbəxt toplum hələ də başa düşmür ki, türk düşmənlərinin regionda siyasi maraqlarının təmin edilməsi üçün onların əlində alət olaraq qalmaqdadırlar. Ermənilər dərk etmirlər ki, Co Baydenin bu uzdəniraq bəyanatı regionda gərginliyin davam etməsinə hesablanıb və belə olacağı təqdirdə özlərini tam iflas gözləyir.

***Z.Məmmədli***

# İcra başçılarının həbsi davam edəcək

## Onlar "gözü çıxmış qardaşlardan" niyə dərs almırlar?



***Ötən il mayın 13-də Kəlbəcərə yeni təyin edilən icra başçısını qəbul edərkən ölkə başçısı korrupsioner, rüşvətxor məmurlara açıq şəkildə xəbərdarlıq eləmişdi ki, tutulan vəzifəli şəxslərin acı həyatını yaşamaq istəmirlərsə, düz yola qayıtsınlar.***

”Hər addım cinayət, hər addım rüşvət. Buna son qoyulacaq! Heç kimdə şübhə olmasın! Bizim iradəmiz möhkəmdir, heç kim bizim iradəmizə təsir edə bilməz!” - deyə dövlət rəhbəri bildirmişdi.

Lakin belə görünür ki, bəzi vəzifə sahibləri hələ də öz köhnə, nalayiq vərdişlərindən əl çəkmək istəmirlər. Əks təqdirdə, bir neçə icra başçısı elə kabinetində, cinayət başındaca həbs edilsə də, məsələn, bu həftə Şəmkir Rayonu İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədovun da qandallanmasına şahidlik etməzdik. Görünür, bəzi məmurların qanına rüşvət, yeyinti əməlləri o qədər ”işləyib” ki, bunlardan əl çəkmək onlar üçün heç də asan deyil.

Yoxsa hansı məntiqlə bir insan günlərin bir günü zindana atılmaq növbəsinin ona da çatacağını biləbilə hələ də dövlət vəsiatlərinə başqa gözlə baxsın, dövlətə və xalqa xidmət əvəzinə özünün, ailəsinin biznesi ilə məşğul olsun? Açıq demək lazımdır: əvvələ, heç bir normal təfəkkür sahibi rüşvət almaz, dövlət malını talamaz; lakin deyək ki, tamahının əsirinə çevrildi və rüşvətə, korrupsiyaya bulaşdı, o zaman da aqibətinin nə olacağını bildiyi halda bu qanunsuz, cinayətkar fəaliyyətini davam etdirməz!

Axı ortada ”gözü çıxmış qardaşlar”ın nümunəsi var, Nizaməddin Quliyevlərin, Vilyam Hacıyevlərin, Mahir Quliyevlərin... örnəyi var. Həmin nümunələrə baxıb ibrət götürmək çoxmu çətindir?

Ölkə rəhbərliyi dəfələrlə bəyan edib ki, heç bir məmur kiməsə güvənib, kiməsə arxayın olub öz ”toxunulmazlığı” barədə düşünməsin. Hətta bu açıq xəbərdarlıqlardan sonra da hansısa vəzifə sahibi onu gizli bir əlin bütün çətin situasiyalarda qoruyacağına, bütün müşkül vəziyyətlərdən çıxaracağına inanıb rüşvət almağa, mənimsəməyə davam edirsə, deməli, onun ağlına, zəkasına şübhə eləməkdən başqa yol qalmır. Yalnız ağlı, zəkası axsayanlar bu qədər məmur həbsindən sonra da rüşvətdən, korrupsiyadan ikiəlli yapışmağa cəsarət göstərə bilər. Əlbəttə, əgər buna cəsarət demək mümkündürsə! Bu cəsarətdən çox cahillikdir, kimsə qüsura baxmasın!

Məsələnin digər tərəfi də var və bunu da dilə gətirmək lazımdır. Bəzilərinin məmur həbslərindən nəticə çıxarmamasında önəmli bir məqamın rolunu danmaq mümkün deyil: keçmiş Milli Təhlükəsizlik Nazirliyinə, yaxud Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə rəhbərlik etmiş şəxslərin əksəriyyəti bir neçə il əvvəl ağır cinayətlərdə ittiham ediləərək vəzifələrindən kənarlaşdırıldılar, həbs olundular. Aradan müəyyən müddət keçəndən sonra isə onlar ya az cəza aldılar, ya da müxtəlif vasitələrlə azadlığa çıxdılar. Nəzərə alsaq ki, Azərbaycan ən yüngül cinayətlərə görə həbs-qətimkan tədbiri seçilən, uzun illər həbs cəzası verilən ölkələrdən biri sayılır. Bu gün minlərlə məhbus xırda oğurluq, xuliqanlıq, dələduzluq və s. cinayətlərə görə uzun müddətə həbsxanalarda saxlanılır. Bəs dövlətin milyonlarla vəsaitini mənimsəyənlər necə olur ki, uzağı 2-3 ildən sonra dəmir barmaqlıqlar ardından buraxılır?

Məqsədimiz həmin suala cavab axtarmaq deyil.

Sadəcə, onu demək istəyirik ki, dövlətin, xalqın pullarını talan edən, öz rüşvətxor, korrupsioner əməlləri ilə faktiki olaraq Azərbaycanın inkişaf strategiyasını sabotaj yolu tutan məmurlar yüksək cəza alsalar belə, həbsxanada olduqca az saxlanılması bir çoxlarını həvəsləndirir. Yəqin düşünürlər ki, yüz milyonlarla manatı talan eləməyin əvəzində vur-tut 3-4, lap elə 5 il həbsdə qalmağa dəyər!

Ona görə də ağır cinayətlərə imza atan vəzifəlilərin cəzası da törətdikləri əməllərə mütənasib olmalıdır ki, bəlkə onda yerdə qalanlar da ”gözü çıxmış qardaşlarından” dərs almağı öyrənməyə başlasınlar...

***Toğrul Əliyev***

# Qənirə Paşayevadan daha bir şahid anasına ehtiram

***Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayeva Qusar rayonu, Cibir kənd sakini, Vətən Müharibəsinin şəhid hərbi qulluqçusu Murad Məmməziyad oğlu Kəlbiyevin anası Rübabə Şıxmət qızı Kəlbiyeva ilə Milli Məclisdə görüşüb, şəhid ailəsinin qayğıları ilə maraqlanıb, ürək sözlərini bölüşüb:***



”Əziz şəhid anası, Siz, Vətən uğrunda öz canını qurban vermiş mərd oğulun anasısız. İşğalçı düşmən üzərində qələbə münasibəti ilə sevinci, qüruru və təbriki ən çox Siz şəhid anaları haqq edirsiz. Biz Sizə çox minnətdarıq! Muradın ruhu qarşısında dərin ehtiramla baş əyirik!

Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olan oğlunuz snayperçi kimi, kəşfiyyatçı kimi öz peşəkarlığı ilə seçilib. O, Füzulinin azadlığı uğrunda fədakarlıqla döyüşüb və şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Murad Kəlbiyev, Azərbaycan Prezidentinin Sərəncamına əsasən “Vətən uğrunda” medalı ilə təltif edilib. O, həmçinin Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə “Füzulinin azad olunmasına görə” medalı ilə də təltif edilib.

Murad kimi gənclərimizlə hər zaman qürur duyacağıq!

Ulu Tanrıya çox şükürlər olsun, şəhidlərimizin qanı yerdə qalmayıb, düşməndən ağır intiqam alınıb. Azərbaycanımızın tarixi zəfəri münasibəti ilə Sizi bir daha təbrik edir, vətəncanlı övlad böyütdüyünüz üçün təşəkkür edirik!”.

Q.Paşayeva şəhidin anasına Qarabağ motivli xatirə hədiyyələri təqdim edib.

# Azay Quliyev Dövlət Agentliyində sədr seçildi



***Azay Quliyev Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri seçilib.***

Bu barədə “Unikal”a Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyindən məlumat verilib.

Məlumata görə, aprelin 30-da Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının ilk iclası keçirilib.

İclasda təşkilati məsələlərə baxılıb. Azay Quliyev Agentliyin Müşahidə Şurasının sədri, Vüsal Quliyev isə sədr müavini seçilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin bir neçə gün öncə imzaladığı sərəncamla Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının aşağıdakı tərkibi təsdiq edilib:

**Dövlət orqanlarından**

Quliyev Vüsal İlham oğlu - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Qeyri-hökumət təşkilatları ilə iş sektorunun böyük məsləhətçisi

Məmmədov İlqar Kamil oğlu - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinin rəisi

Hacıyev Zakir Yusif oğlu - Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrinin maliyyəsi şöbəsi müdirinin müavini

**Qeyri-hökumət təşkilatlarından**

Allahverənov Azər Kərim oğlu - “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyinin sədri

Həsənov Əvəz Yediyar oğlu - “Humanitar Tədqiqatlar” İctimai Birliyinin sədri

İsgəndərov İsrayıl İsa oğlu - “Ümid” Sosial İnkişafa Dəstək İctimai Birliyinin sədri

İbrahimov Zaur İbrahim oğlu - “Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri

Quliyev Azay Əjdər oğlu - “Beynəlxalq Əməkdaşlıq Mərkəzi” İctimai Birliyinin sədri

Mehdiyev Nurəddin Səftər oğlu - “Virtual Qarabağ” İnformasiya Kommunikasiya Texnologiyaları Gənclər İctimai Birliyinin sədri

Orucov İlqar Nəcibəddin oğlu - “Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyəti” İctimai Birliyinin sədri

Səfərova Günel Məhərrəm qızı - “Vətəndaş” Tədqiqat və İnkişaf İctimai Birliyinin sədri.

# Nazirlik intihara cəhd edən şəxsi xilas etdi

***Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi üzərinə düşən vəzifələrin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.***

“Unikal”ın məlumatına görə, Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında Nazirliyin aidiyyəti qurumları tərəfindən ötən sutka ərzində 22 yanğına çıxış və 1 intihara cəhd faktı üzrə qəzaxilasetmə əməliyyatları həyata keçirilib.

Görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insan həyatının xilas olunması təmin edilib.

Ümumilikdə, ötən sutka ərzində intihara cəhd edən 1 nəfər xilas edilib.

# Milli Məclisin növbəti iclasının vaxtı və gündəliyi



***Milli Məclisin növbəti iclasının vaxtı və gündəliyi açıqlanıb.***

"Unikal"ın məlumatına görə, mayın 4-də keçiriləcək iclasda 11 məsələ müzakirə olunacaq. Həmin məsələlər aşağıdakılardır:

1. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Qanin, qan komponentlərinin donorluğu və qan xidməti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında", "Arıçılıq haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Təhsil haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında", "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında", "Yaşıllıqların mühafizəsi haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Psixoloji yardım haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. "Dənizçilərin şəxsiyyət sənədləri haqqında" 2003-cü il tarixli 185 nömrəli Konvensiyanın (dəyişdirilmiş) Əlavələrinə edilmiş 2016-cı il tarixli dəyişikliklərin təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

6. "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin və "Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi"nin təsdiq olunması barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanununda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Əlet azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

# Nazirlikdən xəbərdarlıq

***Bakıda mayın 1-i gündüz, Abşeron yarımadasında isə mayın 2-i arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində intensivləşəcəyi gözlənilir.***

Unikal.org xəbər verir ki, bu barədə Milli Hidrometeorologiya Xidməti xəbərdarlıq yayıb.

Azərbaycanın rayonlarında mayın 3-ü gündüzədək qeyri-sabit hava şəraitinin davam edəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, şimal və qərb rayonlarında dolu düşəcəyi gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir 15-20 m/s-dək güclənəcək.

Çaylarda sululuğun artacağı ehtimal olunur.

# Fazil Məmmədov üçün "Səlim Müslümov yolu"...

## Şəmkir rayonunun keçmiş icra başçısının qandallanması sabiq "vergi şefi"nin "yuxusunu qaçırıb"

***Yola salmaq üzrə olduğumuz həftəyə damğa vuran ən səs-küylü hadisə şübhəsiz ki, Şəmkir rayonunun sabiq icra başçısı Alimpaşa Məmmədovun həbsidir. Əvvəl-axır qandallanması qətiyyən şübhə doğurmayan A.Məmmədova qarşı Cinayət Məcəlləsinin 179 (Mənimsəmə və ya israf etmə) və 311-ci (Rüşvət alma, passiv rüşvətxorluq) maddələri irəli sürülüb.***

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla saxlanılan sabiq icra başçısı barədə məhkəmənin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.



Adı uzun müddətdir ki, ölkənin ən korrupsioner və rüşvətxor icra başçılarının siyahısında ilk sırada hallanan A.Məmmədovun qandallanması ictimai rəydə təəccüb doğurmadı o, rəhbəri olduğu Şəmkir rayonunda özünü həqiqi mənada "kiçik padşah" kimi aparırdı və bu mənada həbs edilməsində qeyri-adi, gözlənilməz bir şey yoxdur.

Lakin sözügedən eks-məmurun həbsi eyni zamanda keçmiş nazirlərdən birinin də başı üzərini "qara buludlar" aldığını söyləməyə əsas verir.

Daimi oxucularımız xatırlayacaqlar, elə ötən sayımızda ləğv edilmiş Vergilər Nazirliyinə rəhbərlik eləmiş Fazil Məmmədovla bağlı sürpriz gelişmələrin yaşana biləcəyini vurğulamışdıq. Bildirmişdik ki, son günlər sabiq vergilər naziri Fazil Məmmədovun adının yenidən ilginc xəbərlərin "baş qəhrəmanına" çevrilməsi təsadüfi deyil. Nə onun kürəkəni Əbdül Əliyevin İngiltərənin paytaxtı Londondakı çoxmilyonluq maliyyə əməliyyatlarının gündəmə gəlməsinin, nə də eks "vergi şefi"nin Şəmkirdəki əmlaklarını satışa çıxarmasının təsadüf olmadığını vurğulamışdıq.

"Unikal"ın yazdıqları bir daha təsdiqləndi. Şəmkir rayonuna məhz F.Məmmədovun sayəsində icra başçısı təyin edilən Alimpaşa Məmmədovun həbsi Azərbaycanda yeni bir sabiq nazirin "Səlim Müslümovun aqibəti"ni yaşamağın bir addımlığında olduğunu təsdiqlədi. Son sayımızda da yazdığımız kimi, əslində keçmiş "vergi şefi" hazırda dəmir barmaqlıqlar ardına məhkum edilən yüksək vəzifəli şəxslərdən biri olmalı idi. Lakin onun postundan kənarlaşdırıldıqdan az sonra səhhəti kəskin pisləşdi və bu da onun barəsində sərt qərarların qəbul edilməsini əngəllədi.

A.Məmmədovun həbsi belə bir ehtimal irəli sürməyə imkan verir ki, Fazil müəllimin səhhəti ilə bağlı narahatlıqlar arxada qalıb və onun da hüquq qarşısında cavab verməli olduğu gün yetişib. Bir zamanlar kuratoru olduğu rayona Alimpaşa kimi peşəkarlıqdan çox uzaq birini vəzifəyə gətirən, nəticədə Şəmkirdə rüşvət və korrupsiyanın at oynatmasına "yaşıl işıq" yandıran eks "vergi şefi"nin indi qarşıda olduqca ciddi sualların cavabı gözləyir.

Məsələn, F.Məmmədovun müavini Namiq Əliyevlə qudalığı təsadüf idimi? Axı N.Əliyev bu ilin əvvəllərində Londonda çoxmilyonluq əməliyyatlar aparan Əbdül Əliyevin atasıdır. Elə isə kürəkəndə bu əməliyyatları aparacaq maddi güc hardandır? Doğrudanmı, bunda nazir-nazir müavini qudalığının hər hansı rolu olmayıb?

Yaxud, ötən ilin yayında adı Fazil Məmmədovun pullarını ofşorlara daşımaqda hallanan Qafar Qurbanovla bağlı da ilginc iddialar yayılmışdı. Bildirilirdi ki, o, Azərbaycan hüquq mühafizə orqanlarının ölkəyə gəlib ifadə verməsi ilə bağlı tələbini pozur. Sabiq nazirə məxsus "Atabank"ın Müşahidə Şurasının üzvü postunu tutmuş Qurbanov öz dəbdəbəli həyatı ilə Fazil Məmmədovdan geri qalmırmış. Onun bu qədər sərvətə necə yiyələndiyi isə müzakirə mövzusudur. Belə görünür ki, o, keçmiş "vergilər şefi"nin pullarını yalnız ofşorlara yox, xeyli dərəcədə də öz cibinə daşıyıb"ş. Nəticədə "Atabank"ın bağlanmasına gətirib çıxaran başlıca səbəb ciddi maliyyə oyunlarından həqiqətənmi keçmiş "vergi şefi"nin heç bir xəbəri olmayıb?

Ən əsası, F.Məmmədovun "vurulmasından" sonra Azərbaycanda büdcəyə vergi daxilolmalarının məbləği xeyli artdı. Bu isə belə bir qənaətin doğruluğuna şübhə yeri qoymurdu ki, uzun illər boyunca vergi sektorunda faktiki olaraq qeyri-şəffaf mühit hökm sürüb, nəticədə, büdcəyə daxil olmalı olan milyonlarla manat kimlərinsə (!!) cibinə yönəlib. Beləliklə, növbəti sual: həqiqətənmi bu mənimsəmələrdən eks nazirin hər hansı bilgisi yox imiş?

Göründüyü kimi ortada kifayət qədər vacib suallar var və həmin sualların indiyədək cavabsız qalması heç bir məntiqə sığmır.

Belədə, A.Məmmədovun "himayədarının" da bu həbsin ardınca hüquqi məsuliyyətə cəlb edilməsi tamamilə realdır. Qalır həmin ehtimalın nə vaxt reallaşacağına... Gedişat onu göstərir ki, həmin günü çox gözləməyə lazım gəlməyəcək. Qısası, proses sabiq "vergi şefi"nin də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hazırda dəmir barmaqlıqlar ardında saxlanılan keçmiş rəhbəri Səlim Müslümovun aqibətini yaşamağa doğru gedir...

***Toğrul Əliyev***

# Daha bir sabiq iri məmurun başı böyük bəlada...

## Əkbər Hacıyevin rəhbərlik etdiyi dövrdə "Azəriqaz"dakı yeyintilər gündəmə gəlir

***Son vaxtlar Azərbaycanda yalnız hazırda vəzifə tutan şəxslərin deyil, sabiq məmurların da yol verdiyi korrupsiya hallarının araşdırılması və nəticədə qanunvericiliyə uyğun addımların atılması intensivləşib. Nəticədə bir zamanlar önəmli post sahibi olanlar barədə hüquqi ölçülər götürülməyə başlanıb ki, bu da ictimai rəydə müsbət qarşılanır.***

Artıq cəmiyyət növbəti mərhələdə təkcə hazırkı yox, eks məmurlardan da kimlərin cinayət məsuliyyətinə cəlb edilə biləcəyini müzakirə edirlər. Bu müzakirələr zamanı adı ön plana çıxanlardan biri isə "Azəriqaz" İstehsalat Birliyinin (İB) sabiq rəhbəri Əkbər Hacıyevdir.

Öncəliklə yada salmaqda fayda var ki, Ə.Hacıyevin rəhbərliyi dövründə "Azəriqaz" ölkənin ən



çox tənqid edilən qurumlarından biri idi. Adıçəkilən İB-nin fəaliyyətindəki saysız-hesabsız problemlər hətta ölkə başçısının açıq və sərt müdaxiləsinə gətirib çıxarmışdı. Belə ki, dövlət rəhbəri Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında adıçəkilən "Azəriqaz"dan narazılıqları dilə gətirmişdi. Ölkə başçısı bildirmişdi ki, bu qurum özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır: "Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır..."

Xatırlatmaq lazımdır ki, Əkbər Hacıyev dövlət rəhbərinin məhz bu tənqid və xəbərdarlığından bir neçə ay sonra, 2019-cu ilin payızında "Azəriqaz"dakı vəzifəsindən kənarlaşdırıldı.

Haqqında danışılan İB-nin sabiq rəhbərinin bu şəkildə "vurulması" onun barəsində hüquqi ölçü götürülə biləcəyini gündəmə gətirmişdi. Həmin vaxt istər mərkəzi mətbuatda, istərsə də vətəndaş cəmiyyətində Ə.Hacıyevin hətta həbs edilmə ehtimalından danışılırdı. Əslində onun barəsində belə bir qərarın verilməsi kimsəni təəccübləndirməyəcəkdi. Çünki ortada kifayət qədər ciddi korrupsiya şübhəsi var idi.

Məsələn, Hesablama Palatası sabiq rəis işdən çıxarılmamışdan bir il öncə bu qurumda inanılmaz korrupsiya, yeyinti faktları ortaya çıxarmışdı. Müəyyən edilmişdi ki, 2009-2013-cü və 2014-2018-ci illər üzrə Dövlət Proqramlarına əsasən ölkənin qazla təmin edilməyən məntəqələrinin qazla təchiz edilməsi, rayon və şəhərlərin qaz təchizatının yaxşılaşdırılması sahəsində müvafiq işlərin davam etdirilməsi və Bakı şəhərində qaz təchizatının yaxşılaşdırılması istiqamətində işlərin davam etdirilməsi məqsədi ilə Dövlət Neft Şirkəti tərəfindən dövlət əsaslı vəsait qoyuluşu üçün tələb olunan büdcə vəsaitlərinin proqnozlaşdırılması zamanı Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinq və qiymətləndirilməsi Qaydaları"nın tələblərinə əməl edilməyərək bu sahə üzrə dövlət investisiya layihələrinin əsaslandırılması, ilkin təhlili və qiymətləndirilməsini özündə əks etdirən investisiya təklifləri tərtib edilməyib. Birbaşa layihə-smeta sənədlərinin hazırlanması, layihənin texniki- iqtisadi əsaslandırılması və qiymətləndirilməsi, həmçinin tikinti layihələrinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə uyğunluğunun yoxlanılması və həmin tikinti obyektlərinə ayrılmış vəsaitlərin səmərəli istifadəsinin qiymətləndirilməsi baxımından ekspertizadan keçirilməsi təmin olunmayıb. Qazlaşdırma tədbirlərinin intensiv olaraq həyata keçirilməsinə, o cümlədən qaz təsərrüfatı şəbəkəsinin əsaslı surətdə yenilənməsinə, əsasən əhali istehlakçı qrupu üzrə qaz şəbəkəsinin yenidən qurulmasına vəsait qoyulsa da, Birlik üzrə normadan artıq itki 2014-cü ildə 12,4% təşkil edib, 2015-ci ildə isə 14% olub...

Bütün bunlar "Azəriqaz"ın fəaliyyətindəki neqativ halların kiçik bir qismini təşkil edirdi. Hansı ki, həmin halların hamısı rəsmi şəkildə təsdiqini tapmışdı.

Üstəlik, Ə.Hacıyev ölkə rəhbərliyinin mütəmadi tapşırıqlarına və dövlət büdcəsindən hərtərəfli maliyyə dəstəyinə baxmayaraq Azərbaycanın tam qazlaşdırılmasını təmin eləmək iqtidarında olmadığını nümayiş etdirirdi. Bu məqsədlə ayrılan vəsaitlərin gerçək taleyi ilə bağlı müzakirələr səngimirdi.

Vətəndaşların sərfiyyatdan artıq qazpulu yazılması ilə bağlı şikayətlərindən isə ümumiyyətlə danışmağa dəyməzdi. Bir çoxu məhkəmələrədək gedib çıxan və əksər hallarda "Azəriqaz" əleyhinə qərardadların çıxarılması ilə nəticələnən həmin giley-güzarlar sosial şəbəkələri, yazılı və elektron KİV səhifələrini bəzəyirdi.

İctimai rəydə artıq heç bir şübhə qalmamışdı ki, adıçəkilən İB misli görünməmiş mənimsəmə, yeyinti, rüşvət yuvasına çevrilib...

Buracan yazılanları ümumiləşdirdikdə "Azəriqaz"ın keçmiş rəhbərinin adının da barəsində hüquqi ölçü götürülə biləcək sabiq məmurlar arasında hallanması qətiyyən təəccüblü görünmür. Belə bir ehtimalın reallaşıb-reallaşmayacağını isə zaman göstərəcək. Odur ki, tələsməyək və gözləyək...

***Sənan Mirzə***

# "Nəlbəki" çay evində nöqsanlar aşkarlandı - SİYAHI



***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) nəzarət tədbirləri çərçivəsində ötən gün ölkə üzrə 449 ictimai iaşə obyektində 756 monitorinq keçirib.***

AQTA-dan Unikal.org-a verilən məlumata görə, monitorinqlər zamanı 21 müəssisədə qanunvericiliyin tələblərinin kobud şəkildə pozulması faktları aşkar olunub.

Aşkar olunmuş nöqsanlarla bağlı İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müvafiq tədbirlər görülüb. Uyğunsuzluqlar aşkar edilən ictimai iaşə müəssisələri aşağıdakılardır:

1. Bakı şəhəri, Səbail rayonu, Ə. Əliyev küç., ev 9 ünvanında yerləşən, fiziki şəxs Suna Kasım oğluna məxsus "Suna ilə" kafesi;
2. Bakı şəhəri, Xətai rayonu, Həsən Salani 17 ünvanında yerləşən, fiziki şəxs Rüstəmli Fuad Taleh oğluna məxsus "Nəlbəki" çay evi;
3. Bakı şəhəri, Suraxanı rayonu, Qaraçuxur ştq, Ə. Mehbalıyev prospekti, ev 14Z ünvanında yerləşən, fiziki şəxs Məmmədov Tamerlan Cavid oğluna məxsus dönər evi;
4. Bakı şəhəri, Sabunçu rayonu, Bakixanov ştq, Şamil Kamilov küçəsində yerləşən, fiziki şəxs Tagıyev İlahi Rəhim oğluna məxsus "Pub" kafesi;
5. Bakı şəhəri, Qaradağ rayonu, Müşviqabad ştq ünvanında yerləşən, fiziki şəxs Məmmədov Elvin Ceyhun oğluna məxsus "Taxtalı" kafesi;
6. Bakı şəhəri, Qaradağ rayonu, Müşviqabad ştq ünvanında yerləşən, fiziki şəxs Məmmədov Barat Tariyel oğluna məxsus "Barat" çay evi;
7. Bakı şəhəri, Yasamal rayonu, B. Bağırova küç., ev 2A ünvanında yerləşən, fiziki şəxs Əhmədov Sərxan Qərib oğluna məxsus "Meduza" restoranı;
8. Bakı şəhəri, Yasamal rayonu, B. Bağırova küç., ev 2A ünvanında yerləşən, fiziki şəxs İsmayılov Xalid Behbud oğluna məxsus "Maestro" kafesi;
9. Bakı şəhəri, Binəqədi rayonu, Atatürk pr., ev 182 ünvanında yerləşən, fiziki şəxs İsgəndərov Rəşad Nazim oğluna məxsus kafe;
10. Bakı şəhəri, Yasamal rayonu, B. Vahabzadə küçəsi 14 ünvanında yerləşən, fiziki şəxs Rəfiyev Nurlan Raqib oğluna məxsus kafe;
11. Bakı şəhəri, Nəsimi rayonu, R. Rza küç., ev 31m ünvanında yerləşən, hüquqi şəxs "Rash.m.m. Trade and Servicrs-2020" MMC-yə məxsus restoran;
12. Bakı şəhəri, Nəsimi rayonu, Aslanov küç., ev 101m ünvanında yerləşən, fiziki şəxs Quliyev Təvəkkül Şirməmməd oğluna məxsus kafe;
13. Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev prospektində yerləşən, fiziki şəxs Seyidli Xəyyam Məhəmmədli oğluna məxsus "Şaurma1" kafesi;
14. Bakı şəhəri, Yasamal rayonu, Azad Mirzəyev 25b ünvanında yerləşən, fiziki şəxs Sultanov Altay Şərafəddin oğluna məxsus "Qorodok" restoranı;
15. Sumqayıt şəhəri, 9-cu mikrorayonda yerləşən, fiziki şəxs Ağayev Kamran Əbülfəz oğluna məxsus "Shish meat house" kafesi;
16. İsmayıllı rayonu, Cavanşir küçəsində yerləşən, fiziki şəxs Abbasov Xəzər Hafis oğluna məxsus kafe;
17. Ağstafa rayonu, Eldəniz Musayev küçəsində yerləşən, fiziki şəxs Məmmədov Taleh Müzəffər oğluna məxsus restoran;
18. Gəncə şəhəri, Heydər Əliyev parkında yerləşən, fiziki şəxs Məmmədov Elnur Cəfər oğluna məxsus kafe;
19. Masallı rayonu, 20 Yanvar küçəsində yerləşən, fiziki şəxs Həsənov Xoşbəxt Allahverən oğluna məxsus kafe;
20. Masallı rayonu, 20 Yanvar küçəsində yerləşən, fiziki şəxs Mahmudov Rais Elman oğluna məxsus kafe;
21. Ağcabədi rayonu, Ü. Hacıbəyov küçəsində yerləşən, fiziki şəxs Əmirov Elvin Cəfər oğluna məxsus restoran.

Qeyd edək ki, AQTA tərəfindən Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən ictimai iaşə obyektlərində monitorinqlərin miqyası genişləndirilib. Hazırda respublika üzrə AQTA müfəttişləri tərəfindən monitorinqlər davam etdirilir və qaydalara əməl etməyən sahibkarlıq subyektləri barədə ən sərt tədbirlər görüləcəkdir.



# "Dağlıq Qarabağın Azərbaycanlı İcması" buraxıldı

***"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi müraciət yayıb. "Unikal"ın məlumatına görə, müraciətdə deyilir:***

"2006-cı ildə ictimai birlik kimi qeydiyyata alınmış "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" öz fəaliyyəti dövründə torpaqlarımızın Ermənistan tərəfindən işğalı, 1 milyondan artıq azərbaycanlının öz ata-baba yurdlarından qovularaq etnik təmizləməyə, soyqırımına məruz qalması, mədəni və dini irsimizin sistematik şəkildə dağıdılmasının işıqlandırılmasında, Ermənistanın işğalçı siyasətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində aktiv fəaliyyət aparmışdır. Bu illər ərzində icma üzvləri ölkə daxilində və kənarda keçirilən çoxsaylı görüşlərdə, səfərlərdə, təşkil olunan konfranslarda həmişə Ermənistanın işğalı nəticəsində azərbaycanlı məcburi köçkünlərin pozulmuş fundamental insan hüquqlarının bərpa olunmasına diqqət çəkmişdir.

Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, biz heç vaxt öz dədə-baba torpaqlarımıza qayıdacağımıza olan inamımızı itirməmişdik. Biz mütəmadi olaraq sülh şəraitində birgəyaşayış çağırışları etsək də, təəssüf ki, bu çağırışlara Ermənistan və Qarabağın erməni icması tərəfindən müsbət cavab verilməmişdir.

Nəhayət ki, ötən il 44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Qarabağımız işğaldan azad edildi, milyonlarla insanın 30 illik vətən həsrətinə son qoyuldu. Ölkəmizin ərazi bütövlüyü və tarixi ədalət bərpa edildi. İşğalçı Ermənistan ordusu darmadığın edilərək torpaqlarımızdan çıxarıldı və bu zəfər xalqımızın tarixinə qızıl hərflərlə həkk edildi. Cənab Prezident həm döyüş meydanında, həm diplomatiyada, həm də informasiya müharibəsində ölkəmizin qalibiyyətini təmin etdi. Uzun illərdir gözlədiyimiz xəyallarımız gerçəkləşdi və Azərbaycan öz əzəli və tarixi hissəsi olan Qarabağa qovuşdu.

Bundan sonra həm Azərbaycan, həm də onun tərkib hissəsi olan Qarabağ yeni tarixi mərhələyə qədəm qoymuşdur. Artıq "Dağlıq Qarabağ" adlı inzibati ərazi vahidi və onun statusu anlayışı yoxdur. Çoxmilləti və multikultural ölkəmizdə yaşayan bütün milli azlıqlar kimi ermənilər də Azərbaycanda fərdi vətəndaşlar olaraq sərbəst şəkildə yaşayacaqlar.

Vətən Müharibəsindən sonra yaranmış yeni reallıqda "Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" və "Dağlıq Qarabağ bölgəsinin erməni icması" anlayışları öz aktuallığını və ictimai əhəmiyyətlərini itirib. Bütün bunları nəzərə alaraq, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi 30 aprel 2021 ci il tarixdə iclas keçirərək, təşkilatın buraxılmasına qərar vermişdir.

Bundan sonrakı fəaliyyətimizi Prezident İlham Əliyevin rəhbərliyi altında tarixi və əzəli torpaqlarımıza böyük qayıdışın uğurla başa çatdırılmasına, Qarabağımızın dirçəldilməsinə yönəldəcəyik. Biz əminik ki, qısa zamanda Qarabağ ölkəmizin ən inkişaf etmiş yerlərindən birinə çevriləcək. Ermənistanın işğalı dövründə dağıdılmış bütün şəhər və kəndlərimiz, mədəni və tarixi abidələrimiz, məscidlərimiz bərpa olunacaq. Xalqımız üçün xüsusilə əziz olan Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri müzəffər Ali Baş Komandanımızın da dediyi kimi nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcək. Qarabağda yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının ölkəmizin iqtisadi, sosial və humanitar həyatına reinteqrasiyasının və Azərbaycan Respublikasının qanunları çərçivəsində yaşayışının təmin edilməsi istiqamətində müvafiq işlər həyata keçiriləcək. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, bu müqəddəs missiyanı dəstəkləmək üçün "Qarabağa dönüş" adlı ictimai birliyin yaradılmasını bəyan edirik".

# Azərbaycanda "Tarixi yaradanlar" kitab seriyasının nəşrinə başlanılıb

## Elnur Astanbəyli: "Bu seriya ölkəmizin kitab bazarındakı ciddi bir boşluğu doldurmağa hesablanıb"

***Azərbaycanın aparıcı nəşriyyatlarından olan "Altun kitab" nəşrlər evi "Tarixi yaradanlar" seriyasından elmi-kütləvi əsərlərin nəşrinə başlayıb. Layihə Azərbaycan və dünya tarixinə yeni istiqamət verən görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətindən bəhs edəcək kitabların nəşrini nəzərdə tutur.***

"Unikal" qəzetinin əməkdaşı layihə barədə ətraflı məlumat almaq üçün seriyanın redaktoru, şair-publisist Elnur Astanbəyli ilə söhbətləşib. İndi həmin müsahibəni sizə təqdim edirik.

***- Elnur bəy, "Tarixi yaradanlar" seriyası hansı ehtiyacdan doğub?***

- Əvvəla, tarix keçmişdən daha çox gələcəklə bağlı bir elmdir. O mənada ki istər ayrılıqda xalqlar, istərsə də ümumilikdə bəşəriyyət gələcəyini məhz tarixdən nəticələr çıxararaq, ibrətlər alaraq inşa elədikdə biz daha arzuolunan cəmiyyətdə, yaxud dünyada yaşaya bilərik. Tarixi isə ya hadisələr, ya da şəxsiyyətlər üzərində qavramaq, ərk eləmək mümkündür. Əslində, bu ikisi bir-birindən bağımsız da deyil: şəxsiyyətlərin tarixi eyni zamanda hadisələrin tarixidir, yaxud əksinə... "Tarixi yaradanlar" seriyasının ilk məqsədi də Azərbaycan və dünya tarixinə yön vermiş görkəmli simalara, deməli, həm də bu simalar fonunda hadisələrə nəzər salmaq, nəticə etibarilə isə iki şeyə nail olmaqdır: birincisi, bu seriyaya daxil edilən elmi-kütləvi kitablarla bir yandan ən müxtəlif yaş qruplarını təmsil edən geniş oxucu kütlələrinin tarix bilincini artırmaq; ikincisi, tarix bilincinə yiyələnən geniş oxucu kütlələrinə keçmişin doğrularını və yanlışlarını müqayisə şansı tanımaq, bununla da cəmiyyətin daha doğru istiqamətdə inkişafına töhfə verməsinin önünü açmaq. Bu məsələnin bir az fundamental tərəfidir. Bəsit tərəfi isə ondan ibarətdir ki, "Tarixi yaradanlar" seriyası ölkəmizin kitab bazarındakı ciddi bir boşluğu doldurmağa hesablanıb. Məsələ burasındadır ki, Azərbaycan və dünya tarixini dəyişdirən şəxsiyyətlərin həyat və fəaliyyəti, ideya və dünyagörüşləri, daxili aləmləri, bilinməyən yönləri ilə bağlı müfəssəl bilgi əldə etmək istəyən oxucular bu tələbatlarını ödəməyə çətinlik çəkirlər. Haqqında danışdığımız seriyadan işıq üzü görən və görəcək elmi-kütləvi əsərlər həmin çətinliyi aradan qaldıracaq.

***- Seriyadan indiyədək hansı kitablar nəşr edilib?***

- Biz indiyədək ən müxtəlif sivilizasiyaları təmsil edən tarixi şəxsiyyətlər barədə kitabların çapına nail olmuşuq. Bu sırada Çingiz xan, Əmir Teymur, Makedoniyalı İsgəndər, Fateh Sultan II Mehmet, Attila, Napoleon Bonapart, Yuli Sezar, Leonardo da Vinçi, Səlahəddin Əyyubi, Albert Eynşteyn, Çarli Çaplin, Alfred Nobel, Karfagenli Hannibal kimi önəmli simalar var. Gördüyünüz kimi, bu şəxsiyyətlər həm fərqli zamanları, həm fərqli qütbləri, həm də fərqli sahələri təmsil edirlər. Üstəlik, çap olunan kitablar tanınmış, mötəbər xarici müəlliflərdən qələmə alınıb. Daha önəmli olan isə onların istər məktəblilər, istərsə də yuxarı yaş qruplarına aid oxucular tərəfindən rahatlıqla oxunmasıdır. Bir sözlə, nəşrlərdə elmi-kütləvi ədəbiyyatın başlıca kriteriyaları gözlənilib. Kitablar səlis dili və aydın üslubu ilə istənilən yaş qrupuna aid oxucunun bütün tələblərinə cavab verirlər. Onlar hər hansı şəxsiyyət barədə çox sayda əcnəbi əsər içərisindən xüsusi həssaslıqla seçiliblər və dilimizə peşəkar səviyyədə tərcümə olunublar. Bu kitabların üstün cəhətlərindən biri də yalnız haqqında danışılan şəxsiyyətin həyat və fəaliyyəti deyil, onun yaşadığı dövr və mühit barədə də oxucularda geniş təsəvvür yarada bilməsidir. Bir məqama da toxunmamaq olmaz. Maraqlı və dolğun məzmunu ilə bərabər, nəfis tərtibatı və gözoxşayan şrifti ilə diqqət çəkən kitabların daha bir önəmli cəhəti isə qiymətinin münasibliyindədir. Onları cəmi 5 AZN-ə əldə etmək mümkündür. Yəni, maddi baxımdan oxucu üçün əlçatan olması da seriyanın dəyərini artırır.

***- Elnur bəy, bir az əvvəl dediklərinizdən belə başa düşdüm ki, "Tarixi yaradanlar"da Azərbaycanın da görkəmli şəxsiyyətləri ilə bağlı əsərlərin nəşri nəzərdə tutulub. Ancaq yuxarıda adını çəkdikləriniz arasında onların adlarına rast gəlmədik...***



- Çox təəssüf ki, Azərbaycanın tarixi şəxsiyyətləri barədə sırf elmi-kütləvi əsərlər yox dərəcəsindədir. Bu səbəbdən də biz boşluğu aradan qaldırmaq missiyasını üzərimizə götürdük. Layihə çərçivəsində Azərbaycanın tanınmış alimləri, araşdırıcı yazarları ilə tariximizin görkəmli simaları barədə mətnlərin yazılması məsələsində anlaşdıq. Artıq Şəmsəddin Eldəniz, Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə, Şah Abbas, Qara Yusif və digərləri ilə bağlı kitablar ya çapa hazırlıq, ya da yazılma mərhələsindədir. Yaxın gələcəkdə bu siyahıda Uzun Həsən, Nadir şah, Ağa Məhəmməd şah Qacar, Mirzə Fətəli Axundzadə, Üzeyir Hacıbəyli, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Həzi Aslanov kimi simalar da olacaqlar. Bir sözlə, qarşıdakı müddətdə həm Azərbaycan tarixinin müxtəlif mərhələlərini təmsil edən şəxsiyyətlər barədə kitablarımız, həm də dünya tarixində iz qoymuş Kolumb, Çörçill, İbn Sina, "Şir ürəkli Riçard" ləqəbi ilə məşhur olan ingilis kralı I Riçard, Atatürk kimi simalarla bağlı kitablar hesabına seriyamız zənginləşməkdə davam eləyəcək.

Yeri gəlmişkən, bir önəmli məqamı da vurğulamaqda fayda var. Seriya ilə bağlı bir yandan həm Azərbaycanın tərcümə sahəsində imzası bəlli qələm adamları ilə əməkdaşlıq edirik, digər tərəfdən də bir çox yerli mötəbər müəlliflərlə, tədqiqatçılarla anlaşmışıq. Düşünürəm ki, bu, çap olunan və olunacaq kitabların dəyərini, oxunaqlılığını və mötəbərliliyini daha da artıran önəmli amillərdən biridir.

***Söhbətləşdi: Aysel Səfərli***

# Moskva Qarabağda yeni dövrə hazırlaşır - TƏHLİL



***Avrasiya İqtisadi Birliyinin Hökumətlərarası Şurasının iclasında iştirak üçün Rusiyada olan Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan nümayəndə heyəti arasında aprelin 29-dan 30-na keçən gecə gizli görüş keçirilib.***

Erməni mənbələrində yayılan bu iddiaya görə, görüşdə iki məsələ müzakirə olunub:

- Nəqliyyat kommunikasiyalarının açılmasına dair yol xəritəsi;

- Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması.

Bu iddianı daxili siyasi mübarizədə Paşinyana qarşı növbəti ittiham hesab etmək olar, lakin görüşdə müzakirə edilən məsələlər son proseslər fonunda diqqət çəkir və müəyyən ehtimalları ön plana çıxarır.

ABŞ regiona Ermənistan üzərindən təsirlərini artırmaq gedişləri edir, Baydenin “soyqırımı” ifadəsi də buna hesablanan addım idi.

Ermənistanın Moskvanın çətiri altından çıxarmaq və münaqişənin Rusiyasız həlli üçün “Bolton planı” dövriyyədə idi, lakin ABŞ gecikdi və Avrasiyada geosiyasi dəyişiklik planı önə çıxdı. “Amerika qayıdır” şüarı ilə hakimiyyətə gələn Bayden Avrasiyadakı dəyişikliyin ABŞ-ın maraqlarına uyğunlaşdırmaq istəyir. “Soyqırımı” məsələsindən sonra Blinkenin Bakıya zəngi də Vaşinqtonun balansı qorumaqla yanaşı, bu niyyətindən irəli gəlir.

Amerikalıların gəlişini hiss edən ruslar narahatdır və mümkündür ki, Qarabağla bağlı prosesi sürətləndirmək üçün sülh müqaviləsinin - 10 noyabr razılaşmasının rəsmiləşdirilməsini müzakirəyə çıxarıblar.

Bu məsələnin müzakirəsi üçün ilk növbədə razılaşmanın indiyə qədər heç bir irəliləyiş olmayan 4-cü bəndinin - erməni qoşunlarının Qarabağdan çıxarılmasının yerinə yetirilməsi lazımdır. Bu kontekstdə iki hadisə diqqət çəkir.

1. Xankəndidəki separatçıların başçısı Araik Arutyunyanın Moskvaya çağırılması;

2. Erməni hərbi texnikası və şəxsi heyətin Qarabağdan çıxarıldığı haqda yayılan videokadrlar.

Moskva Qarabağda erməni qoşunlarının çıxarılmasından sonrakı dövrə hazırlaşır, Arutyunyanın bununla bağlı təlimatlandırıldığı istisna deyil. 4-cü bəndin yerinə yetirilməsindən sonra isə 10 noyabr razılaşmasının rəsmiləşdirilməsi istiqamətində fəaliyyəti genişləndirəcək. Lavrovun İrəvan və Bakı səfərinin gündəliyini də bu məsələlərin əhatə etdiyini deyə bilərik.

# DSX-nin yeni zastavası istifadəyə verildi

***Dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi məqsədilə sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.***

Aprel ayının 30-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Şəmkir” sərhəd dəstəsinin xidməti ərazisində yeni inşa olunmuş ”Ağgöl” sərhəd zastavası kompleksi xidməti istifadəyə verilib.

Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin birinci müavini - Baş Qərargah rəisi general-leytenant Rəşad Sadıqov Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbriklərini şəxsi heyətə çatdırıb.



Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan sərhədçisinin həm sərhəddə, həm də səngərdə dövləti maraqların keşiyində durmağa hər zaman hazır olması xüsusi vurğulanmışdır. Sərhəd mühafizə infrastrukturunun təkmilləşdirilməsinə ən ali səviyyədə xüsusi önəm verilməsi sayəsində Dövlət Sərhəd Xidmətinin hərbi hissə və bölmələrində şəxsi heyət üçün zəruri xidməti və məişət şəraitinin yaradılması qeyd olunmuş, açılışı baş tutan sərhəd zastavasının bu yüksək qayğının növbəti təzahürü olmasını bildirilib.

Açılış mərasimindən sonra tədbir iştirakçıları sərhəd zastavası kompleksinə baxış keçirmişlər. Burada şəxsi heyətin xidmətinin yüksək səviyyədə təşkili və asudə vaxtının səmərəli keçirməsi üçün müxtəlif təyinatlı otaqlar, yataqxana, yeməkxana, hamam-camaşırxana, anbarlar inşa edilmiş, mərkəzləşdirilmiş istilik və işıqlandırma sistemləri yaradılıb.

Xidməti fəaliyyətində fərqlənən bir qrup hərbi qulluqçu təltifləndirildikdən sonra tədbir bayram süfrəsi arxasında davam etdirilib.

Tədbirin sonunda hərbi hissənin kinoloji mütəxəssisləri xüsusi təlim keçmiş itlərdən istifadə etməklə xidməti tapşırıqların icrası üzrə bacarıqlarını nümayiş etdiriblər.

# “Azəriqaz” yanında İctimai Şuraya seçkilər keçirilir

***“Azəriqaz” İstehsalat Birliyi yanında İctimai Şuranın yaradılmasına dair seçkilərə start verilib.***

Bu barədə “Unikal” xəbər verir. Məlumata görə, seçkilər Birliyin inzibati binasında səhər saat 11:00-dan başlayır və saat 16:00-dək davam edəcək. Namizədlər arasında ölkənin ictimai həyatında kifayət qədər nüfuzu olan tanınmış vətəndaş cəmiyyəti institutu və media nümayəndələri yer alır. “Azəriqaz” İB ilk dəfə olaraq seçki prosesinin “Facebook” sosial şəbəkəsi üzərindən birbaşa yayımla geniş auditoriyaya təqdim etməyi planlaşdırır.

Qeyd edək ki, seçki prosesinə 2021-ci ilin fevral ayının 16-dan başlanılıb. İctimai Şuraya üzv olmaq istəyən namizədlərin qeydiyyatı mart ayının 19-dək davam edib. Ümumilikdə “Azəriqaz” İstehsalat Birliyi yanında İctimai Şuraya 11 üzv yerinə 17 namizəd irəli sürülüb. Sonrakı mərhələdə səsvermə prosesində təmsilçilərinin iştirak etməsini istəyən vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin qeydiyyatı aparılıb və hazırda 71 nəfər səsvermə hüququ əldə edib. Əlavə olaraq qeyd edirik ki, İctimai Şuranın yaradılması ilə bağlı fəaliyyət göstərən Seçki Komissiyası ortalığa çıxan bəzi anlaşılmazlıqlar və texniki problemlərə dərhal reaksiya göstərib və qısa zamanda həmin çətinliklər aradan qaldırılıb.

“Azəriqaz” İB qaz təchizatı sahəsində göstərdiyi xidmətlər üzrə abonent məmnuniyyətinə nail olunmasını, fəaliyyətində aşkarlığın və şəffaflığın təmin olunmasını, ictimaiyyətlə səmərəli, qarşılıqlı və faydalı əlaqələrin qurulmasını prioritet vəzifə kimi qəbul edir. İctimai Şura məşvərətçi bir təsisat olmaqla

Birliyin işində ortalığa çıxa biləcək hər hansı çətinliklər, abonentlərin narazılıqlarının dərhal müzakirə olunması, problemlərin tez bir zamanda həll edilməsi üçün vacib rol oynayacaq.

# 9-cuların buraxılış imtahanlarının vaxtı elan olunub

***Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 2021-ci il 2-3, 9-10 və 16-17 iyun tarixlərində ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları keçiriləcək.***

“Unikal” xəbər verir ki, iyun ayının əvvəllərində Bakı şəhərində beynəlxalq yarışların keçirilməsi ilə əlaqədar 2-3 iyun tarixlərində keçiriləcək buraxılış imtahanları Bakı istisna olmaqla digər şəhər və rayonlarda təşkil olunacaq. Növbəti tarixlərdə olan imtahanlar isə yerdə qalan rayonlarla yanaşı, Bakı şəhərində də təşkil olunacaq.

Qeyd olunan tarixlərə uyğun imtahanların rayon və şəhərlər üzrə keçirilmə ardıcıllığı yaxın vaxtlarda elan olunacaq.

Bu imtahanda iştirak etmək üçün şagirdlərin qeydiyyatı tələb olunmur. Şagirdlər imtahan gününə 1 həftə qalmış Dövlət İmtahan Mərkəzinin saytı vasitəsilə “İmtahana buraxılış vərəqəsi”ni çap edirlər. Buraxılış vərəqəsində imtahanın keçiriləcəyi şəhər (rayon), bina, zal, başlanma vaxtı və şagirdin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunur.

# Şimşək çaxacaq, yağış və qar yağacaq - Hava proqnozu

***Bakıda və Abşeron yarımadasında havanın mayın 1-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində arabir yağış yağacağı gözlənilir.***

Milli Hidrometeorologiya Xidmətindən “Unikal”a verilən məlumata görə, yarımadanın bəzi yerlərində intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var.

Səhər saatlarında duman olacaq, mülayim şimal küləyi əsəcək, 7-12 m/s, gecə və səhər arabir 15 m/s-dək güclənəcək.

Havanın temperaturu Abşeron yarımadasında gecə 11-14, gündüz 18-21, Bakıda gecə 11-13, gündüz 18-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Səhər saatlarında duman olacaq, şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 11-16, gündüz 20-25, dağlarda gecə 5-10, gündüz 10-15 dərəcə isti olacaq.

Tibbi-meteoroloji proqnoza gəlincə, mayın 1-2-də Abşeron yarımadasında iqlim normasına yaxın temperatur rejimi və meteoroloji amillərin zəif, mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişli olsa da, rütubətli hava şəraiti bəzi insanlarda narahatlıq hissi yarada bilər.




# Xüsusi Təyinatlı Qüvvələrin yaranma günüdür

***30 aprel tarixi Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin yaranma günüdür. Müdafiə Nazirliyinin nəzdində 1999-cu il aprelin 30-da qurulan Xüsusi Təyinatlı Qüvvələrin formalaşması I Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlərin iştirakı ilə baş verib.***

Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) formalaşmasında Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələri xüsusi rol oynayıb. Sonralar Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələri daha da təkmilləşdirilib. XTQ-yə general-leytenant Hikmət Mirzəyev rəhbərlik edir.

26 iyun 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən paradda Xüsusi Təyinatlı Qüvvələr Hikmət Mirzəyev rəhbərliyilə keçid etmişdi.

II Qarabağ müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti qəhrəmanlığı ilə yaddaşlarda qaldı. Bu qüvvələr Cəbrayıl şəhərini və ətraf kəndləri düşməndən azad edib.

Xüsusi təyinatlılar Şuşa şəhərinin azad edilməsində də müstəsna rol oynayıblar. 8 noyabr 2020-ci il tarixində İlham Əliyev general Hikmət Mirzəyevi Şuşanın azad edilməsi münasibətilə təbrik edib.

Vətən müharibəsindəki taktiki qələbələrin bir çoxu Xüsusi Təyinatlı Qüvvələrin sayəsində əldə edilib. Bu müharibə bütün xüsusi təyinatlı birləşmələrin aktiv şəkildə istifadə edildiyi savaş hesab olunur.

Azərbaycan xüsusi təyinatlılarının bir çoxu Türkiyə və Pakistan hərbi akademiyalarında təhsil alıb, müxtəlif sertifikatlara layiq görülüblər.

Xüsusi Təyinatlı Qüvvələrin komandanı, general-leytenant Hikmət Mirzəyev Vətən Müharibəsi Qəhrəmanıdır. O, 2016-cı ilin "Aprel döyüşləri" və 2020-ci ildəki 44 günlük Vətən müharibəsinin hərbi rəhbərlərindən biri olub.

Hikmət Mirzəyev 44 günlük müharibə zamanı Cəbrayıl rayonunun və Şuşa şəhərinin azad olunması əməliyyatlarına şəxsən rəhbərlik edib.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsindəki Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirak etdiyi Zəfər paradı bir sıra məqamlarla yadda qalıb.

Bu paradda Vətən müharibəsindəki müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək, xalqımıza Böyük Qələbənin sevincini yaşadan Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları da tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəhrəmanı, general-leytenant Hikmət Mirzəyev başçılıq etdi.

# Azərbaycanlıya ABŞ-da vəzifə verildi

***ABŞ-ın Virciniya ştatında yaşayan, Redford Universitetinin professoru Agida Manizadə səsvermə yolu ilə həmin ştatın riyaziyyat müəllimləri şurasının prezidenti seçilib.***

"Unikal" xəbər verir ki, bu bbarədə Diasporla İş üzrə Dövlət Komitəsi məlumat yayıb.

Qeyd edək ki, Bakıda anadan olan həmyerlimiz Bakı Dövlət Universitetini bitirib. Daha sonra təhsilini ABŞ-ın ən qədim və nüfuzlu ali məktəblərindən biri olan Villiam və Merri Kollecində və ölkənin dövlət universitetlərinin üçlüyünə daxil olan Virciniya Universitetində davam etdirib.

Hazırda Redford Universitetinin riyaziyyat və statistika fakültəsinin professorudur. Riyaziyyat müəllimlərinin bilikləri sahəsində araşdırmalarla, həndəsənin tədrisi və təlimi, maarifləndirici texnologiyalarla məşğuldur. "Virginia Mathematics Teacher Journal"ın baş redaktorudur, çoxsaylı məqalələrin müəllifidir. Fəxri mükafatlara layiq görülüb.

# Ombudsman Avropanın İnsan Hüquqları üzrə Komissarına məktub yazdı

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Dunya Miyatoviçə məktub ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubun mətni aşağıdakı kimidir: "Bildiyiniz kimi, Ermənistan və Azərbaycan arasında münaqişə 10 noyabr 2020-ci il tarixində Azərbaycan, Ermənistan və Rusiya liderlərinin imzaladığı üçtərəfli bəyanata əsasən başa çatmışdır. 30 ilə yaxın davam edən bu münaqişə nəticəsində Azərbaycan ərazilərinin 20 faizi Ermənistanın işğalı altında qalmış və bir milyondan çox azərbaycanlı böyük humanitar fəlakətlə üzləşərək torpaqlarından zorla didərgin salınmışdır.



Fəaliyyətə başladığı ilk vaxtlardan Azərbaycan Ombudsman təsisatı doğma yurdlarına qayıda bilməyən, ölkəmizin müxtəlif bölgələrində məcburi köçkün kimi yaşamaq məcburiyyətində qalan insanların hüquqlarının kobud şəkildə pozulması ilə əlaqədar təşkilatınızı mütəmadi olaraq məlumatlandırmışdır.

BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan torpaqlarının işğal olunması faktı açıq şəkildə göstərilərək pislənilir və Azərbaycan ərazisində çox sayda mülki şəxsin didərgin düşməsinə münasibətdə ciddi narahatlıq ifadə olunur. Bu sənədlər işğalçı qüvvələrin Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir və müvafiq beynəlxalq qurumları azərbaycanlı məcburi köçkünlərin öz evlərinə təhlükəsiz, şərəf və ləyaqətlə qayıtması prosesində onlara yardımçı olmağa çağırır. Buna baxmayaraq, qeyd olunan qətnamələrin icrası və məcburi köçkünlərin torpaqlarına qaytarılmasında köməklik göstərilməsi ilə bağlı tərəfinizdən Ermənistan hakimiyyət orqanlarına hər hansı bir çağırış cəhdinin şahidi olmamışıq.

Hətta Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və başqaları Ermənistana qarşı" işi üzrə qərarında münaqişə nəticəsində torpaqlarını tərk etmək məcburiyyətində qalan azərbaycanlılar qarşısında Ermənistanın öhdəliklərini xatırladır. Məhkəmə vurğulayır ki, Azərbaycanın işğal olunmuş ərazilərində olan erməni və ermənilər tərəfindən dəstəklənən digər silahlılar azərbaycanlı məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmasına əngəl törədir.

Ermənistan tərəfindən altı il ərzində girov saxlanılmış Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəziyyətini dəfələrlə nəzərinizə çatdırmışıq. Həmin şəxslər doğma torpaqlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən qanunsuz olaraq girov götürülmüş, işgəncə və pis rəftara məruz qalmışlar. Bununla əlaqədar olaraq, müvafiq beynəlxalq qurumlara, o cümlədən sizin təşkilatınıza hesabat və bəyanatlar göndərilmişdir. Təəssüflər olsun ki, sizin tərəfinizdən məsələ ilə əlaqədar hər hansı bir reaksiya verilməmişdir.

Azərbaycanın qeyd olunan beynəlxalq sənədlərə uyğun olaraq, işğal olunmuş ərazilərinin azad edilməsi üçün apardığı əkshücum əməliyyatları dövründə Ermənistan tərəfindən raket hücumlarına məruz qalan yaşayış məntəqələrində tərəfimdən bir neçə faktaraşdırıcı missiya həyata keçirilmiş və nəticələrə əsaslanan yeddi tematik hesabat hazırlanmışdır. Bu hesabatlar Ermənistanın açıq şəkildə, heç bir fərq qoymadan qadağan olunmuş silahlardan istifadə etməklə yüzlərlə mülki şəxsin ölümünə və yaralanmasına səbəb olan hücumlarını əks etdirir. Gəncə və Bərdədə əhalinin sıx məskunlaşdığı ərazilərin, həmçinin Azərbaycanın fəal hərbi əməliyyatlar zonasından uzaq məsafədə yerləşən digər şəhər və rayonlarının atəşə tutulması uşaqlar, qadınlar və yaşlılar da daxil olmaqla günahsız insanların ölümü ilə nəticələnmişdir. Bu əməllər bilavasitə müharibə cinayətləridir. Bu hesabatlar bütün müvafiq beynəlxalq insan hüquqları təşkilatları ilə yanaşı, sizin təşkilatınıza da göndərilmişdir. Ancaq təəssüflər olsun ki, insan hüquqları və humanitar hüququn pozulması hallarına qarşı sizin tərəfinizdən heç bir reaksiya verilməməsinin bir daha şahidi olduq.

Hesab edirik ki, insan hüquqlarının pozulması hallarına münasibətdə uzun müddət davam edən susqunluq, beynəlxalq hüququn tətbiq edilməsində istəksizlik, digər dövlətin ərazi bütövlüyünə qarşı hörmətsizlik təcavüzkarı daha çox insan hüquqları pozuntularına sövq edir. İşğalın təxminən otuz ildir davam etməsi və Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə qarşı açıq-aşkar hörmətsizlik bu münasibətin bariz nəticəsidir.

Hesab edirəm ki, siz Avropa Şurası İnsan Hüquqları Komissarı kimi təcavüzkarlıq və dözümsüzlük siyasətinin təhlükələrini gələcək nəsillərə xatırladan bir dərs olaraq yaradılmış Hərbi Qənimətlər Parkı ilə bağlı deyil, Azərbaycanın azad edilmiş ərazilərindəki yüzlərlə tarixi abidə, onlarla muzey, məscid və mədəni irsin məhv edilməsi, talan olunması və vandalizmə məruz qalması ilə bağlı təəssüf hissinizi bildirməli və bu halları qınamalısınız.

Azad olunmuş ərazilərdə Ermənistan tərəfindən işğal dövründə yüz mindən artıq işarələnməmiş mina yerləşdirilmişdir. İndiyə qədər onlarla mülki şəxs minaya düşərək həlak olmuş və ya yaralanmışdır. Bu məsələ tərəfimizdən dəfələrlə əlaqədar beynəlxalq təşkilatlar qarşısında qaldırılmışdır. Bununla belə, daha çox itkilərin baş verməsinin qarşısının alınması məqsədilə hələ də həmin təşkilatlar tərəfindən Ermənistana bu xəritələri təqdim etməsi üçün çağırışlar edilməsini gözləyirik.

Yuxarıda qeyd olunanları nəzərə alaraq, tərəfsiz bir qurum olaraq sizi Azərbaycanın minalanmış ərazilərinin xəritələrini təqdim etməsi və insan hüquqlarının pozulması hallarının dayandırılması üçün Ermənistana çağırışlar etməyə dəvət edirəm.

Ədalətlilik və qərəzsizlik prinsiplərinə əsaslanaraq təşkilatınızla insan hüquqlarının müdafiəsi və təbliği sahəsində yaxın əməkdaşlığımıza ümid edirəm".

***Zaurə Əmirova***

# “CAN VƏTƏN” - deyib, şəhadətə qovuşan fədai – Axıska türkü Alim Məmmədov...

***...Vətənə can deyib, Vətən yolunda, torpaqlarımızın azadlığı uğrunda can verən igidlərimizdən biri də Zaqatala rayonunun Fındıqlı kənd sakini, Axıska türklərinin nümayəndəsi olan Alim Qəmərşo oğlu Məmmədovdur. Vətən uğrunda canından keçən bu igidlər şəhid əlçatmazlığına ucaldılar...***

Zaqatala rayonunun Fındıqlı kəndində müxtəlif xalqların nümayəndələri yaşayırlar. Bu kənd Sovet dövründə Zaqatala rayonunun 1 № -li Fındıqçılıq Sovxozu kimi fəaliyyət göstərib.

1988 -ci ildə bu Fındıqçılıq Sovxozuna Özbəkistandan pənah gətirən 1942-1947 -ci illərdə Stalin represiyasının qurbanları olan Axıska türk ailələri məskunlaşdırıldılar. Onlar burada yaşayan saxuralara, avarlara, ruslara, molokanlara, azəri-türkləri ilə birlikdə Azərbaycanı doğma Vətənləri hesab edərək fındıqçılıqla, təsərrüfatın digər sahələri ilə məşğul olurlar... Hətta Axıska türkləti Birinci Qarabağ Savaşında olduğu kimi, İkinci Vətən Müharibəsində də Azərbaycanımızın işğal altında olan torpaqlarımızı işğaldan qurtarmaq üçün özlərini odun-alovun içinə atdılar... Onlardan ölməzliyə qovuşanlarda odlular... Azərbaycanımızın adlarını qızıl hərflərlə yazan, ölməzliyə qovuşan Alim Qəmərşo oğlu Məmmədov 2002 -ci ilin 28 sentyabr tarixində Fınıqlı kəndində dünyaya göz açmışdır. O, da yaşıdları ilə birlikdə sadə, oxşar nağıllı, əlbəttə ki, çoxlu xatirələrə dolu olan uşaqlıq, məktəb və yeniyetmə illərini adi insanlar kimi keçirib. Əlbəttə ki, bu yaş dönəmini keçirəndə Alimin çətinlikləri də olub. Amma bütün bunlara baxmayaraq onun valideynləri Azərbaycana “Can Vətən” deyən Alimə kiçik yaşlarından vətənpərvərlik hissləri aşılayıb. Bir də ki, Fındıqlı kəndində Məmmədovlar ailəsində olarkən öyrəndik ki, ailənin başçısı Qəmərşo Məmmədov da Birinci Qarabağ Savaşının iştirakçısı olub. O, dörd ildən çox Ağdam - Tərər - Ağdərə - Gornaboy istiqamətlərində erməni işalçılarına qarşı döyüşüb. Müharibə veteranıdır. Övladlarının düşmənlərimizə qarşı nifrət və mübariz olmalarında atalarının böyük təbliğatı və təsiri olub. Məmmədovlar aiələsi Fındıqlı kəndinin baş küçəsində çox sadə, adi və təmirə çox böyük ehtiyacı olan darısqal, üç otaqlı mənzildə yaşayırlar...

...Vətən fədaisinin anası, evin xanımı Yetər Tamilova çox sakit təbiətli, mülayim, təmkinli, səliqəli qadındır. Şəhid anası oğlunun şəhid olmasına inana bilmir, yoxluğu ilə barışmır. Elə bil, o, ağır zərbədən sağalmaz yara alıb. O, çox qüssəli, üzüntülü, çox kədərlə: “elə bir qəm dəryasındayam, sakit olmağa, özümü ələ almağa bacarmıram, yuxum ərşə çəkilib, özümlə bacarmıram, inanmıram oğlumun yoxluğuna... Hələ də, həsrətlə yolunu gözləyirəm...” - bildirdi.

Bir faktı qeyd edək ki, axıska türklərinin adət-ənənələrindən biri də kimlərsə də qonaq gələndə bütöv nəslin bir yerə toplaşmasıdır... Mənim şəhid ailəsinə gəlişimlə bütün qohum-əqrəba onlara toplaşdılar... Əmilər, bibilər və sair qohumlar... Çoxu da, Vətənimizin azadlığı uğrudan həlak olan Məmmədov Alim Qəmərşo oğlu barəsində ancaq tərifli sözlər deyərək, böyük ehtiramla xatırladılar...

...Yetər xanımla söhbətimizdən aydın oldu ki, Alim ailənin böyük övladı olub. Onlar üç qardaş idilər: Alim, Səlim və Salam. Bu gün Azərbaycan xalqının qəhrəman oğlun çevrilmiş Alim 9 -cu sinifə qədər Fındıqlı kənd ümumi orta məktəbində təhsil alıb və sonra isə 10-11 -ci sinifləri Zaqatala rayonu Qazangül qəsəbə İsmət Qayıbov adına tam orta məktəbində davam etdirib... 2019 -cu ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib...

Şəhid Alimin qardaşları 2004 -cü il təvəllüdlü Səlim Fındıqlı kənd ümum orta məktəbinin 9 -cu sinfini bitirdikdən sonra Türkiyə Respublikasında kollecə qəbul olub... 03.11.2007 -ci il təvəllüdlü Salam isə Qazangül qəsəbə tam orta məktəbinin 7 -ci sinfində təhsil alır... Haqqında söhbət açdığımız digər şəhidlər kimi Alim Qəmərşo oğlu Məmmədov da həm hərbi xidmətini şərəflə, döyüş yolunu da fədakarlıqla yerinə yetirib.



Əmisi Şirxan Məmmədov qardaşı oğlundan ürəklə, qürurla söhbət açdı: “Alim 2020 -ci ilin yanvar ayının 2 -də Milli Ordu sıralarına həqiqi hərbi xidmətə çağırılıb, o, böyük həvəslə, inamla Vətənin keşiyinə gedib. O, xidmətinin ilk günlərindən hərbi tapşırıqları vicdanla yerinə yetirməyə başlayıb. Əsgərliyə yola salınanda valideynlərinin öyüd və nəsihətlərini dərindən dinləyib. Alimlə hər dəfə telefonla danışanda hərbi xidmətində problemlərin olmadığını, hərbi təlimlərdə fəal iştirak etdiyini deyərdi. Hərbi and içmə mərasimi günü biz, valideynləri, mən və bibisi Alimin görüşünə Ağcabədi rayonunda yerləşən “N” saylı hərbi hissəyə getdik. Bizim gəlişimiz onu sevindirmişdi, elə bil ona dünyaları bağışlamışdılar. Alim Milli Ordu sıralarındakı xidmətindən böyük həvəslə dqanışırdı, rastlaşan çətinliklərdən və müharibəyə hazırlıqlarından söhbət açmasa da, düşmənin tez-tez mövqelərimizi atəşə tutmasından, erməni təxribatlarından və onların qarşısını hünərlə almalarından danışmışdı.”

...Ailəsindən bildirdilər ki, Alim əvvəlcə Ağcabədi rayonundakı “N” saylı hərbi hissədə 3 ay xidmətini keçib. Yetər xanım isə deyir ki, oğlu Alim müharibəyə hazırlaşdıqlarını, hər gün təlimlər keçdiklərini onlara bildirmirdi. Amma ana qəlbi çox narahatçılıq keçirirdi. “Mən, çox nigaran idim oğlumdan, elə bil nəsə baş verəsiydi... Gecə-gündüz narahatçılıq keçirirdim...”

Bibisi Mətlubə xanım isə Alim Məmmədov barəsində danışarkən əvvəlcə göz yaşlarını saxlaya bilmədi... Sonra isə dedi: “Alim elə bil anadan alim doğulmuşdu. Hələ də onun gəlişini səbirsizliklə gözləyirik. Heç vaxt da ümidimizi qıra bilmərik... O, bizim ciyər parəmiz idi, bibisi qızları Hədiyyə, Sərvi, Əminə və Gülüzar onu doğma qardaşından çox istəyirdilər... Daima bizə gələr, bizim hal-əhvalımızı xəbər alar, hətta müəyyən işlərimizdə bizə kömək edərdi. Çox qohumcanlı idi. Gah əmiləri, gah da ki, bibilərigilə gedərdi. O, həm də dostcanlıydı. Təkcə Fındıqlıdan deyil, Qazangül qəsəbəsindən, qonşuluqdakı Maqov və Danaçı kəndlərindən çoxlu dost - tanışları vardı. Alim avtomobil həvəskarı idi, maşınların hər markası və hissələri ilə maraqlanar, avtomobillərin xarab hissələrini düzəltməyə həvəsli idi. Deyərdi ki, hərbi xidmətini başa vurduqdan sonra güclü avtomobil mütəxəssisi olacaq və iri avtoservis açacaqdır. Qardaşım oğlunun arzuları bir deyildi, iki deyildi, çox idi... Ən böyük arzusu isə Vətənimizin işğal altında olan ərazilərini düşməndən xilas edib, dinc, sülh və mehriban şəraitdə yaşamaq idi. Qeyd etdiyim kimi, o anadan çox uzaq görən, çox bilmiş və alim tək doğulmuşdu. Humanist gənc idi. Atası Birinci Qarabağ Savaşından danışanda Alim deyərdi ki, “doğurdan da ermənini niyə başa düşmək istəmirlər ki, işğal etdikləri, zorla, qan tökməklə əldə etdikləri bu ərazilər Azərbaycanın əbədi və əzəli, tarixi yerləridir. Qan tökmək, hərbi silahlar, texnikalar işlətmək, günahsız hərbiçiləri və mülki vətəndaşları öldürmək nəyə lazımdır, hər iki tərəf üçün?!.. Başlıca meyar, ədaləti bərqərar etmək və dinc şəraitdə yaşamaqdır. O, müharibə tərəfdarı deyildi... Çünki, Alim biz Axıska türklərində tarixlər boyunca işğəncələrə məruz qaldıqlarını, yurd evlərindən didərgin salındıqlarını, represiya qurbanları olduqlarını da necə əziyyət çəkdilərini də çox yaxşı bilirdi və müharibə ocaqları yaradanlara nifrət edərdi. Kim bilərdi ki, onun da taleyinə müharibə adlı bir bəla, qanlı olay qismət olacaq...

...Biz, hamımız Alimlə görüşümüzdən sonra onun xeyli müddət bizimlə danışmamağından çox narahat olduq. Hər gün qardaşımgilə gedib, qardaşıma, Alimin anasına toxtaqlıq verir, səbirli olmalarını deyirdim. Demə, müharibə başlayıbmış...

...Anası Yetər xanım çox çətinliklə də olsa söhbətimizə qoşuldu: “Gecələr yuxularım ərşə çəkilmişdi. Oğlum əsgərə çağırılan gündən beləydim... Çox narahatçılıq keçirirdim, 40 gün idi ki, Alimdən bir soraq yox idi... Fikirləşirdim ki, görəsən nə olub, oğlumun başına nə iş gəlib?!... Dəfələrlə xidmət etdiyi hərbi hissə ilə əlaqə yaratsaq da, “narahat olmağa dəyməz... Oğlunuz hərbi xidmətdədir, sağlıq-salamatlıqdır” -deyirdilər. Nəhayət 26 sentyabr 2020 -ci il tarixində Alim bizimlə telefonla danışdı, hərbi xidmətini müvəffəqiyyətlə davam etdirdiyini, hərbi tapşırıqları uğurla icra etdiklərini və hərbi təlimlərdən yenicə qayıtdıqlarını söylədi: “Canım ana, əziz ata, əzizlərim nigarançılığa əsas yoxdur, bu mənim vətəndaşlıq, hərbi and borcumdur, əməl etməliyəm - vicdanla, namusla, oğlunuzun Azərbaycan Ordusunda kişi qeyrəti ilə, üzü ağ xidmət etməsi Sizə fəxrdir. Unutmayın ki, mən hərbidəyəm, onların tabeçiliyindəyəm və Azərbaycan xalqım Sizləri azğın düşmənlərdən müdafiə edirik. Tez-tez danışmadığıma görə nigaran qalmayın, vaxtımız, imkanımız olanda Sizinlə əlaqə saxlayacağam...” Ola bilər ki...” O, fikrini tamamlamadı... Bir daha Alim bizimlə canlı danışmadı... Ertəsi gün isə, yəni 27 sentyabr 2020 -ci il tarixində mənfur düşmənin güclü təxribatlarından sonra Azərbaycan və Ermənistan arasında müharibə başlandı, minlərlə itki vermiş oluğu İkinci Qarabağ Savaşı...

Vətən Müharibəsinin ilk günündən Alim də hərbiçi yoldaşları ilə birlikdə ən gərgin döyüşlərdə sinəsini düşmənə sipər etdi. Cəbrayıl, Füzuli və Hadrutun kəndlərinin azadlığı uğrunda gedən döyüşlərdə əsil şücaət göstərdi. Sərrast atıcı kimi dəfələrlə düşmənlə üzbə - üz düşmənin onlarla canlı qüvvəsini gəbərdərək, erməni mövqelərini, postlarını darma-dağın etdi. Ordumuzun gənc döyüşçüləri həm də yaralanan döyüşçü yoldaşlarını döyüş meydanından çıxartmağa müvəffəq oldu... Onların düşmən çaynağına keçmələrinə imkan vermədi... Alim! Cəsur döyüşçülərlə bir yerdə Füzulinin Kərimbəyli və Hadrut qəsəbəsiin Tuğ kəndlərinin azad olunmasında neçələrlə düşmən postlarına hücumlar nəticəsində məhv etdilər. Düşmənin onlarla texnikasını və xeyli sayda qənimətlərini ələ keçirdilər. Döyüşlərdə fədakarlıq göstərən Alim Məmmədovun komandirləri və odun-alovun içində onunla birlikdə döyüşən silahdaşlarının söylədiklərinə görə Alim düşmənə fədakarlıqla, üç rəngli bayrağımızı mənfur düşmənin uzun illərdir ki, işğal altında saxladıqları ərazilərimizdə səngərdən-səngərə, mövqedən-mövqeyə, yüksəkliklərdən-yüksəkliyə daşıdı... Özü isə... Növbəti qanlı döyüşdə qəhrəmancasına həlak oldu Ölümün üstünə mərdliklə, fəxarətlə getdi və ölməzliyə qovuşdu...

Bibisi qızı Gülüzürün söylədiklərinə mən də şərikəm: “Bizim qardaş saydığımız Alim qısa zaman məkanında qərəmanlıq simfoniyasını yaratdı.

...Bir çoxlarının yaza bilmədikləri bu simfoniyanın cingiltili, müharibəni tərənnüm edən səsi isə həmişə gələcək, eşidəcəyik, bir tarix yazacaq, nəsildən - nəsilə keçəcəkdir. Söz yox ki, onun vaxtsız, ömrünün çiçəkləndiyi, canlandığı çağlarında itirdik...

Amma, əzizimiz tarixdə silinməz izlər qoydu, belə yaş dönəmində ağır bir müharibənin iştirakçı odlu, azğın düşmənləri susdurdu, onları məhv etdi, hərbiçi andına sadiq qalaraq, əmənilərə yerini göstərdi. Hamımızın sabitliyini, azadlığımızı qorudu... Canını Vətən yolunda verdi. Düşmən gözünə baxa - baxa, onu məhv edə-edə şəhadətə qovuşdu, o, yüksək zirvəni fəth etdi - qardaşım... Hərbiyə kişi kimi getdin, kişi kimi də Vətən çörəyini yeyib, Vətənin ağır günlərində, onu qoruyamayanlara bir nümunə oldun... Fındıqlı kəndinin ilk şəhidi kimi bir tarix yazdın...

...Alim, sən təkcə bizim deyil, bütöv odlar diyarıın oğlusan, xilaskarısan... Daimə qəlbimizdə yaşayacaqsan... Yaşadacağıq... Bizim fəxrimiz... Sönməz çırağımız...

**Ay fələk, bu yazı alın yazım,**
**Dərd üstə köklədin, ürək sazım.**
**Binava, qurdları basan lazım,**
**Vətən qeyrətini düyanlar gedir...”**

...Beləliklə, Zaqatala diyarının daha bir cəsur, zəfər qələbəsində böyük və danılmaz rolu olan Fındıqlı kəndinin yeganə şəhidi olan, Axıska türkü Alim Qəmərşo oğlu Məmmədov şəhidlik səddini aşanlardan biri kimi Azərbaycanın Şanlı tarixinə adını qızıl hərflərlə yazdırdı... Bunula belə o, Vətəni sevməyi də, oun uğrunda sevə-sevə ölməyi də özünə sığışdıra bildi. Onu sevənlərə və yoxluğu ilə barışmayanlar, ələxüsusda gözünün yaşını axıdan, kövrək duyğularla yaşayan anası Yetər xanıma, əbədi yaşayacaq ad qoyub, getdi. Bu həm də əbədi ucalıqdır.. Unutmayaq ki...

28 oktyabr 2020 -ci il tarixində doğmaca Fındıqlı kəndindəki qəbristanlıqda şəhid kimi dəfn olunan Alim ruhun daima şad olsun!

Azərbaycan Respublikasının Prezidentinin Sərəncamları ilə Alim Məmmədov “Füzulinin azadlığa uğrunda”, “Hadrutun azadlığı uğrunda”, “Vətən uğrunda” medalları ilə təltif edilib.

...Haqlıdır, şəhidlər ölmürlər, hər zaman yaşayırlar... Sən də yaşayacaqsan, sənin əzizlərinin, sevənlərinin, göstərdiklərin şücaətlərinə, qəhrəmanlıqlarına, hörmət edib, yada salanların qəlblərində - Alim!

Qeyd: Yaxşı olardı ki, müvafiq təşkilatlar, aidiyyatı orqanlar, yanacağa və ciddi təmirinə böyük ehtiyacı olan şəhid Alim Məmmədovun ailəsinə evə qaz xəttinin çəkilişinə və evin təmirinə köməklik etsinlər...

***E.Maliyev***

# Qırğızıstan-Tacikistan sərhədində yenidən atışma başlayıb



***Qırğızıstan-Tacikistan sərhədində yenidən atışma başlayıb.***

"Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə Qırğızıstanın Batken vilayətinin daxili işlər idarəsi məlumat yayıb. İki ölkənin sərhədində vəziyyət aprelin 28-də kəskinləşib. Belə ki, ərazidə yerləşən "Qolovnoy" supaylama stansiyası yaxınlığındakı qırğız və tacik kəndlərinin sakinləri arasında qarşıdurma yaranıb. Qeyd edək ki, tərəflərdən hər biri supaylama stansiyasının ərazisinin özünə məxsus olduğunu iddia edir.

Aprelin 29-da isə Qırğızıstan və Tacikistan hərbçiləri arasında silahlı toqquşma baş verib. Hər iki tərəfdən 20 nəfərin öldüyü bildirilir.

# "Seçki asan olmayacaq, etirazlar gözlənilir" - Koçaryan



***Ermənistanda keçiriləcək növbədənkənar parlament seçkiləri asan olmayacaq, nəhəng təşviqat işi aparmaq, komissiyalar qurmaq lazımdır.***

Unikal.org xəbər verir ki, bu barədə Ermənistanın keçmiş prezidenti Robert Koçaryan tərəfdarları ilə görüşdə deyib.

Onun sözlərinə görə, seçki günü məntəqələrdə səsləri qorumaqda qətiyyətli və inadkar olan böyük vəkil ordusuna sahib olmaq lazımdır. Bununla yanaşı, Koçaryan küçə savaşlarının, etirazların olacağını da dilə gətirib.

Həmçinin, o, Nikol Paşinyanın şansı olmadığını anladığından hüquq-mühafizə sisteminin daha təmkinli davranacağına ümid etdiyini deyib. "Hakimiyyət seçkiləri saxtalaşdırmaq üçün hər hansı bir addımın nəticələrinin özləri üçün ölümcül olacağını bilməlidir. Saxtalaşdırmalara reaksiya aqressiv və qəti olmalıdır".

# ABŞ dövlət katibi "Mossad"ın rəhbəri ilə görüşüb



***ABŞ dövlət katibi Entoni Blinken İsrailin "Mossad" kəşfiyyat qurumunun rəhbəri Yosef Meir Kohen ilə görüşüb.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" mənbəyə istinadən məlumat yayıb.

Qeyd olunub ki, görüş zamanı İsrail tərəfi İranın nüvə fəaliyyətlərindən dərin narahatlığını dilə gətirib. Bildirilib ki, Vaşinqtonda keçirilən görüşdə İsrailin ABŞ-dakı səfiri də iştirak edib.

# Peruda prezidentliyə namizəd xəstəxanalıq oldu



***Peruda "Azad Peru" partiyasından prezidentliyə namizəd Pedro Kastillo nəfəs almasında yaranan problem səbəbiylə təcili olaraq xəstəxanaya aparılıb.***

"Report" "TASS"a istinadən xəbər verir ki, bu barədə partiyanın rəsmi tivtter səhifəsində deyilir.

Qeyd olunub ki, Pedro Lima xəstəxanasına aparılıb. 51 yaşlı siyasətçi də faktı təsdiq edib.

Xatırladaq ki, 11 apreldə Peruda prezident seçkiləri keçirilib. Bülletenlərin 100% -nin hesablanmasının nəticələrinə əsasən, ölkənin seçki komissiyası sağçı "Xalq Gücü" partiyasından Keyko Fuhimorinin və P. Kastillonun ikinci tura çıxdığını elan edib. İkinci turun 6 iyun tarixində keçirilməsi planlaşdırılır.

# Bayden "soyqrımı" ifadəsini Rusiyanın əleyhinə işlədib, Türkiyənin yox - ŞOK İDDİA



***"ABŞ dövlət katibi Entoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməsi çox əhəmiyyətli idi".***

Bunu Milli.Az-a açıqlamasında siyasi elmlər üzrə fəlsəfə doktoru Əlimusa İbrahimov deyib.

Ekspert bildirib ki, Co Baydenin "soyqrımı" ifadəsini səsləndirməsi Ermənistanı Rusiyanın orbitindən çıxarıb Amerikaya daha da yaxınlaşdırmaq məqsədi güdür:

"ABŞ prezidenti Co Baydenin 24 apreldə "soyqrımı" məsələsini dilinə gətirməsi həm Azərbaycanda, həm də Türkiyədə gözlənilən idi. Ermənistan ordusunun 44 günlük müharibə nəticəsində darmadağın olması fonunda və ABŞ-ın onlara dəstək verməməsi və heç bir yardım göstərə bilməməsi ermənilərə qarşı bir jestlə nəticələnməli idi. Eyni zamanda düşünürəm ki, Baydenin bu kəlməni ifadə etməsi ermənilərin heç də Rusiyanın ümidinə buraxılmasını düşünməmələri üçün atılmış addımdır. İstər II Qarabağ müharibəsində, istər ondan qabaq, istərsə də ondan sonrakı dövürlərdə ABŞ-ın başı öz daxilindəki proseslərə qarışmışdı. Azərbaycanın Ermənistanla müharibəsi elə bir vaxtda gedirdi ki, xarici qüvvələr bu müharibənin qarşısını almaq üçün təsir göstərə bilmirdilər. Amerika, yaxud olsun Rusiya başı beynəlxalq aləmdə daha önəmli hadisələrə qarışmışdı. Bunun nəticəsində də ABŞ ermənilərə yetərincə diqqət yetirə bilmədi və bir də ayılıb gördü ki, artıq Azərbaycan Dağlıq Qarabağı erməni işğalından azad edib. Təbii ki, Bayden hakimiyyəti və o cümlədən erməni diasporası Ermənistan hakimiyyətinin qarşısında müəyyən öhdəliklər götürmüşdülər ki, bunların heç birini yerinə yetirə bilmədilər.

ABŞ-ın ATƏT-in Minsk Qrupunun üzvü kimi müharibədən sonra fəallaşması, erməniləri həyata qaytarmaq və onların yanında olduğunu ifadə etmək üçün cüzi bir hərəkət idi. Artıq vəziyyət müəyyən qədər sabitləşib və ABŞ regiona qayıtmaq istəyir. Bunu da ermənilərlə münasibətləri inkişaf daha da etdirmək və onlara müharibədə məğlub olduqlarını onlara unutdurmaq üçün müəyyəb demarşlar edirlər. Baydenin 24 aprel çıxışını da bu demarşlardan biri kimi qiymətləndirərdim. Bu gün Bayden də, onun ətrafındakılar da "soyqrımı" sözünün ifadə olunmasını Türkiyəyə qarşı çevrilmədiyini iddia edə bilərlər və iddia edəcəklər də. Təbii ki, bununla ABŞ bir tərəfdən Türkiyəni də əldən buraxmaq istəmir və Türkiyəni itirmək, ondan uzaqlaşmaq onlar üçün Yaxın və Orta Şərqdə çox böyük problem yaşadacaq.

Baydenin "soyqrımı" kəlməsini işlətməsi Türkiyədən daha çox Rusiyanın əleyhinə istiqamətlənib, Rusiyanın əleyhinə deyilib. Bunu Rusiyada da çox gözəl başa düşürlər. Nəyə görə Rusiyanın əleyhinə deyilib?! Ona görə ki, ABŞ-ın regiona gəlməsi Rusiyanın nüfuzunun qarşısının alınması ilə paralellik təşkil edir. Beynəlxalq münasibətlərdə buna "0 məbləğli oyun" deyirlər. Yəni ABŞ-ın Cənubi Qafqaz regionuna gəlməsi mütləq Rusiyanın nüfuzunun azalması hesabına baş verəcək. Co Bayden erməniləri özünə tərəf çəkmək istəyir. Bu da onların Rusiyadan qırılmaq hesabına başa gələcək. Ona görə Rusiya burada Amerikaya, onun nüfuzuna qarşı müəyyən destruktiv rol oynaya bilər. Və artıq Rusiyada, Rusiyanın KİV-lərində bu barədə müəyyən fikirlər səsləndirilməyə başlanılıb. Hətta Rusiyanın ən nüfuzlu siyasi xadimləri artıq səsləini çıxartmağa başlayıblar ki, Baydenin bu ifadəni işlətməsi heç də yerində olmadı. Dağlıq Qarabağın işğaldan azad olunması və Rusiyanın daha ciddi cəhdlə burada iştirakı fonunda Baydenin bu fikri səsləndirməsi təbii ki, Ermənistanı Rusiyanın orbitindən çıxarıb Amerikaya daha da yaxınlaşdırılması məqsədi güdür ki, bu da Rusiya tərəfindən çox böyük qısqanclıqla qarşılanır və qarşılanacaq. ABŞ-ın

Ermənistandakı gücü bu gün məhduddur. Bu gün Bayden hakimiyyətinin edə biləcəyi yeganə bir şey o ola bilər ki, Paşinyana seçkilərdə qalib gəlməyə kömək etsin. Məhz Baydenin bu çıxışı da ona hədəflənib.

Zəngəzur dəhlizinin açılması həm region ölkələrinin, həm regiondan kənarda fövqəldövlətlərin, həm Ermənistana kömək edən qüvvələrin, həm də Türkiyə münasibətləri yaxınlaşdırmaq istəyən qüvvələrin, həm regionua daxil olmaq istəyən qüvvələrin hamısının əlinə işləyən bir hadisədir. Zəngəzur dəhlizinin açılması regionda olan və regiondan xaricdə olan bütün aktorların işinə yarayan bir məsələdir. Və mən düşünmürəm ki, ABŞ bu dəhlizin açılmasına qarşı bu və digər istiqamətdə fəaliyyət göstərcək. ABŞ əgər regiona gəlmək istəyirsə, Ermənistanla münasibətlər qurmaq istəyirsə Zəngəzur dəhlizi mütləq bir vasitə, bir yol olmalıdır. Heç bir dövlət bu dəhlizin açılmasının qarşısını almağa yönəldilən bir hərəkət etməyəcək.

***Təhməz Əsədov***

# Gürcüstanın keçmiş baş naziri partiyasını gələn ay təqdim edəcək

***Gürcüstanın sabiq baş naziri Giorgi Qaxariya may ayında partiyasının təqdimatını keçirəcək.***

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə onun tərəfdarı Giorgi Qoquadze "Formula" telekanalına müsahibəsində bildirib. Onun sözlərinə görə, hazırda partiya quruculuğu üzrə fəal iş aparılır. Keçmiş hökumət başçısının digər tərəfdarı Beka Liluaşili isə deyib ki, yaradılacaq partiya Gürcüstanda bu ilin payızında yerli idarəetmə orqanlarına keçiriləcək seçkilərdə iştirak edəcək.

Qeyd edək ki, G.Qaxariya 2019-cu ilin sentyabrından bu ilin fevralın 18-dək Gürcüstanın baş naziri olub. O, hakim Gürcü Arzusu Partiyası ilə fikir ayrılıqlarına görə istefa verib. Onun hazırkı komandası hələlik hakim partiyanı aprelin 14-də tərk etmiş 6 deputatdan ibarətdir.

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Başlıbel faciəsi Dağlıq Qarabağ həqiqətləri olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır!

## Azər Badamov: "Dağlıq Qarabağda insan qətliamlarını xüsusi vurğulamalı, Başlıbel kəndindəki və digər faciələri dünya ictimaiyyətinə çatdırmalıyıq"

***ABŞ Prezidenti Co Baydenin aprelin 24-də səsləndirdiyi bəyanatında 1915-ci il hadisələri ilə bağlı tarixi həqiqətləri təhrif etməsi Dağlıq Qarabağ münaqişəsində olduğu kimi bir daha Qərbin ikili standarta davam etdiyini sübut etdi.***

Baxmayaraq ki, ermənilərin və onların havadarlarının uydurduqları "soyqırımı"nı təsdiqləyən heç bir sənəd yoxdur. Bir əsrdən artıqdır ki, təsdiqini tapmayan "erməni soyqırımı" uydurmasının izinə də bu gün rast gəlmək mümkün deyil. Amma tarixin müxtəlif mərhələlərində ermənilərin iştirakı ilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı qətliamların törədilməsi Qərbi Azərbaycanda azərbaycanlıların keçən əsrin əvvəllərindən başlayaraq kütləvi şəkildə qətlə yetirilməsi faktları var. Buna rəğmən Bakıda və bölgələrimizdə soydaşlarımızın kütləvi şəkildə soyqırımına məruz qalmasına hələ də dünya birliyi layiq olduğu qiyməti verməyib. Bu günlərdə isə Kəlbəcərdə, Başlıbeldə məzarlıq aşkarlanıb. 1993-cü ilin aprel ayında Ermənistan Silahlı Qüvvələrinin Kəlbəcər rayonunun Başlıbel kəndində mülki əhalini kütləvi şəkildə vəhşicəsinə qətlə yetirdiyi şəxslərin cəsədlərinin basdırıldığı yerlərin müəyyən edilməsi faktları üzrə Baş prokurorluq tərəfindən cinayət işi başlanaraq intensiv istintaq hərəkətləri davam etdirilir. Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən 24 aprel 2021-ci il tarixdə Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilərək 50 sm dərinlikdə torpağa basdırılmış kəskin çürüməyə məruz qalaraq skletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkar edilib.

Millət vəkili Azər Badamov deyir ki, bu faktlar sənədləşdirilərək Dağlıq Qarabağ həqiqətləri olaraq bütün dünyaya car çəkilməlidir. Millət vəkilinin sözlərinə görə, Dağlıq Qarabağ həqiqətlərini dünyanın bilməsi üçün beynəlxalq səviyyədə işlər gücləndirilməlidir. A. Badamov deyir ki, Amerika prezidenti Co Baydenin saxta soyqırım ifadəsi işlətməsi bir mesajdır: "Bu gün bizim əlimizdə olan faktlar Dağlıq Qarabağla bağlıdır.Həmçinin viran qoyulmuş şəhərlər, kəndlər, abidələrdir. Bunlarla bağlı geniş təbliğat materialları hazırlanmalıdır. O cümlədən lobbiçilik fəaliyyəti genişləndirilməlidir. Biz çalışmalıyıq ki, hər bir xarici tədbirdə, görüşlərdə bu məsələni qabardaq.Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi vandallığı onların gözünün önündə canlandırmalıyıq. Düzdür, ikili standartlar olsa belə, biz bunu deməyə davam etməliyik. Kəlbəcərin Başlıbel məzarlığı, dağıdılan şəhərlər, dağıdılan məscid və abidələrin hər bir epizodu böyük müzakirə mövzusudur. Hər bir epizod üzərində işlənilməlidir. Heç bir epizodu diqqətdən qaçırtmaq olmaz. Bu gün ermənilər Azərbaycan tərəfindən tutulmuş diversantları hərbi əsir kimi təqdim edib haqq qazandırmaq istəyirlərsə, biz Şahbaz və Dilqəmin məsələsini qabartmalıyıq ki, onlar illərlə girov saxlanılsalar da dünya onların azadlığı üçün heç bir kömək etmədi. Lobilləşmə siyasətini önə çəkərək ermənilərin Dağlıq Qarabağda insan qətliamlarını xüsusi vurğulamalı, Başlıbel kəndindəki və digər faciələri dünya ictimaiyyətinə çatdırmalıyıq. Bunun alternativi yoxdur. Əgər biz haqq səsimizi, Dağlıq Qarabağ həqiqətlərini dünyaya çatdıra bilsək, düşmən də ədalətsiz iddialarından əl çəkər, səsini çıxarda bilməz!".



Qeyd edək ki, Baş Prokurorluğun İstintaq idarəsi cinayət işinin istintaqı zamanı müəyyən edib ki, Azərbaycan Respublikasının digər rayonları ilə yanaşı 1993-cü ilin aprel ayının əvvələrində Ermənistan Silahlı Qüvvələri hərbi təcavüzlə Kəlbəcər rayonunu işğal edərkən həmin rayonun Başlıbel kəndində mülki əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq nümayiş etdiriblər. Müəyyən edilib ki, 3 aprel 1993-cü il tarixdə Ermənistan Silahlı qüvvələri Başlıbel kəndinə silahlı hücum edərək kütləvi surətdə kənd sakinlərinə məxsus evləri qarət etmiş və tamamilə yandırıblar. Kəndi tərk edə bilməyən 62 nəfər təxminən 3 km aralıda, kəndin ən hündür hissəsində yerləşən "Portda" adlanan dağ relyefli ərazidəki təbii mağaralara sığınıb. Törətdiyi vəhşiliklə kifayətlənməyən Ermənistan silahlı qüvvələrinin avtomat və iri çaplı silahlarla silahlanmış ünsürləri öz azğınlıqlarını davam etdirərək 18 aprel 1993-cü il tarixdə silahsız mülki şəxslərin öz doğma kəndlərində qayalara sığındığı yerləri axtararaq aşkar edib, həmin gün saat 15-dən 21 radələrinədək köməksiz vəziyyətdə qalmış mülki şəxslərin gizləndiyi mağaraları atəşə tutmağa başlayıblar.Nəticədə silahsız, hər hansı müqavimət göstərmək imkanına malik olmayan 12 nəfər (1 nəfər 12 yaşlı uşaq, 1 nəfər 16 yaşlı yeniyetmə, o cümlədən 6 qadın, 6 kişi olmaqla) - 63 yaşlı Səmədov Yaqub İsa oğlu, 54 yaşlı Əhmədova Büsat Əliş qızı, 12 yaşlı Əhmədova Zövqiyyə Binnət qızı, 60 yaşlı Əmralıyev Məhəmməd Abış oğlu, 29 yaşlı Əmralıyev Surxay Məhəmməd oğlu, 21 yaşlı Əmralıyev Çingiz Məhəmməd oğlu, 16 yaşlı Əmralıyeva Aygün Məhəmməd qızı, 67 yaşlı Həsənova Çiçək Mikayıl qızı, 68 yaşlı Cəfərova Gülara Cəfər qızı, 95 yaşlı Cəfərova Gülgəz Qədim qızı, 22 yaşlı Abdullayev Vüqar İsa oğlu və 52 yaşlı Əsgərov Əhliman Əvəz oğlu sığındıqları yerdə qəsdən öldürülmüşlər. Hücum nəticəsində 14 nəfər (3 nəfər 2, 13 və 15 yaşlı uşaqlar, o cümlədən 10 qadın, 4 kişi) - 93 yaşlı Babayeva Kubra Qədim qızı, 23 yaşlı Əmralıyeva Arzu Binnət qızı, 56 yaşlı Əhmədov Binnət Əbdüləli oğlu, 13 yaşlı Əhmədov Niyyət Binnət oğlu, 15 yaşlı Əhmədova Şərqiyyə Binnət qızı, 56 yaşlı Əmralıyeva Zibeydə Abış qızı, 67 yaşlı Həsənova Leyli Əli qızı, 58 yaşlı Həsənova Mərmər Cavad qızı, 63 yaşlı Həsənova Şamama Hüseyn qızı, 36 yaşlı Həsənova Zeynəb Mahmud qızı, 63 yaşlı Qasımova Tutu Alı qızı, 2 yaşlı Məhəmmədov Hökmdar Surxay oğlu, 73 yaşlı Yusifova Şamama Ağa qızı və 65 yaşlı Mənsimov Hüseyn İbrahim oğlu girov götürülüb. Həmin şəxslər sonradan girovluqdan azad edilsələr də, onlardan 9 nəfəri aldıqları mənəvi və psixoloji sarsıntılardan vəfat ediblər. İstintaq materialları ilə həmçinin müəyyən edilib ki, cinayətkar qruplaşmanın üzvlərinin əlindən digər mağaralara qaçaraq gizlənən və vəhşilərdən canını qurtarmağa çalışan 36 şəxsdən 7 nəfəri də, mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişiblər. Sağ qalmış Başlıbel kənd sakinləri sonrakı tarixlərdə iki qrupa bölünməklə müxtəlif mağaralarda gizlənmiş, həyatları üçün yaranmış təhlükələrə baxmayaraq 12 may 1993-cü ildə gecə saatlarında həmyerlilərinin qətlə yetirildiyi mağaraların yanına yaxınlaşıb odlu silahlarla qətlə yetirilmiş 12 nəfərin meyitlərini paltarlı vəziyyətdə iki cərgə (hər cərgədə 6 qəbir olmaqla) qəbirlər qazmaqla dəfn etdikdən sonra hadisə yerindən uzaqlaşıblar.

Zərərçəkmişlərin şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün meyit qalıqlarından və dəfn edilmiş şəxslərin yaxın qohumları olduğunu iddia edən ailə üzvlərindən DNT-nin(dezoksiribonuklerin turşusu) təyini məqsədilə nümunələr götürülərək molekulyar-genetik və digər xüsusatların araşdırılması üçün tibbi-kriminalistik ekspertizalar təyin edilmişdir.Hazırda hadisənin sağ qalmış şahidlərinin müəyyən edilməsi, onların dindirilməsi və iş üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsi istiqamətində digər zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Azərbaycan Respublikasının Baş prokurorluğu tərəfindən Ermənistanın keçən əsrin 90-cı illərindən başlayaraq Azərbaycan vətəndaşlarına qarşı sülh və insanlıq əleyhinə törətdiyi cinayətlərin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək milli və beynəlxalq məhkəmələrlə məsuliyyətə cəlb edilməsi istiqamətində fəaliyyət davam etdiriləcəkdir.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Fəhlə yük maşının altında qalaraq öldü

***Aprelin 28-də saat 13 radələrində Abşeron rayonu ərazisində yerləşən asfalt-beton zavodunda 1973-cü il təvəllüdlü Mövludov Cəmşid Mövlud oğlunun yük avtomobilinin altında qalaraq ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Bu barədə Abşeron rayon prokurorluğundan verilən məlumatda bildirilib. Aparılmış araşdırmalarla Abşeron rayonunda yerləşən "14 saylı Xüsusi Təyinatlı Yol İstismarı" MMC-nin asfalt-beton zavodunda fəhlə işləyən Cəmşid Mövludovun yükün boşaldılması zamanı yük avtomaşınının altında qalaraq, ölməsi müəyyənləşib.

Faktla bağlı Abşeron rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda iş üzrə istintaq hərəkətləri davam etdirilir.

## Lerikdə üç uşaq anası amansızlıqla qətlə yetirildi

***Lerik rayonunda üç uşaq anasının boğazı kəsilərək qətlə yetirilib.***

Hadisə Barzavu kəndində qeydə alınıb. Belə ki, təxminən 40-45 yaşlarında olan Zəkifə Feyruz qızı Qəmbərova evində boğazı kəsilmiş vəziyyətdə aşkar olunub. Qadının kiçik oğlu evə gələndə anasını ölmüş vəziyyətdə görüb, qohumlara xəbər verib. Qətlə yetirilən qadının həyat yoldaşı Rusiyada yaşayır. Övladlarından kiçiyi anası ilə birlikdə qalır.

Meyit müayinə olunmaq üçün Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Lənkəran rayon şöbəsinə təhvil verilib.

Mərhumun üzərində zorakılıq əlamətlərinin müşahidə olunduğu bildirilir.

Faktla bağlı Lənkəran Rayon Prokurorluğunda araşdırma aparılır (report).

## Bina tikərkən ağacları kəsən şirkətlə bağlı cinayət işi başlandı

***Xırdalan şəhərində tikinti işlərinin aparılması üçün hasara alınmış ərazidə ağacların qanunsuz kəsilməsi ilə bağlı cinayət işi başlanılıb.***

Baş Prokurorluqdan verilən məlumata görə, M.Ə.Rəsulzadə küçəsi-1 ünvanında tikinti işləri aparan "Proqress-2016" MTK-nın direktoru Emil Səməndərov tikinti aparılması üçün əlverişli şərait yaratmaq məqsədilə qeyd edilən ünvanda yerləşən torpaq sahəsində mövcud olmuş, meşə fonduna daxil olmayan 12 ədəd ağacın qanunsuz kəsilməsinə göstəriş verib.

Nəticədə dövlətin qanunla qorunan mənafelərinə ümumilikdə 9 min 800 manat məbləğində ziyan vurulub.

Faktla bağlı Cinayət Məcəlləsinin 259.2.4 (qanunsuz ağac kəsmə külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaqın aparılması Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə həvalə edilib.

Hazırda cinayət işi üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

## Domino oyunu qanla bitdi

***Tovuz rayonunda domino oynayan kişilər bir-birinə ağır xəsarət yetiriblər.***

"Qafqazinfo" xəbər verir ki, hadisə bu gün saat 19 radələrində rayonun Qovlar kəndində baş verib.

Rayon sakini Rəhim Qasımov mübahisə zəminində çapacaqla Şaban Həsənovun başından zərbə endirib.

Başı yarılan Ş. Həsənov isə bıçaqla R.Qasımovu vurub. Onlar arasında dava domino oyunu üstündə olub.

Faktla bağlı araşdırma aparılır.

## İntim fotolarını yayacağı ilə hədələyib görüşməyi tələb etdi

***Bakıda bir qadından sosial şəbəkədə şəkillərini yayacağı adı ilə hədələyib görüşməyi tələb edən şəxs saxlanılıb.***

"Unikal" DİN-ə istinadən xəbər verir ki, Binə qəsəbəsində yaşayan bir qadın aprelin 25-də sosial şəbəkədə Faiq adlı şəxsin onu şəkillərini yayacağı adı ilə hədələyib görüşməyi tələb etməsini bildirib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Bakı şəhər sakini Ç.Aslanov müəyyən edilərək saxlanılıb.

Faktla əlaqədar Cinayət Məcəlləsinin 242-ci (pornoqrafik materialları və ya əşyaları qanunsuz yayma) maddəsi ilə cinayət işi başlanıb.

# Gecəyarısı qohumlar arasında dava: "Tünzaləni aparmağa gəlmişəm..."

***Qəbələ rayon sakini, 1985-ci il təvəllüdlü Elşən qohumu Zaura xəsarət yetirib.***



Elşən Qəbələ rayonunun Hacıallı kəndində yaşadığı evin həyətində yeznəsinin qardaşı Zaurun onun mərhum bacısı Günayın ünvanına nalayiq ifadələr işlətdiyinə görə əsəbiləşib.

Bu səbəbdən o, Zaurun sifət nahiyəsinə başı ilə vuraraq, ona xəsarət yetirib.

Elşənin barəsində Cinayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül xəsarət yetirmə) maddəsi ilə ittiham elan edilib.

Cinayət işi üzrə ifadə verən Elşən elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, ifadəsində göstərib ki, hadisə baş verən günü, gecə saat 1 radələrində evdə yatdığı zaman həmkəndlisi Zaur onu çağırdığını eşitdiyi üçün həyətə düşüb: "Zaurdan nə istədiyini soruşdum. Cavab olaraq qardaşı qızı Tünzaləni çağırmağımı tələb etdi. Zaura mərhum bacım Günayın təzə vəfat etdiyini bildirdim, saatın gec olduğunu əsas gətirərək, həyətimizi tərk etməsini xahiş etdim. Zaur ünvanıma nalayiq ifadələr işlətdi.

Onu yola verərək həyətindən çıxarmağa çalışmağıma baxmayaraq, mənə müqavimət göstərdi. Məni itələdiyi, eləcə də mərhum bacım Günayın ünvanına nalayiq ifadələr işlətdiyi üçün məcbur qalaraq onun sifət nahiyəsinə başımla vurdum. Zaurun burnu qanadı".

Elşən İsmayılovun sözlərinə görə, həmin vaxtı qapı tərəfdən Zaurun anası Mehriban içəriyə daxil olub: "Nə ilə vurduğunu qaranlıq olduğundan görə bilməməyimə baxmayaraq hansısa küt əşya ilə baş nahiyəmə vurmasından sonra ağrı hiss etdim. Daha sonra isə baş nahiyəmdən qan axdı. Həmin vaxtı həyətdə anam, qardaşım qızı, mərhum bacımın qızı Tünzalə olub.

Səsə yaxınlıqda yaşayan qardaşım Valeh və onun həyat yoldaşı gəldilər. Həmin şəxslər gəldikdən sonra çətinliklə də olsa Zauru və anasını həyətdən bayıra çıxartdılar. Qardaşım Valeh baş verənlər barədə polisə məlumat verdiyi zaman Zaurun anası avtomobilə əyləşdi, oğlunu çağırdı. Lakin Zaurun gəlmədiyini gördüyünə görə avtomobildən düşərək piyada evlərinə doğru qaçdı".

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində ifadə verən Zaur bildirib ki, əvvəlcədən üç bakal pivə içdikdən sonra özünə məxsus "Ford Tempo" markalı avtomobilinə əyləşərək qardaşı Anarın qaynı Elşənə məxsus yaşayış evinin həyətinə gəlib: "Qardaşımın mərhum həyat yoldaşı Günayın vəfatından sonra Elşəngildə qalan qardaşım qızını evimizə aparmaq istəyirdim. Elşən nə istədiyimi soruşdu. Bu zaman Elşəndən Tünzalənin harada olduğunu soruşdum, onu aparmaq üçün gəldiyimi dedim.

Elşən cavab olaraq "Tünzaləni neyləyirsən? Sənə veriləsi qızımız yoxdur" dedi. Yenə qardaşım qızı Tünzaləni aparmaq istədiyimi dedim. O, istəyimə məhəl qoymadı və məni həyətdən çıxarmağa cəhd etdi. Məndən əl çəkməsi üçün Elşəni əlim ilə itələdim. Həmin vaxtı Elşən gözlənilmədən sifət nahiyəmə başı ilə vurdu, burnumdan qan axdı. Həyət qapısından içəri daxil olan anam sifət nahiyəmin qan içində gördüyü üçün özünü saxlaya bilmədi. Anam da Elşənlə dalaşdı, anamın onu vurmasını görmədim".

Bu cinayət işinə Qəbələ rayon Məhkəməsində hakim Elman İsayevin sədrliyi ilə baxılıb.

Elşəndən zərərçəkmiş tərəfin şikayəti olmadığı üçün barəsində olan cinayət işinə xitam verilib. Elşən cəzadan azad olunub.

# Yaqub Eyyubov arvadını qətlə yetirdi – Təfərrüat

***Sabirabad rayonunda qətl hadisəsi törətməkdə təqsirli bilinən Yaqub Eyyubovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***



Teleqraf.com xəbər verir ki, cinayət işi baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İş araşdırılması üçün hakim Nizami Quliyevin icraatına verilib.

Yaxın günlərdə məhkəmə başlanacaq.

İttihama görə, ötən il sentyabrın 4-də, saat 15 radələrində Sabirabad rayonu, Qəzli kəndi ərazisində 1976-cı il təvəllüdlü Mətanət Nuriyevanın bıçaqlanaraq öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Dərhal prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

İstintaqla zərərçəkmişin əri 1939-cu il təvəllüdlü Yaqub Eyyubovun qısqanclıq zəminində aralarında yaranmış münaqişə zamanı Mətanət Nuriyevaya bıçaq xəsarətləri yetirməklə qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Yaqub Eyyubov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

İstintaq orqanı tərəfindən Yaqub Eyyubovun barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə ittiham elan edilib.

# Satan narazı, alan narazı: Bakı bazarlarında nə baş verir?



***Belə bir deyim var: "Satan razı, alan razı". Amma bu gün bazarlardakı vəziyyətə aid deyil bu sözlər. Nə satan razı deyil, nə də alan. Qiymətlər od tutub yanır...***

"Hansı piştaxtaya yaxınlaşıram qiymətlər əl yandırır. Mövsümdü, adam istəyir alça, çiyələk ala. Amma bazarı fırlanıb bir-iki kiloqram başqa meyvə alıb gedirəm evimə. Büdcəm buna imkan verir çünki".

Bazarda bu halla qarşılaşan təkcə Nəsibə xanım deyil. Bazara girən hər kəs narazı çıxır ordan. Bu günlərin mövsümi meyvələri sayılan alça, çiyələk, şaftalı və ərik artıq bazarlarda piştaxtaları bəzəməyə başlayıb. Amma alıcılar kimi bazarın daimi sakinləri - satıcılar da narazıdır. Bəs, nədən?

"Ötən illə müqayisədə alıcı sayı azalıb. Alıcı yoxdu. Bu pandemiya hər sahəyə təsir etdiyi kimi bizim bazarı da öldürüb". Ramin Seyidov artıq 6 ildir ki, bazarda meyvə-tərəvəz satışı ilə məşğuldur. Əslində qiymətlər münasibdir deyir.

"Yəni mövsümi meyvə neçəyə olmalıdır ki? Aprel ayıdır. Ən çox tələbat duyulan meyvələrin qiyməti həmişə baha olur. Məhsulumuz da yerlidir. Xaricdən gələn ekzotik meyvələrdir. Məsələn, şaftalı 8, İrandan gələn qarpız 1 manat 50 qəpik, yemiş isə 4 manatdır".

Satıcı Ramin onu da qeyd edir ki, alıcılar daha çox çiyələk, göyçə, şaftalı, ərik, əzgil meyvələri alır.

"Yerli məhsullarımızdan Göyçaydan gələn göyçə 7, Şəmkirdən gələn çiyələk 4, Cəlilabaddan gələni isə 3 manatdı".

Bəs, qarşıdan gələn Ramazan bayramında qiymətlər necə olacaq? Bahalaşma gözlənilirmi?

Bu suala da fərqli cavablar aldıq. Belə ki, Ramin Seyidov deyir ki: "Bayramqabağı qiymətlərdə də dəyişiklik gözlənilir. Cüzi miqdarda artım olacaq".

Satıcı Mürvət Babaşov isə qiymətlərdə dəyişiklik olmayacağını deyir.

"Elə indi gördüyünüz qiymətlər də qalacaq. Alıcı yoxdur onsuz da. Niyə qiymət qalxsın? Yerli alça xırdadır. Qiyməti də 5-6 manata olur. İri alçalar İrandan gəlir. Qiyməti 19 manatdır. Amma alıcı qıtlığı yaşayırıq".

Alıcı İlqar Əzizov bayrama xüsusi hazırlıq görməyəcəklərini deyir: "Bayramda kimin gücü nəyə çatır onu da alır. Olanımızdan süfrəmizi açıb bayramı qeyd edəcəyik. Xüsusi bir hazırlıq görməyəcəyik. Hazırda bazarda ən ucuz meyvə almadı. Biz də alma və banadan başqa heç nə almırıq. Qiyməti 50 qəpikdən 3 manata qədər dəyişir".

Ramazan ayında eləcə də bayramda ən çox üstünlük verilən nemətlərdən biri də xurmadır. Satıcılar müxtəlif növləri təqdim olunan xurmanın bayramda qiymətində dəyişiklik olmayacağını deyir: "Xurmanın qiyməti 4 manatdan başlayır. Bağdad xurması 4, İrandan gələn 5, Mədinə xurması 13 manatdır. Qiymətlər elə eynidir. Qalxmayıb. Bayramda da qaldırmaq fikrimiz yoxdur. Tələbat yoxdur.

Alıcı Lalə Nuriyeva deyir ki, bazarda qiymətlər qaneedicidir: "Marketlərlə müqayisədə bazarda qiymətlər yaxşıdır. Mən özüm oruc tuturam. İftar süfrəmə xurma almağa gəlmişəm. Büdcəmə uyğun qiymətə olanından alacam".

Hə, qiymətlər bahadır. Alıcılar piştaxtalara yaxınlaşıb meyvələrdən dadır, daha sonra uyğun qiymətə olan başqa bir meyvə alıb gedirlər. Satıcılar deyir ki, bu meyvələr novbar olduğundan bahadır. 10-15 günə onların qiymətinin düşəcəyi gözlənilir.

# Birinci rübdə Azərbaycanın ixracı 4,1 milyard dollar olub

***Birinci rübdə Azərbaycanın ixracı 4,1 milyard dollar, qeyri-neft sektoru üzrə ixracı 501,5 milyon dollar təşkil edib.***

"Unikal" İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac İcmalı"nın aprel sayına istinadla xəbər verir ki, qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 70,6 milyon ABŞ dolları və ya 16,4 faiz artıb. Qeyri-neft sektorunun Azərbaycanın ixracında payı ötən ilin müvafiq rübü ilə müqayisədə 2 faiz artaraq 12,1 faiz olub. Bu dövr ərzində qeyri-neft məhsullarının ixracı üzrə 393 mal mövqeyi müəyyənləşdirilib ki, bu da mal və məhsulların şaxələndirilməsi nöqteyi-nəzərdən Cənubi Qafqaz ölkələri üzrə ən yüksək göstəricidir.

2021-ci ilin birinci rübü ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı birinci olub. Bu siyahıda qızıl ikinci, xurma isə üçüncü yerdə qərarlaşıb.

Hesabat dövründə Türkiyəyə 163,1 milyon, Rusiyaya 129,8 milyon, İsveçrəyə 44,7 milyon,




Gürcüstana 38 milyon və ABŞ 18,3 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin mart ayında qeyri-neft sektoru üzrə ixrac 170 milyon dollar təşkil edib. Martda qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Türkiyə (56,2 milyon ABŞ dolları) liderliyini qoruyub. Bu siyahıda Rusiya ikinci (44,3 milyon ABŞ dolları) və Gürcüstan üçüncü (9,7 milyon ABŞ dolları) olub.

2021-ci ilin mart ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (31,4 milyon ABŞ dolları) birinci, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (13,7 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (9,7 milyon ABŞ dolları) üçüncü olub.

Birinci rübdə meyvə-tərəvəz ixracı 97,2 milyon, pambıq lifi ixracı 69 milyon, alüminium və ondan hazırlanan məmulatların ixracı 42,4 milyon, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 22,2 milyon, pambıq ipliyi ixracı 10,3 milyon, kimya sənayesi məhsullarının ixracı 9 milyon, şəkər ixracı 9 milyon, heyvan mənşəli piylər və yağlar ixracı 8,4 milyon, spirtli və spirtsiz içkilərin ixracı 3,4 milyon, bitki və çay ixracı 2 milyon dollar təşkil edib. Qeyd edilən mal və məhsullar qeyri-neft ixracının 45 faizini təşkil edir. Bu göstərici qeyri-neft ixracının artımı fonunda mal və məhsulların ötən illərlə müqayisədə daha çox diversifikasiya olunmasını özündə ehtiva edir.



# Azərbaycan və Türkiyə iqtisadiyyatı daha da güclənəcək

***Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə və maliyyə institutları" kafedrasının müdiri, professor, BMT-in "Sülh Səfiri" Əvəz Ələkbərov Modern.az-ın suallarını cavablandırıb.***

Əvəz müəllim, ABŞ Prezidenti C.Baydenin soyqırımla bağlı ifadəsinin işlətməsi barədə sizin də fikirlərinizi eşitmək istərdik. Səslənən fikirləri necə qiymətləndirirsiniz?

Bu ABŞ vətəndaşlarının fikri deyil. Böyük siyasətçi belə bir ifadə işlətməli deyildi. Bu ABŞ dövlətçilik imicinə bir zərbədir. Kiminsə xahişi ilə emosiyalara qapanıb belə addım atmaq tarixi səhvdir.

Sizcə Türkiyə və Azərbaycan hansı addımlar atmalıdırlar?

Türkiyə və Azərbaycanın güclənməsini qəbul edə bilməyən qüvvələr var. Onlar dərin düşünsələr bilməlidirlər ki, bu prosesin qarşısını almaq mümkün deyil. Zənimcə bu iki ölkə ölçüb-biçib 300 milyonluq Türk dünyası ilə birgə addımlar atmalıdır. Diaspor təşkilatları daha aktiv çalışmalıdırlar. İqtisadiyyatın daha da güclənməsinə nail olmalı, hərbi güclər artmalıdır. ABŞ Prezidentləri gəldi-gedərdilər. Amma Böyük Türk dünyası daimidir. Yeri gəlmişkən Co Bayden bu sözünə görə reytingini xeyli itirəcəkdir.

Azərbaycanın və Türkiyənin iqtisadi inkişafı ilə bağlı fikriniz?

Ümumilli lider Heydər Əliyevin dediyi kimi "Bir millət iki dövlət" olaraq iqtisadiyyata daha çox önəm verməк lazımdır. Çoxlu pozitiv gözləntilərimiz var, Pandemiya aradan çıxsa gözəl işlər olacaq. Yeni iri hədəflərə nail olacağıq, Azərbaycan və Türkiyə iqtisadiyyatı daha da güclənəcək, bütün sahələrdə inkişafa nail olacağıq, qələbələrimiz gündən-günə artacaqdır.

# Misirdə "Made in Azerbaijan" brendli məhsulların təqdimatı keçirilib

***Müqəddəs Ramazan ayı ərəb-müsəlman ölkələrində çox fərqli şəkildə keçir. Əhalisinin sayına görə ən böyük ərəb ölkəsi sayılan Misirdə də adətə uyğun olaraq, iftar süfrələri özünəməxsus şəkildə bəzədilir, müxtəlif rəng-arəng tədbirlər təşkil edilir. COVID-19 pandemiyası səbəbindən bir çox məhdudiyyətlər mövcud olsa da, bu il də Misirin tanınmış beşulduzlu mehmanxanalarında hökumətin tövsiyələrinə uyğun şəkildə iftar süfrələri açılır.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Misirdəki səfirliyi Misirin tanınmış beşulduzlu "Concorde-El-Salam" hotelində "Made in Azerbaijan" brendli məhsulların təqdimatını təşkil edib. Təqdim olunan məhsullar sırasında müxtəlif çərəzlər, qoz, fındıq, badam, bəkməz, kişmiş, qaysı, meyvə şirələri, kompotlar, mürəbbələr, bal, şəkərbura, paxlava, qablaşdırılmış çay növləri olub.

İftar vaxtı keçirilən tədbir Misir ictimaiyyəti, o cümlədən dəvət olunan iş adamları və jurnalistlər, habelə hotelin qonaqları tərəfindən böyük maraqla qarşılanıb.

"Made in Azerbaijan" brendli məhsullarımızın dadı və keyfiyyəti ilə tanış olan qonaqlar tədbirdən xeyli məmnun qaldıqlarını ifadə ediblər. Həmçinin bu tədbir iki ölkə arasında biznes mühitinin inkişaf etdirilməsi baxımından böyük əhəmiyyətə malik olmaqla, misirli iş adamlarının diqqətini cəlb edib.

***Oqtay Bayramov***



# Mübariz Əsgərov MTRŞ üzvü təyin olunmağından danışdı

***Ölkə Prezidentinin dünənki sərəncamı ilə Milli Televiziya və Radio Şurasının üzvü təyin olunan Əməkdar jurnalist Mübariz Əsgərov bunu böyük etimad və məsuliyyət hesab edib.***

"Unikal"ın məlumatına görə, M.Əsgərov təyinatın onun üçün gözlənilməz olduğunu deyib:

"Qarabağ bölgəsində sənədli filmin çəkilişləri vaxtı cənab Prezidentin sərəncamı ilə Milli Televiziya və Radio Şurasına üzv təyin olunmağım haqqında şad xəbər aldım. Uzun illər teleməkanda çalışmış, vuruşmuş Mübariz Əsgər kimi cənab Prezidentə, Ali Baş Komandana səmimi təşəkkür edirəm. Onun etimadını doğrultmaq üçün bütün yaradıcı potensialımı, təcrübəmi səfərbər edəcəyimə söz verirəm... Müharibədə qazanılan Zəfərin arxa cəbhədə də davamlı olması üçün hər bir vətəndaş öz sahəsində əsgər olmalıdır... Televiziya əslində ön cəbhədir. Həmişə göz önündədir. Televiziya işçisi adi əsgər yox, Xüsusi Təyinatlı Əsgər olmalıdır!".

# ASC sədri rayonlardakı su təsərrüfatı obyektlərinə baxış keçirib



***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin nümayəndəsi Dilqəm Şərifovun verdiyi məlumata görə, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov və sədr müavini Zakir Quliyev Sabirabad, Saatlı, İmişli, Füzuli, Biləsuvar, Salyan və Neftçala rayonlarındakı su təsərrüfatı obyektlərinə baxış keçiriblər.***

Səfərdə məqsəd cənab Prezidentin tapşırıqlarından irəli gələn məsələlərlə yerində tanış olmaq və qarşıya qoyulan məsələləri vaxtında yerinə yetirməkdən ibarətdi.

Səfər zamanı yerli istismar idarələri ilə məsələlər müzakirə olunmuş və müvafiq tapşırıqlar verilmişdir.

Xatırladaq ki, bundan əvvəl Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov ilk olaraq işğaldan azad olunmuş ərazilərdə yerləşən "Suqovuşan" və "Xaçınçay" su anbarlarına və su təsərrüfatı obyektlərinə baxış keçirib.

# Nişan məclisi keçirənlər cərimələndi



***İmişli Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən karantin rejimi qaydalarının pozulması hallarının qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətininn Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, İmişli RPŞ-nin əməkdaşları tərəfindən xüsusi karantin rejimi ilə əlaqədar aparılan reydlər zamanı rayonun Şahverdili kəndindəki fərdi yaşayış evində nişan məclisi keçirməyə cəhd göstərən şəxslər müəyyən edilib.

Polis əməkdaşları tərəfindən məclis dayandırılıb, 2 nəfər barəsində isə qanunamüvafiq tədbir görülüb.

# "Bu vaxtadək necə tək qalmısan burda" – 84 yaşlı ana 28 ildən sonra oğlunu görməyə gəldi – Səbuhi Məmmədli Cəbrayıldan yazır

***- Dur bala, dur ayağa görüşək. Dur, boyuna qurban olum. Anan gəlib, dur...***

Anası gəlib. Düz 28 il sonra. Oğlunun qəbrini ziyarətə... Oğlanlarıyla gəlib, oğlunu görməyə...

Hələki inanmır. Sanki yuxu görür. Bütün gecəni də yatmayıb axı...

...Qızı açır maşının qapısını. Düşür və eyni anda kövrək nəzərlərlə ətrafa baxır.



## Güldəstə ana oğlu İsaqla

İrəlidə, çox yox, beşcə metr aralıda oğlu Ramiz boylanır ona tərəf.

Böyük oğlu İsaq girir qoluna. Addım-addım gedir qəbrə tərəf. Adama elə gəlir ki, 28 ildir həsrətində olduğu oğlunun qəbrinə bu beşcə addımı da 28 ilə gedib çıxacaq.

Qəbrə bir addım qalmış İsaq qolunu buraxır anasının-Güldəstə ananın. O boyda adam, dağ boyda İsaq yerə, qəbrin üstünə düşür lay divar kimi.

## İsaq qardaşının qəbrinə sarılır

O boyda İsaq yumrulanıb bir metrlik sinə daşına sığışır. Və...

Və hönkürür...

Ustufca qəbrin baş tərəfinə keçir Güldəstə ana. Əlini başına atıb qiyyə çəkir:

Əzizim, anam ağlama,
Vəfalı sonam ağlama.
Qorxuram ah çəkəsən,
Od tutub yanam ağlama.

Və...

Və oğlu İsaq kimi qəbrin üstünə sərilir.

Onu tutmaqmı olar?

Ona baxmaqmı olar.

Güldəstə ana oğlunun qəbri önündə

İsaq anasının bu vəziyyətinə baxa bilmir, əlində dəsmalı üzünü dağlara tərəf tutub gözünün yaşını sel kimi tökür.

O biri oğlu da dayana bilmir, gözünün yaşını barmaqları ilə gizlətməyə çalışır. Amma barmaqların üstündən süzülüb tökülür qəbrin üstünə.

Bir qohumu dizi üstə çöküb, iki qatlanıb.

Şəhidin qohumu onun qəbiri üstə

Bir həmkarımız da qoşulub Ağayevlərə, ağlayır.

Mən, mən isə donmuşam, tərpənə bilmirəm, belə anlarda köməyimə gələ bilən siqaretimi də iki cibimin heç birindən tapa bilmirəm.

Hönkürür qəbri üstə durmadan Güldəstə ana. Qucaqlamaqdan, oxşamaqdan, öpməkdən doymur qəbir daşını. Qorxur, elə bilir ki, bir də bura 28 ildən sonra gələ biləcək. Torpağı belə dırnaqlarıyla xışmalayır. Qalxmaq istəmir.

Su gətirir kimsə. İki qurtum içir...
O da yandırır məni,
Bu da yandırır məni.
Deyirlər ki sərindir,
Su da yandırır məni.

Güllər düzülər qəbirin üstünə. Bütün ailə qəbrin ətrafında oturub. Bu dəfə susurlar, 28 ildir həsrət qaldığı dağlara boylana-boylana.

- Vətənə gedirik, dedim, səhər evdən çıxanda. Çox arzusunda idim, bala. Deyirdim bir quş olaydım, uça-uça gedəydim. Balamın qəbrini görüb, sonra gəlib ölərdim. Allahdan möhlət istəmişəm ki, qurban olum, mənə möhlət ver, balamın qəbrini görə bilim. Bu gün o gündü. Mənim balam igid oğul olub, bala. Düşmənlə üz-üzə döyüşüb. Ürəyindən vurublar balamı. Səni yanasan ay erməni, səni yanasan, kül olasan. Necə ki yandın. Avqustu 15-də, 93-də şəhid oldu Ramiz. Yadımdadı, göydən od tökülürdü həmin gün. Balamı basdırıb o çıxan Cəbrayıldan çıxdıq. Qaldı burda. Düz 28 ildir Cəbrayıl həsrəti çəkirik. O qədər fəxr edirəm ki, ordumuzla. Onlara qurban olum. Onların qanı ilə aldıq biz torpaqları. Mən baş əyirəm o oğulların da, onları böyüdən anaların da qarşısında. Bu gecə heç bir saat belə yatmamışam. Gözümə yuxu getmədi, ay bala. Bütün gecə Ramizimlə danışmışam. Necə tək qalıb bu qədər vaxtı burda, necə?

Yemək, su da gətiriblər özləriylə. Elə qəbrin yaxınlığında da ehsan süfrəsi açıblar. Bir qismətini isə baş daşının yanına qoyacaqlar, ona saxlayacaqlar. Bəlkə də 28 ildə ən ləziz nahar ola bilərdi...

Amma heç birinin boğazından bir loxma da keçmədi...

***P.S. Daxili İşlər Nazirliyinin "İnstagram" sosial şəbəkəsindəki rəsmi səhifəsinə Cəbrayıl rayon sakini olan şəhid anası Güldəstə Ağayevanın adından müraciət daxil olub. Müraciətdə şəhid anası oğlu Ramiz Ağayevin 1993-cü ilin avqust ayının 15-də Cəbrayıl rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə şəhid olduğunu və onun Cəbrayılda dəfn olunduğunu qeyd edib. G.Ağayeva Cəbrayıl rayonu işğal olunandan sonra 28 ildir ki, doğma torpağını yenidən görmək və oğlunun məzarını ziyarət etmək həsrəti ilə yaşadığını bildirib. Güldəstə ana müraciətinin sonunda Nazirliyin rəhbərliyinin onun 84 yaşının olmasını nəzərə alaraq Cəbrayıl rayonuna səfər etməsinə icazə verilməsini xahiş edib.***

***Müraciət dərhal nazirliyin rəhbərliyinin nəzarətinə götürülərək əvvəlcə şəhid Ramiz Ağayevin Cəbrayıl rayonundakı məzarının tapılması təmin edilib. Şəhid məzarının və yerləşdiyi ərazinin minalardan təmizlənməsi üçün lazımı tədbirlər görülüb. Müvafiq təhlükəsizlik tədbirləri gözlənilməklə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Güldəstə ana və onun ailə üzvlərinin Cəbrayıl rayonuna səfəri təşkil edilib.***

***Cəbrayıl***

# Daha 15 nəfərin hərbi səbəbli əlilliyi ləğv edilib

***Ötən illərdə hərbi səbəblərlə əlaqədar təyin edilmiş əlillik müddəti bitən və təkrar əlillik təyinatı aparılması üçün barələrində e-sistemə göndəriş daxil edilmiş, habelə əlillik sənədlərində ziddiyyət aşkarlanan daha 27 nəfərin komissiya tərəfindən əlilliyinin əyani qiymətləndirilməsi aparılıb.***

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN) "Unikal"a verilən məlumata görə, onlardan 15-nin xəstəlik diaqnozlarının əlilliyə əsas verməmişdir, bu diaqnozların onların sağlamlıq vəziyyətlərinə uyğun olmadığı müəyyən edilib.

Həmin şəxslərə təkrar əlillik təyin olunmasından imtina qərarı verilib. Komissiya Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agent-



liyi, Müdafiə Nazirliyinin və digər müvafiq qurumların hərbi həkim ekspert komissiyaları, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi nümayəndələrindən ibarətdir. Əyani müayinələrin hər birinin videoçəkilişləri aparılır, qeyri-hökumət təşkilatları nümayəndələrinin də iştirakı təmin edilir.

Bu dəfəki əyani müayinədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai şuranın sədr müavini, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev və şuranın üzvü, "Mina Qurbanlarının Sosial İqtisadi Problemlərinin Həllinə Kömək" İB-nin sədri Məmmədhəsən Həsənov iştirak ediblər.

Rəsmi məlumata görə, aparılan müayinələrdə mühüm prinsip əlillik təyinatlarının şəffaf və obyektiv aparılmasının təmin edilməsi, əsassız təyinatların ləğvidir.

# ADNA-da yarımçıq qalan arzular: “ən çox güllə ona dəymişdi”

***12 il əvvəl Azərbaycan Dövlət Neft Akademiyasında (ADNA) törədilən terrorun qurbanlarından biri Savalan Cabbarov olub. Akademiyanın IV kurs tələbəsi olmuş Savalan 2009-cu ilin bu günü bakalavr imtahanı vermək üçün sonuncu dəfə evdən çıxıb. Növbəti gün magistraturaya qəbul imtahan verəcəkdi. Lakin terrorçu Fərda Qədirov onun həyatına son qoydu...***

Bacısı Nərminə Cabbarovanın zəngindən sonra imtahan otağından çıxan Savalan 5-ci mərtəbədə terrorçu ilə rastlaşıb, onu zərərsizləşdirmək üçün əlbəyaxa olub. Terrorçu Savalandan xilas olmaq üçün onun çiyninə bir dəfə atəş açıb. Daha bir güllə Savalanın ayağına dəyib. Sonra terrorçu müvazinətini itirən Savalanın üz nahiyəsinə 3 güllə vurub. Onu xəstəxanaya aparmağa çalışsalar da, yolda dünyasını dəyişib. Savalanın arxasınca çıxan iki qrup yoldaşı, ən yaxın dostları Ayaz Bağırov və Taleh Məmmədov da Fərda Qədirovun hədəfinə tuş gələrək həyatlarını itiriblər.

Savalanın anası Kəmalə Cabbarova 12 il əvvəl baş vermiş ADNA faciə barədə Azvision.az -a danışıb. Bu gün oğlunun məzarını ziyarət edən K.Cabbarova dəhşətli hadisənin sanki dünən olmuş kimi xatırladığını söyləyib:

“O il getsin, bir də gəlməsin. Çox çətin idi. Hadisədən bir gün əvvəl oğlum işə görə BP-də imtihan verməyə getmişdi. Universitetdən onu istiqamətləndirmişdilər. Birinci imtahandan keçdi, sonra ikinci imtihana getdi. Evə axşam gec gəldi. Yemək yeyibyemədiyini soruşdum, dedi “ana, orada fəhlələrlə birgə yemək yemişik”. Qrup yoldaşları onu axtarırdı. Aprelin 30-u bakalavr imtahanı idi, mayın 1-də isə magistr imtahanı olacaqdı. Uşaqlar harada imtahan verəcəklərini öyrənmişdilər, bircə Savalandan xəbərləri yox idi. Savalana dedim, o da kompüteri açdı, nəsə öyrənə bilmədi, qonşunun kompüterində də baxdı, öyrənə bilmədi. Dedi, “ana, mən çox yorulmuşam, yatıram, uşaqlardan kimsə zəng etsə, denən sonra danışarıq”. Səhər saat 5-də durub gördüm ki, Savalan dərs oxuyur, imtahana hazırlaşır. Sonra mən yatdım. Bir müddət sonra məni oyandırdı ki, “ana, dur, gedirəm”. Qapıdan çıxıb, 1-2 pilləkən düşdü, sonra geri qayıtdı, telefonu yadından çıxmışdı”.

Müsahibimiz 12 il keçsə də, oğlunun ayaq səslərini hələ də eşitdiyini deyir:

“Sonuncu günümüz gözümün önündə canlanır. Onun ayaq səslərini eşidirəm. Savalan getdi və bir daha geri qayıtmadı. Uşaqlarımın ikisi də eyni universitetdə oxuyurdu. Qızım birinci mərtəbədə dərsdə, Savalan isə imtahanda idi. Televizoru açmırdım, uşaqlara yemək hazırlayırdım ki, gələndə yesinlər. Qohumlarım zəng edib, soruşurdu. Amma həmin vaxtlar halım yaxşı deyildi, mənə hadisə barədə heç nə demirdilər. Qohumlardan biri uşaqları soruşdu, dərsdə olduğunu dedim. Dedi ki, onların universitetində xarici tələbələrlə yerli tələbələr arasında dava düşüb. Savalan çox sakit, heç kimlə işi olmayan, güləriz uşaq idi. Dedim, mənim oğlum dalaşmaz. Sonra uşaqlara zəng etdim. Savalan cavab vermədi, Nərminə cavab verdi. Dedi ki, “ana, burada qarışıqlıqdır, Savalanla danışmışam”. Nəsə dayanmadım, ora getdim.



Vəziyyət çox gərgin idi, heç kimi yaxın buraxmırdılar. Nə baş verdiyini bilmirdim. Yenidən evə qayıtdım. Qardaşım evə zəng edib dedi ki, “bacı, oğlunu gətirirəm”. Mən də elə bilirəm Savalan yaralanıb. Nə baş verdiyini Savalanı gətirəndə bildim. İnstitutda ən çox güllə mənim oğluma dəyib. Terorçu ilə əlbəyaxa dalaşıb, dostu və qrup yoldaşı Ayaz da onunla birgə olub. Oğluma ümumilikdə 7 güllə dəymişdi.





Qrup yoldaşları deyir ki, otaqda imtahanın başlamasını gözləyirdilər. Bir anda güllə səsləri eşidilib. Onlar, elə oğlum da inanmayıb ki, başqa nəsə hadisə olar. Öz aralarında danışıblar, görəsən, hansı müəllim qiymət verməyib, tələbə gəlib səs-küy salır. İçəridə oturub danışıb gülürlərmiş. Sonra qızım zəng edib ki, “Savalan çölə çıxma, burada adamları öldürürlər”. Sonra görüblər ki, səs yaxınlaşır. Savalan bacısına görə otaqdan çıxıb ki, birdən ona nəsə olar. Dəhlizdə terrorçu ilə rastlaşıb”.

Oğlu üçün çox darıxdığını deyən ana onun məzarından təsəlli aldığını bildirir:





“12 il ərzində mənim üçün heç nə dəyişməyib, bu gün də ürəyim oğlumu istəyir. Ömürdür də yaşayırıq. Tez-tez məzarını ziyarət edirəm, məsləhətləşirəm, sözümü deyirəm, amma cavab almıram. İstəyirdik ki, həkim olsun, özü bu sahəni seçdi, orada oxudu.

Oğlumun çox arzuları var idi, yeniliklər edəcək bir şəxs olacaqdı. Qırmızı diplomla universiteti bitirəcəkdi. Qiymət kitabçasına baxıram. Bir dənə də olsun “4” qiyməti yoxdur. Balamın arzuları yarımçıq qaldı”.

Qeyd edək ki, bu gün Azərbaycan Dövlət Neft Akademiyasında törədilən terrordan 12 il ötür. 2009-cu ilin 30 aprel tarixində ADNA-nın Bakı şəhəri Dilarə Əliyeva küçəsi, 227 saylı ünvanda yerləşən ikinci korpusuna daxil olan Gürcüstan vətəndaşı Fərda Qədirov sonuncu mərtəbəyə qədər qarşısına çıxan şəxslərə ”Makarov” tipli tapançadan atəş açıb. Güllə 25 nəfərə tuş gəlib. Onlardan 13-nün həyatını xilas etmək mümkün olsa da, 12 nəfər dünyasını dəyişib.




# VƏTƏN, MİLLƏT MÜCAHİDLƏRİNDƏN DAHA BİRİ

***Vətən torpağlarının işğaldan azad edilməsi əməliyyatlarında xüsusi təyinatlı komandir kimi iştirak edən Polkovnik-leytenant CAMALOV CEYHUN FİKRƏT oğlu 1983 -cü ilin 17 yanvar tarixində Quba rayonu Yenikənd kəndində anadan olub.***

Şəhid Mehman Ağayev adına Yenikənd tam orta məktəbini 1999-cu ildə əla qiymətlərlə bitirərək Ali Hərbi Akademiyaya daxil olub. Oranı bitirdikdən sonra onun əsas fəaliyyəti XTQ-in kəşfiyyat sahəsi olduğu üçün çox məsələləri burada qeyd edə bilmirik. Novruz bayramı günlərində qazi olaraq yurduna dönən, həyəcan və məhəbbətlə qarşılanan Ceyhun komutan 2016-cı il Aprel döyüşlərində və II QARABAĞ Müharibəsində ən ön cəbhədə aparılan əməliyyatlarda yaxından və son anlaradək iştirak edib. O, işğal altında olmuş ərazilərin yağı düşmənlərdən azad edilməsində ilk gündən Xüsusi əhəmiyyətli döyüşlərə hərbi birlik komandiri olaraq qatılıb. ŞUŞA döyüşlərində isə onun rolu əvəzedilməzdir.

Biz polkovnik-leytenantın döyüş bölgəsində etdiklərini hərbi sirr olduğu üçün tam şəkildə yaza bilmirik (o bəziləri kimi özünü təbliq, tərif etdirməyə də həvəs göstərmir), amma Qələbə Tarixini yazan Milli Ordumuzun Xüsusi Təyinatlı Qüvvələrinin döyüş və kəşfiyyat əməliyyatlarında müstəsna tapşırığlar yerinə yetirdiyini bilin! O, gələcək nəsillərə, əsgərlərə nümunə, örnək olacaq bir peşəkar hərbçi zabit, təvazökar bir şəxsiyyətdir!!

Onun Döyüş yolu - CƏBRAYIL, FÜZULİ, HADRUT və ŞUŞAdan keçib - Zəfərlə bitən II QARABAĞ müharibəsində. Polkovnik -letenant Camalov Ceyhun təkcə Yenikəndin, Qubanın deyil, bütün Azərbaycan xalqının fəxri, qürurudur artıq!!. 2016 cı il Aprel döyüşlərində şücaəti ilə fərqlənən, II QARABAĞ döyüşlərinin 44 günlük Vətən Müharibəsinin canlı qəhramanı olan Ceyhun Camalova Ali Baş Komandan tərəfindən 09.12.2020-ci il tarixdə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adı verilmişdir. Qəhraman komandir Camalov Ceyhun Fikrət oğlu "Vətən Müharibəsində" öz şücaəti və qəhrəmanlığı ilə seçildiyindən daha beş medalla - "Cəbrayılın azad olunmasına", "Füzulinin azad olunmasına", "Şuşanın azad olunmasına", "Xocavəndin azad olunmasına" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Gələcəyin generalı kimi gördüyümüz bu qazi həmyerlimizə can sağlığı və istəyincə ömür arzulayır, Onların 5-3 ilə Xankəndinə, Xocalıya, Laçına və b. yol gözləyən Vətən torpağlarımıza, şəhərlərimizə də Dövlət Bayrağımızı sancacağlarına inanırıq!

***C.Alpoğlu Albantürk***

# 28 aprel: zərurət, yoxsa təsadüf

***1920-ci il Azərbaycan Xalq Cümhuriyyəti üçün pis başlamadı. Yanvarın 11-də Paris sülh konfransı Azərbaycanın müstəqilliyini de-fakto tanımaq barədə qərar qəbul etdi. Bu xəbər Bakıda böyük coşquyla qarşılandı, özüylə müsbət gözləntilər gətirdi.***

Yanvarın 13-də Moskvanın "Novaya jizn" qəzetində çıxan yazıda isə Azərbaycanın gələcək mənzərəsi ayrı cür görünürdü: qəzetə görə, "Bakı inqilabi Rusiya təqviminə əsasən oktyabrqabağı günlər yaşayır".

3 ay 5 gün sonra Azərbaycan Xalq Cümhuriyyəti artıq mövcud deyildi.

Demokratik Avropa ona bəslənən ümidləri doğrultmadı və ən çətin tarixi məqamda cümhuriyyəti tək buraxdı.

İnqilabi Rusiya nəşrinin siyasi öncəgörməsinin də yüzdə yüz düz çıxdığını demək olmaz, çünki 28 aprel hadisəsinin zərurət, yoxsa təsadüf, sosial inqilab və silahlı üsyan, yoxsa xarici hərbi müdaxilə olduğu hələ də ciddi elmi mübahisə mövzusudur.





Hər halda, cümhuriyyətin süqutunu labüd edən obyektiv səbəblər çox idi. İlk növbədə, o dövrün beynəlxalq vəziyyəti qətiyyən milli hökumətin xeyrinə deyildi. Birinci dünya müharibəsindən çıxmış Avropa ölkələri öz hayındaydılar və Cənubi Qafqaza görə

Sovet Rusiyası ilə vuruşmaq istəmirdilər. Rusiya isə keçmiş müstəmləkəsinin, özü də Azərbaycan kimi yağlı bir tikənin itirilməsi ilə barışmaq fikrində deyildi. Rus-bolşevik işğalının qabağını ancaq xarici hərbi qüvvənin köməyi ilə almaq olardı. İngilis qoşunları Bakıdan gedəndən sonra Azərbaycan Xalq Cümhuriyyətinə hərbi yardım göstərmək üçün səlahiyyət verilən İtaliya öz qoşunlarını bura yeritməyə axıracan ürək etmədi. Yaxın qonşulardan İranın "Şimal ayısı" ilə kəllə-kəlləyə gəlməyə nə istəyi, nə gücü vardı, Türkiyə öz mövcudluğu uğrunda ölüm-dirim savaşı aparırdı və bu mübarizədə onun ən yaxın müttəfiqi məhz qırmızı Rusiya idi. Azərbaycan milli hökumətinin dəstək gözlədiyi Qərb dövlətləri isə Şərqdə baş qaldıran milli-azadlıq hərəkatlarına, o cümlədən Mustafa Kamalın başçılığıyla aparılan istiqlal savaşına düşmən münasibət bəsləyirdilər. Nəticədə Türkiyənin rəhbər hərbi-millətçi dairələri, habelə Bakıda və Moskvada məskunlaşan kommunist və kamalçı türk mühacirləri və Azərbaycan hökuməti yanındakı türk hərbi müşavirləri rus və azərbaycanlı kommunistlərlə işbirliyinə gedərək Azərbaycanın sovetləşməyinə misilsiz xidmət göstərdilər. Yerli əhali arasında milli qüvvələri gözdən salan, hökumətin guya qardaş türk xalqına kömək göstərmək məqsədilə Azərbaycandan keçib Anadoluya getmək istəyən 11-ci Qızıl Orduya imkan verməməsi şaiyəsini də məhz onlar dövriyyəyə buraxmışdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin sosial bazasını günbəgün daraldan başqa bir amil ölkədəki sosial-iqtisadi vəziyyət idi. Rusiya ilə iqtisadi-ticari əlaqələrin kəsilməsi səbəbindən dərinləşən sənaye böhranı şimal qonşusuna bağlı dairələrin dilini uzun - təbliğatını kəsərli etmişdi. Elan edilən torpaq islahatının gecikdirilməsi kəndli sinfini narazı salırdı. Bütün ölkəni bürüyən ictimai sabitsizlik əhalinin ağır güzəranından qaynaqlanırdı. Azərbaycandakı sol qüvvələrin sosial məzmunlu populist şüarları onların sıralarını azərbaycanlı fəhlə, kəndli və ziyalıların, habelə xırda sahibkarların hesabına genişləndirir və möhkəmləndirirdi. Üç kommunist təşkilatının - Bakı komitəsi, "Hümmət" və "Ədalət" partiyalarının 1920-ci ilin fevralında vahid mərkəzdə birləşməsi və hakimiyyətə qarşı silahlı üsyan qaldırmaq barədə yekdil qərar qəbul etmələri onların təbliğat-təşviqat işini və təxribatçı fəaliyyətini qatqat asanlaşdırdı.

Əks cəbhədə isə parçalanma meylləri güclənirdi. "Müsavat", "Əhrar", "İttihad", sosialistlər və bitərəf siyasi qruplar arasında münasibətlər son həddə qədər kəskinləşmişdi. Hətta hakim partiya olan "Müsavat"ın içində sağ və sol qanadlar bir-biriləri ilə mübarizə aparırdılar. Bu açıq və gizli qarşıdurmaların nəticəsiydi ki, ölkədə permanent hökumət böhranı yaşanırdı, 5 dəfə kabinet təşkil olunmuşdu.

Ermənilərin Moskva ilə məxfi razılaşma əsasında 1920-ci ilin martında Qarabağ və Gəncəbasarda qaldırdığı qiyam milli hökumətin hərbi və siyasi manevr imkanlarını xeyli məhdudlaşdırdı. Azərbaycan ordusunun əksər hissələrinin qiyam bölgələrinə göndərilməsi ölkənin şimal sərhədlərini əslində müdafiəsiz saxlamışdı. Odur ki, Bakıya qədərki əraziləri 5 günə işğal etməyi düşünən 11-ci Qızıl Ordu komandirləri cəmi 48 saat sonra Bakıda qələbə raportu qəbul ediblərsə, buna təəccüblənmək lazım deyil: onların 70 minlik hərbi gücünün qarşısına Azərbaycanın 2-3 minlik jandarm və sərhəd qüvvələri çıxmışdı. Cümhuriyyət rəhbərliyi şimal sərhədlərini və nəticədə öz hakimiyyətlərini qorumaq üçün erməni cəbhəsindəki hissələri geri çağırmaqdan qəti imtina etdi və düzgün olaraq bildirdi ki, bu, Qarabağın birdəfəlik itirilməsi demək olacaq. Açıq-aşkar xarici hərbi təcavüzlə üz-üzə qalan, layiqli müqavimət təşkil etmək imkanından məhrum olan milli parlament aprelin 27-də yerli kommunistlərin ultimatumunu - təxminən 10 saatlıq gərgin müzakirələrdən sonra - səs çoxluğuyla qəbul etdi. Parlamentin son iclasında iştirak edən bir türk bu faciəvi mənzərəni: "Hürriyyətə, müstəqilliyə aşiq kiçik məmləkətin ümidsizlik içində qıvrılmasının ülvi bir lövhəsi", - deyə təsvir edirdi. Hakimiyyət rus ordusunun Bakıya girmədən birbaşa Türkiyəyə yollanması, ölkənin istiqlalının və ərazi bütövlüyünün qorunması, milli ordunun saxlanması, siyasi azadlıqlara toxunulmaması, keçmiş rəhbərlərin təqib olunmaması və orta səviyyəli məmurların öz vəzifələrində saxlanması və hakimiyyətin idarəçilik formasının azad təyin olunması şərtləri ilə Azərbaycan kommunistlərinə təhvil verilirdi.

Beləcə Azərbaycan xalqının tarixində misilsiz rol oynamış Xalq Cümhuriyyətinin varlığına son qoyuldu.

Aprel çevrilişindən 2 il sonra formal müstəqilliyini də itirib müttəfiq respublika şəklində Zaqfederasiyanın, az sonra Sovet İttifaqının tərkibinə daxil olan Sovet Azərbaycanı 71 il yaşadı.

***Seymur Şahbazzadə***

# Yaddan çıxmış sənətkarlar: “Bəxt üzüyü” filminin veteranı - Tanrıbəy dayı gerçək həyatda kim idi...

***Bəlkə də, çoxlarınız öz adı ilə onu tanımadınız. Elə isə siz kinomuzun incilərindən sayılan, uşaqdan böyüyə qədər hər kəsin dəfələrlə izlədiyi “Bəxt üzüyü” bədii filminin kadrlarını gözünüzün önündə canlandırın. Əsərdəki yaddaqalan Tanrıbəy obrazını xatırladınızmı?***

Həmin obrazı canlandırmış istedadlı aktyor Nəsir Sadıqzadədən bəhs edirik. Modern.az saytı “Yaddan çıxmış sənətkarlar” layihəsində rejissor Nəsir Sadıqzadənin həyat hekayəsini təqdim edir.

Arayış: Nəsir Müseyid oğlu Sadıqzadə 1926-cı ildə Şuşa şəhərində anadan olub. Füzuli, İrəvan, Sumqayıt, Xankəndi teatrlarında quruluşçu rejissor və baş rejissor işləyib. Ömrünün son 20 ilində əsasən, pedaqoji fəaliyyətlə məşğul olub. Müxtəlif illərdə C.Cabbarlının “Aydın”, M.İbrahimovun “Kəndçi qızı”, Ə.Nesinin “Bura gəlin”, B.Vahabzadənin “Yağışdan sonra”, İ.Əfəndiyevin “Məhv olmuş gündəliklər”, M.F.Axundzadənin “Hacı Qara”, O.İoselianinin “Araba hələ aşmayıb” və s. əsərlərə quruluş verib.

O, kino yaddaşımızda iz qoyan “Mən ki gözəl deyildim”, “Qətl günü”, “Qəzəlxan” kimi filmlərdə yaratdığı obrazlarla da xatırlanır.

Amma Nəsir Sadıqzadəni məşhurlaşdıran 1991-ci ildə çəkilən ”Bəxt üzüyü” filmində yaddaqalan Tanrıbəy dayı obrazı olub. “Bəxt üzüyü” filmində rol alan Xalq artistləri Valeh Kərimov və Afaq Bəşirqızı Modern.az-a Nəsir müəllimli xatirələrini bölüşüblər.

### “Mənim istedadımı görüb səhnədə təbrik etdi”

Valeh Kərimov: “Nəsir müəllimlə tanışlığım Teatr İnstitunda oxuyanda olub. Mən axşam fakültəsində oxumağıma baxmayaraq, 4-cü kursda diplom tamaşası verəndə səhər fakültəsinin tamaşasında oynayırdım. Bu elə bir tamaşa idi ki, Səməndər Rzayev, Ceyhun Mirzəyev, Hicran Hüseynov, Vaqif Əliyev, Kamil Məhərrəmov kimi aktyorlar orada oxuyurdu. Məni onların diplom tamaşasında oynamağa çağırmışdılar. Nəsir müəllim də İnstitutun müəllimi idi.

Tamaşanı necə oynamağımı izlədi, istedadımı bəyəndiyi üçün gəlib səhnədə təbrik etdi. Mənə “Sumqayıtda teatr açılır və mən də ora baş rejissor gedirəm. İşləmək istəyirsənsə, ora gəl” dedi. Mən də böyük sevinc və məmnuniyyətlə qəbul etdim.

Və zaman yetişdi institutu bitirən kimi Sumqayıt Teatrına getdim. Düzdür, hələ teatr açılmamışdı, amma 6 ay idi tamaşa məşqləri gedirdi. Teatrın direktoru yer olmadığı üçün məni qəbul etmirdi. Nəsir müəllim hətta direktorla mübahisə etdi, sonda məni teatra qəbul etdilər. Nəsir müəllim o zaman Sumqayıt Teatrının baş rejissoru vəzifəsində idi.

1969-cu ilin payızında Nəsir müəllim Sumqayıt Teatrından getdi, amma getməzdən öncə tamaşaları təhvil verdi. Mən də “Sevil” tamaşasında baş rolu - Balaşı canlandırırdım. Həmin vaxtdan sonra Nəsir müəllimlə əlaqəm kəsildi.

Bir də “Bəxt üzüyü” filmində görüşdük. Düzü, teatr aləmidi, arasıra rastlaşırdıq. “Bəxt üzüyü” filmində mən Moşunu, Nəsir müəllim isə Veteranı oynayırdı”.

### “Səhnədə aktyorla işləməyi mükəmməl bilirdi”

“Nəsir müəllim çox istedadlı insan, pedaqoq-rejissor idi. Bu, hər adama qismət olmur. Səhnədə aktyorla işləməyi, işləyib aktyora dərs verməyi mükəmməl bilirdi. Pedaqoji cəhətdən çox savadlı idi. Aktyorlar tam hazır olmamış, tamaşanı səhnələşdirməzdi. Aktyor yetişdirən müəllimlər az-az olub, onlardan biri də Nəsir müəllimdir.

“Bəxt üzüyü” filmində tərəf müqabili olduq. Film Şüvələnda çəkilirdi deyə, biz də Yazıçılar İttifaqının sanatoriyasında bir yerdə qalırdıq. Hər gün görüşürdük, söhbət edirdik. Nəsir müəllimlə yaş fərqimiz çox olsa da, bizdən biri idi. Böyüklə, kiçiklə necə davranacağını bilən bir müəllim idi. Bizim hünərimiz çatmazdı ki, onunla zarafat edək. Nə qədər zarafatçıl olsaydı da, həmişə məsafəni gözləyirdi.

Xasiyyətcə sadə, zarafatçıl idi.





Amma məşqlər zamanı çox tələbkar müəllim olurdu. Tələbəyə öyrətdiyini geri istəyirdi. Nəsir müəllimlə xatirələrim az olsa da, onun kimi pedaqoqun çox olmadığını bilirəm”.

### “Nəsir müəllimin adı gələndə tələbələri onu hörmətlə anırlar”

Yazıya xalq artisti Afaq Bəşirqızının xatirələri ilə davam edirik. Afaq Bəşirqızı: “Nəsir müəllimlə “Bəxt üzüyü” və “Qara volqa” filmlərində birgə çəkilmişik. Amma Nəsir müəllimi pedaqoji fəaliyyətindən də tanıyırdım.

Kim Nəsir müəllimin tələbəsi olubsa, onun adı gələndə üzlərində hörmət, sevgi, təzim kimi fərqli bir ifadə olur. Tələbələrinin hamısı Nəsir müəllimi çox istəyirdi. Nəsir müəllim həddindən artıq savadlı, gözəl pedaqoq və istedadlı aktyor olub.

Nəsir müəllim çox sakit, mədəni, gözəl insan idi. Mən onun haqqında ancaq hörmətlə danışa bilərəm və bu mənim borcumdu. Həqiqətən çox təəssüf edirəm ki, “Bəxt üzüyü” filminə qədər mən onu yaxından tanımamışdım. Ümumiyyətlə, Nəsir müəllim kimi pedaqoqları tanımağa bütün xalqın ehtiyacı var. Elə ağsaqqaları tanımağa yeni nəslin, hətta yaşlı nəslin də ehtiyacı var. Dediyim kimi, Nəsir müəllim çox savadlı pedaqoq idi. Ən önəmlisi isə tələbələri “Nəsir müəllimin tələbəsi olmuşam” deməkdən qürur duyurlar”. Müsahibimiz yaddaşlarından süzülüb gələn xatirələrlə bir neçə dəqiqənin içində uzaq keçmişə boylandılar...

### “Böyük şəxsiyyət idi”

Nəsir Sadıqzadə haqqında xatirələri qələmə almaq üçün söhbətimizə onu daha yaxından tanıyan, tələbəsi və həmkarı rejissor Rövşən İsaxla da həmsöhbət olduq.

Onun ilk cümləsi bizə Nəsir müəllim haqqında daha da müsbət fikirlər yaratdı. “Nəsir müəllimlə mənim çoxlu xatirələrim var. Onun kimi bir insandan necə danışacağımı bilmirəm. O sözün bütün mənalarında böyük şəxsiyyət idi. Sənətini onun kimi sevən birini hələ ki həyatımda rast gəlməmişəm. Düşünün, Nəsir müəllim tələbələrinə “mənə salam vermə, mən içəri daxil olanda ayağa qalxma. Amma sənətini sevirsənsə, gözümün işığısan” deyirdi. Bu onun həyat prinsipi idi. Tələbələrinə müəllim yox, ata kimi davranırdı.

### “Nəsir müəllimlə bağlı sizə maraqlı bir hadisə danışım...”

“1991-ci il, dekabr ayı... SSRİ dağılmışdı, ölkədə vəziyyət çox qarışıq, iqtisadiyyat yox vəziyyətində, ərzaq mağazalarında vitrinlər bomboş idi. Nəsir müəllim bir axşam məni və digər tələbə yoldaşımı evlərinə dəvət etdi. “Axşam dərsdən sonra pyesi də götürüb bizim evə gəlin, redaktə edək, çatdırmırıq”-dedi. Pyesi redaktə eləməyə başladıq, az müddət keçmişdi ki, “pyesi yığışdırın” dedi. Biz də təəccübləndik, çünki Nəsir müəllimin məşqləri ən azı 3-4 saat davam edərdi.

Daha sonra həyat yoldaşı Müslümə xanıma “gətir” dedi. Müslümə xanım bizə çox dəbdəbəli süfrə açdı. Süfrəyə qəribə bir yemək qoyuldu. Nəsir müəllim şuşalı olduğu üçün bu süfrənin Şuşa mətbəxindən olduğunu dedi. Biz də dillənmədən şam yeməyinə başladıq. Şam yeməyi qurtardıqdan sonra rəhmətlik stolun üstündəki iki dənə portoğalı da dilimləyib, qarşımıza qoydu. Nəsir müəllimdən bunun səbəbini soruşdum. O, kövrəldi və belə bir açıqlama verdi...

“Bir tələbəm ötən gün mənə bir quzunun yarısını, bir də bu göy-göyərtini gətirmişdi. Dünən quzunun ətini bişirdik, amma bir tikə də yeyə bilmədim. İlin, günün pis vaxtında bəlkə tələbələrimdən ac olanı var deyə düşündüm”.

### “Quzu əti bitənə qədər tələbələrini şam yeməyinə dəvət etdi”

“İnanın ki, biz gələn günün səhərisi daha iki tələbəni, o biri gün başqa tələbəsini şam yeməyinə dəvət etdi. O vaxta qədər ki, quzu əti artıq bitdi... Nəsir müəllim tələbələri olmadan o ətdən yemədi. Nəsir müəllimin necə biri olmağı elə buradan görünür.

Nəsir müəllim vaxt tapdıqca, tələbələri harda işləyirdisə, gedib onları ziyarət edib, çətinliklərinin olubolmadığını yoxlayırdı. Bu insanın evinin qapısı tələbələrinə həmişə açıq olub. O, övladı ilə tələbəsi arasında fərq qoymayıb”.

### “Nəsir müəllimin xəstəliyi onu birdən apardı”

“Mən institutu bitirdikdən sonra qısametrajlı film çəkmək arzusunda oldum. Allah rəhmət etsin, filmdə Məlik Dadaşovau da çəkmək istədim. O Məlik Dadaşov ki, onun filmlərinə baxa-baxa böyümüşəm. Mən onu çəkmək istədiyimi deyəndə, Məlik Dadaşovun çətin adam olduğunu söylədilər. Mən də Nəsir müəllimin yanına gedib istəyimi bildirdim. O da mənə “Məlik Dadaşovun bütün kaprizləri ilə mən oynayaram. Təki sən onu çəkmək istə” dedi. İnanırsınız, çəkiliş müddətində heç vaxt məni tək qoymadı. Düzdü, onun yanında nəyəsə quruluş verməyə çəkinirdim, amma o mənim heç bir işimə müdaxilə etmədi.

Nəsir müəllimlə son gününə qədər əlaqəmiz olub. Onun baməzə zarafatları, gur saçları, həmişə əlini ağzına tutub gülməyi vardı. Xəstələnib əhvalı pis olanda tələbələrinin gözünə elə görünmək istəmədi. Son bir həftəni mən onu görmədim. Nəsir müəllimin xəstəliyi onu birdən apardı”.

### “Həyat elə gətirdi ki, biz Nəsir müəllimlə Şuşada da olduq”

“Nəsir müəllim Şuşada olanda körpə uşaq kimi sevinirdi. Elə Şuşaya sonuncu səfəri bizimlə birgə oldu. İnstitutdan qastrola getmişdik. Biz qayıtdıqdan çox keçmədi ki, Şuşa işğal olundu. Nəsir müəllim bizə Şuşa ilə bağlı çoxlu xatirələrindən danışıb. Təbii ki, Nəsir müəllimə Şuşanın işğal olunması çox pis təsir etdi. İndi Şuşa azad olundu. Çox sevinirəm ki, hazırda Nəsir müəllimin ruhu şaddır.

Nəsir Sadıqzadə kimi insanlar çox az olur. Sənəti sevmək olar, amma özünü sənətə fəda edən insanlar çox azdır. Nəsir müəllim teatrla, tələbələri ilə nəfəs alırdı, öz həyatını bu yolda qurban vermişdi. Teatr olmadığı gün onun üçün həyat dayanırdı.

Həddindən artıq çox mütaliə edirdi. Hətta deyə bilərəm ki, onun oxumadığı pyes yox idi. Çiynində hər zaman bir çanta olardı. Çanta da kitabla dolu olardı. Teatra, incəsənətə aid hər şeyi oxuyurdu.

Nəsir müəllim haqqında daha nələr-nələr danışa bilərəm. Onun haqqında danışsaq, bizə günlər, aylar yetməz. Mən çox xoşbəxt insanam ki, belə bir sənətkarın tələbəsi olmuşam”.

### “Mən ondan həyata baxışı öyrənmişəm”

Mərhumun oğlu Hürmüz Sadıqzadə də atası ilə bağlı xatirələrini bizimlə bölüşüb. “Ailəcanlı, dostcanlı, istiqanlı idi. Heç vaxt tək gəzməzdi. Amma arada oturur, eynəyini taxıb, yazı yazmağa başlayırdı. Atam heç vaxt tələbələrini bizdən ayırmırdı. Mən ondan həyata baxışı, həyatda heç bir şeyi sevgidən, məhəbbətdən, ailədən, dostdan, vətənindən üstün tutmamağı öyrənmişəm. Onun övladı olmaq çox qürurvericidir”.

İlləri vərəqləmək Nəsir müəllimin tələbələri, yaxınları üçün də çətin idi. Nəsir Sadıqzadə kimi sənətkarlar, ən əsası sənətini sevən insanlar çox azdır. Uzun illər keçməsinə rəğmən sevgi ilə xatırlanan, yaddaşlara həkk olan sənətkar haqqında deyiləcək şeylər çoxdu.

30 ildən artıq müddətdə Mədəniyyət və İncəsənət Universitetində müəllim kimi fəaliyyət göstərən Nəsir Sadıqzadənin milli teatr tariximizdə də özünəməxsus yeri və yolu var. Onun yetişdirdiyi tələbələr hazırda incəsənətin bir çox sahələrində uğurla fəaliyyət göstərirlər. Xalq artistləri Azər Paşa Nemətov, Hacı İsmayılov, Məmməd Səfa, Əməkdar artistlər Elman Rəfiyev, Firdovsi Atakişiyev, Ayşad Məmmədov, aktrisa Zemfira Əbdülsəmədova Nəsir müəllimin tanınmış tələbələrindədirlər... Onlar Nəsir müəllimin tədris metodikasından, tələbələri ilə iş prosesindən, təcrübəsini səxavətlə bölüşməsindən saatlarla danışa bilərdilər...

Şuşanın məşhur Cavanşirlər nəslindən olan Nəsir Sadıqzadə 1996-cı ildə vəfat edib və Bakıdakı “Qurd Qapısı” qəbristanlığında dəfn olunub.

***Fidan İlqarqızı***

# Sidik ifrazının pozulmaları

***Sidik ifrazının pozulması gündəlik sidiyin miqdarının dəyişilməsi yaxud onun ifraz olunma ritminin pozulması ilə xarakterizə olunur.***

**Diurez.**
Müəyyən miqdar ifraz olunan sidiyin miqdarına diurez deyilir .Ona görə də həmişə diurez sözündən əvvəl vaxt göstərilir. Sağlam adam gün ərzində 1,5 litir sidik ifraz edir.

**Poliuriya.**
Gündəlik diurez 2 litrdən çox olduqda poliuriya adlanır. Poliuriya böyrək və ya qeyri böyrək mənşəli ola bilir. Böyrək mənşəli poliuriya adətən sidiyin nisbi sıxlığının azalması ilə gedir və çox ağır böyrək xəstəliklərində müşahidə olunur. Bu xəstəliklərə pielonefrit, qlomerulonefritin son mərhələsi, böyrək çatışmazlığı aiddir. Böyrək xəstəlikləri zamanı baş verən poliuriya böyrəklərin ağır zədələnməsinə dəlalət edir.

Qeyri-böyrək mənşəli poliuriya çoxlu miqdarda maye qəbul edildiyi zaman baş verir. Şəkərli diabet zamanı poliuriya sidiyin nisbi sıxlığının artması ilə müşayət olunur.

**Oliquriya.**
Sidiyin gündəlik miqdarının 500 ml-dən az olması oliquriya adlanır. Böyrək mənşəli oliquriya kəskin qlomerulonefritdə, kəskin böyrək çatışmazlığının oliqoanuriya mərhələsində baş verir.

Qeyri-böyrək mənşəli oliquriya az maye qəbul etdikdə, quru, isti yerdə çox olduqda, həddən artıq tərlədikdə, qusduqda və ishal zamanı, ürək çatışmazlığının bəzi mərhələlərində aşkar edilir.

**Anuriya.**
Gündəlik sidiyin 50 ml-dən az olması anuriya adlanır. Anuriya sidiyin yuxarı sidik yollarından sidik kisəsinə daxil olmasının kəsilməsi kimi başa düşülməlidir. Anuriya bir neçə gün davam edərsə, xəstənin uremiya nəticəsində ölümünə səbəb olur.

# Evdarlığın qadın orqanizminə təsirləri

***Alimlər evdarlığın qadın orqanizminə pis təsir etdiyinin söyləyirlər.***

Bəzi qadınlar var ki, onlar öz həyatlarını ev işlərinə, uşaqlarının tərbiyəsinə, mətbəxə həsr etsələr, həyatlarının daha yaxşı olacağını düşünürlər. Onarın fikrincə qadın işləyərsə, uşaqların təhsil və tərbiyəsi geri qalar, ev isə natəmizlikdən batar.

İngiltərə alimləri uzun müddət qadınların kişilərdən daha çox nevroz və depressiyadan əziyyət çəkdikləri barədə araşdırmalar aparmışlar. Uzun müddətli araşdırmalar evdar xanımların əsəb sisteminin daha tez korlandığını qeyd etmişlər. Belə ki, bütün gününü evinə həsr edən xanımlar əsəb xətləliklərindən əziyyət çəkmələri ilə yanaşı onlarda azhərəkətliliyə görə piylənməyə meyl olur.

Evdar qadınların piylənməsi və depressiyaya düşməsi arasında bir əlaqə olduğunu qeyd edən alimlər, problemi aradan qaldırmaq üçün qadınların iş həyatına qarışmasını tövsiyə edirlər.

İşə getsəm "ev və uşaqlar batar" düşüncəsi ilə yaşayan qadınların əslində səhv düşündüklərini söyləyn alimlər, qadınların işlədikləri zaman depressiyadan çıxacaqlarını qeyd edirlər. Çünki cəmiyyətə qarışmaq, işləyib öz qazancını xərcləmək, insana öz güvən hissini aşılayır. Həm də qadınların hər gün evdən çıxmaları və axşam ev şlərinə vaxt ayırmağı onu həm ev, həm də iş qadını olmaqla yanaşı artıq çəkidən də xilas olmasına yardımçı olacaq.

Alimlər qadınların güclü olduğunu qeyd edərək, işlədikləri zaman da evdarlıqlarını davam etdirə biləcəklərini söyləyirlər.

# Alveolyar proteinoz nədir?

***Alveolyar proteinoz - alveolların daxili səthində zülal-lipid maddəsinin toplanması nəticəsində ağciyər toxumasının dəyişiklikləri ilə müşayiət olunan ağciyərlərin interstisial xəstəliyidir. Patologiya 0,2:1 milyon nisbətində yayılıb.***

Xəstəlik əksər hallarda 30-35 yaşlarda təzahür edir, lakin uşaqlarda və yaşlı pasientlərdə də rastlana bilər. Xəstələr arasında kişilər üstünlük təşkil edir; belə ki, patologiya kişilər və qadınlarda 5:1 nisbətində özünü göstərir. Alveolyar proteinoz birincili (idiopatik) və ikincili (mövcud patologiya fonunda inkişaf edir), anadangəlmə və ya qazanılmış ola bilər. Pulmonologiyada gedişinə görə kəskin və xroniki alveolyar proteinoz differensiasiya olunur.

Alveolyar proteinozun gedişi xoşxassəlidir. Xəstəlik tədricən proqressivləşir; spontan remissiya və sağalma mümkündür; beş illik sağqalma 80% təşkil edir. Qeyri-adekvat müalicə, ikincili superinfeksiyanın prosesə qoşulması proqnozu pisləşdirir. Alveolyar proteinozda letal sonlanma ağır tənəffüs çatışmazlığı və ağciyər üreyinin dekompensasiyasının inkişafı ilə əlaqəlidir. Profilaktika siqaretçəkmənin istisnası, provokasiya edən peşə və məişət faktorlarına təsirdən ibarətdir. Alveolyar proteinozlu xəstələr remissiya dövründə pulmonoloq müşahidəsi altında olur.

# Yalnız bu hallarda ana südü vermək olmaz - Pediatr açıqladı



***"Yağlı və ya yağsız, duzlu, yaxud duzsuz, kalorili-kalorisiz, mikroblu-mikrobsuz ana südü olmur. Bu yanlış təsəvvürlərə görə neçə-neçə uşaq boş yerə bu nemətdən məhrum olur. Onsuz da psixologiyası gərgin olan, yeni ana olmuş qadınlara kənardan belə mənfi fikirlərlə təzyiq göstərməkdənsə, öz övladına bu dəyərli neməti verə bilməsi üçün onlara mənəvi dəstək olmaq lazımdır".***

"Unikal" xəbər verir ki, həkim-pediatr Günay Rəsulova sosial şəbəkədə ana südü barədə paylaşım edib.

Həkim bildirib ki, yalnız aşağıdakı səbəblərə görə ana övladına süd verə bilməz:

- Anada HİV infeksiyası (QİÇS) varsa;
- Müalicə edilməmiş bruselyoz (müvəqqəti) varsa;
- Aktiv vərəm (müvəqqəti) varsa;
- Gilə ucu herpes səpkiləri olan analar (müvəqqəti);
- Diaqnostika və ya müalicə məqsədilə radyoizotoplara məruz qalan analar (müvəqqəti);
- Onkoloji müalicə (sitostatiklər) alan analar (müvəqqəti);
- SMV seropozitiv anaların 1500 qramdan az və ya 32 həftədən tez doğulan uşaqlar;
- H1N1 infeksiyası keçirən analar qızdırma düşənə qədər (müvəqqəti);
- Süd vəzi absesi olan ana (müvəqqəti);
- Şizofreniyalı ana (övladına zərər verə bilər).

## Ən çox sual doğuran digər məqamlar

- Mənfi rezuslu ana süd verə bilər;
- Mastitli (süd vəzisi şişkinləşmiş, qızarmış, qızdırma verən) ana (əksinə bol-bol əmizdirməlidir);
- Qızdırmalı ana süd verə bilər;
- Hamilə ana (obstetrik risk daşımırsa) övladına süd verə bilər;
- Hepatit B, C-li ana gilə ucunda qanayan çat yoxdursa, əmizdirə bilər;
- Koronaviruslu ana antiseptik qaydalara əməl etməklə, maska ilə körpəni əmizdirə bilər.

Əgər ana çox narahatdırsa, südü sağıb məsafədən yedizdirə bilər. Koronavirus uşağa südlə keçmir. Bu virus havadamcı yolu ilə keçdiyinə görə tövsiyələri nəzərə alaraq yenə də analar körpələrini öz südü ilə bəsləməyə davam edə bilər.

"Ana südü körpə üçün çox vacib bir qidadır. Bu süd ilə qidalandırılan uşaqların immuniteti möhkəm olur. Ana südü yeyən, amma tez-tez xəstələnən uşaqlar isə əmizdirilməmiş olsaydı, hər xəstəliyi daha fəsadlı keçirə bilərdi. Ana südü təbii və ən möhkəm peyvənddir. Uşaqları ana südündən və peyvənddən məhrum etməyin", - deyə həkim əlavə edib.
/medicina.az

# Şəkərsiz diabet xəstəliyinin gedişatı

***Şəkərsiz diabet nadir rast gəlinən endokrinopatiyalardan olub, əsasən 20-40 yaşlarda müşahidə edilir. Hər 5-ci halda patologiya neyrocərrahi müdaxilənin ağırlaşması kimi formalaşır.***




Şəkərli diabet pozğunluqların baş vermə səviyyəsinə əsasən təsnif edilir. Müasir endokrinologiyada xəstəliyin mərkəzi və böyrək mənşəli formaları ayırd olunur. Mərkəzi şəkərsiz diabet zamanı pozğunluqlar hipotalamus tərəfindən antidiuretik hormonun sekresiyası və ya onun qana ifrazı səviyyəsində baş verir. Böyrək mənşəli formada isə nefronların distal kanalcıqlarının hüceyrələrinin ADH-ya həssaslığının pozulması qeydə alınır.

Mərkəzi şəkərsiz diabet idiopatik (ADH sintezinin zəifləməsi ilə xarakterizə olunan irsi xəstəlik) və simptomatik formalara bölünür. Simptomatik şəkərsiz diabet anadangəlmə və ya qazanılmış olur. Anadangəlmə forma ADH geninin mutasiyası nəticəsində əmələ gəlir. Qazanılmış simptomatik şəkərsiz diabet isə kəllə-beyin travmalarından, baş beynin şiş və infiltrativ proseslərindən, meninqoensefalitdən sonra inkişaf edir.Nefrogen şəkərsiz diabetə nisbətən az təsadüf olunur. Böyrək mənşəli formaya nefronun anatomik yetərsizliyi və ya antidiuretik hormona qarşı reseptor həssaslığının pozulması səbəb olur. Bu pozğunluqlar anadangəlmə xarakter daşıya və ya nefronların medikamentoz və yaxud metabolik zədələnmələri fonunda meydana çıxa bilər.Baş beynin neoplaziyalarının uğurlu şəkildə xaric edilməsindən, vərəm, malyariya, sifilis mənşəli şəkərsiz diabetin spesifik müalicəsindən sonra sağalma müşahidə oluna bilər. Əvəzedici hormonoterapiya adekvat təyin edildikdə bir çox xəstələrdə əmək qabiliyyəti saxlanılır. Xəstəliyin digər formaları ilə müqayisədə uşaqlarda qeydə alınan nefrogen şəkərsiz diabetin gedişi daha az qənaətbəxş sayılır.

# Yeniyetmə və gənc karateçilərimiz Belarusda 22 medal qazanıb







***Yeniyetmə və gənclərdən ibarət karate üzrə seçmə komandamız Belarusun paytaxtı Minskdə "Unmei Cup" Beynəlxalq turnirində 22 medal qazanıb.***

Azərbaycan Milli Karate Federasiyasından AZƏRTAC-a bildirilib ki, yeniyetmə və gənclərdən ibarət milli komandanın baş məşqçisi Anar Allahverdiyev və böyük məşqçi Seymur Xudaverdiyevin rəhbərliyi ilə Belarusa yollanan karateçilər 9 qızıl, 6 gümüş və 7 bürünc medala sahib olublar. 14-15 yaşlı yeniyetmələrdən Amin Yadigarlı (-52 kq), Əzim Rahib (-70 kq), Aysu Əliyeva (-47 kq), Fidan Rüstəmova (-54 kq), qızlar kumite komandası, eləcə də 16-17 yaşlı gənclər arasında Fərid Savadov (-55 kq), Ramil Baxşəliyev (-61 kq), Vahid Həsənov (-76 kq) və oğlanlar kumite komandası yarışın qalibi olub.

Gümüş medalı 14-15 yaşlı yeniyetmələrdən Nihad Kərimzadə (-70 kq), oğlanlar kumite komandası, 16-17 yaşlı gənclərdən Nicat Kərimli (-61 kq), Xumar Əlibəyova (-53 kq) və Vahid Həsənov (mütləq çəkidə), 18-21 yaşlı gənclərdən isə Hüseyn Hüseynzadə (-84 kq) qazanıb.

14-15 yaşlı yeniyetmələrdən Məhəmməd Xamoyev (-63 kq), Fərid Talıbov (-68 kq), Ramil Bəxşəliyev (mütləq çəkidə), 18-21 yaşlı gənclərdən Renata Ərəbli (-61 kq), Həsənəli Həsənov (kata) və Zəhra Qurbanzadə (kata), böyüklər arasında isə Neda Rezai (kata) bürünc mükafat alıb.

Bu nəticə ilə Azərbaycan ümumi komanda hesabında birinci olub. Unmei Cup beynəlxalq turniri yeniyetmə və gənclər seçmə komandasının 1 il 3 aylıq fasilədən sonra iştirak etdiyi ilk turnir idi.

Karateçilərimizin növbəti yarışı iyunda Dünya Karate Federasiyasının rəsmi turnirlərindən (WKF) Kiprdə Gənclər liqası turniri olacaq.

# Təhlükəsizliyi üçün polis tələb edən baş hakimlə bağlı AFFA-dan AÇIQLAMA

***Aprelin 29-da baş tutan "Zirə" və "Keşlə" komandaları arasında Azərbaycan Kubokunun yarımfinal mərhələsinin cavab oyununda matçın idarə edən baş hakim Elçin Məsiyev AFFA nümayəndəsi Seymur Səlimliyə müraciət edib. Referi AFFA nümayəndəsindən əlavə vaxtın fasiləsində təhlükəsizlik xidmətinin əməkdaşlarının oyun bitən kimi stadiona gəlməsini istəyib. S. Səlimli isə öz növbəsində hakimin narahat olmamasını bildirib.***

Baş verənlərlə bağlı AFFA-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Firuz Abdulla Unikal.org-a açıqlamasında meydança daxilində heç bir insident yaşanmadığınbı deyib:

"Oyunun 85ci dəqiqəsində emosiyalar yüksəlmişdi. Bu səbəbdən də hakim təhlükəsizlyin təmin olunması üçün AFFA nümayəndəsinə yaxınlaşaraq belı bir tələb irəli sürüb.

Oyun hakiminin bu cür tələb irəli sürmək üçün səlahiyyəti var. O paltardəyişmə otağına qədər belə bir tələb irəli sürmə ixtiyarına sahibdir. Meydan daxilində heç bir insident yaşanmamışdı.

Dəqiq qərarı gələn həftə AFFA-nın İntizam komitəsi tərəfindən veriləcək".

Qeyd edək ki, ilk oyunda öz meydanında (1:2) məğlub olmasına baxmayaraq, cavab görüşündə 3:2 hesablı qələbə qazanan "Keşlə" səfərdə daha çox qol vurduğu üçün finala yüksəlib. Sənan Qurbanov komandası mayın 24-də həlledici görüşdə "Sumqayıt"la qarşılaşacaq.



Millimiz lisenziya turnirinə hazırlaşır

Yunan-Roma güləşi üzrə millimiz Dünya Olimpiya Təsnifat turnirinə hazırlığını davam etdirir.

"Unikal" xəbər verir ki, aprelin ilk yarısında Göygöldə fiziki hazırlıq üzrə təlim-məşq toplanışı keçən yığmamız ayın ikinci yarısında Bakıda taktiki-texniki çalışmalara üstünlük verib.

Mayın 6-dan 9-dək Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək sonuncu lisenziya yarışına hazırlıq xarakteri daşıyan məşqlər baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçilər Akif Əliyevlə Həsən Əliyevin rəhbərliyi altında keçirilir.

Qeyd edək ki, komandamız mayın 6-da Bolqarıstana yollanacaq. Güləşin bu növü üzrə mübarizə mayın 8-9-da baş tutacaq. Millimiz Dünya Olimpiya Təsnifat turnirində 60, 67, 77, 97 və 130 kq-da Olimpiadaya lisenziya qazanmağa çalışacaq.

# Təhqir olunan futbolçu matçın fasiləsində karyerasını bitirdi

***Futbol üzrə Şotlandiya II liqasının "Stenhauzmur" - "Albion Rovers" matçında qeyri-adi hadisə baş verib.***



"Unikal" qəzeti xəbər verir ki, fasilədə əvəzlənən qonaq komandanın hücumçusu Devid Koks karyerasını bitirdiyini elan edərək stadiondan ayrılıb.

32 yaşlı forvard ilk hissənin gedişində meydan sahiblərinin müdafiəçisi Conatan Tiffoni ilə mübahisə edib. Bu zaman ehtiyatda oturan rəqib futbolçular Koksun ruhi xəstə olduğunu bildirərək, onu təhqir ediblər. Nəticədə o, futbolla vidalaşmağa qərar verib.

Futbolçunun qərarını dəstəklədiyini açıqlayan "Albion Rovers" insidentlə bağlı araşdırma aparılacağına söz verib.

Qeyd edək ki, Devid Koks 2019-cu ildə "Sky Sports" nəşrinə müsahibəsində daimi təhqirlərə görə həyatına qəsd etmək istədiyini bildirib. Ötən ilin yanvarında eyni səbəbdən karyerasını bitirən hücumçu bu ilin martında yenidən futbola qayıdıb.

# Dünya çempionu lisenziya turnirindən məhrum oldu

***Yunan-Roma güləşi üzrə milli komandamızın üzvü Eldəniz Əzizli lisenziya yarışına getməkdən imtina edib.***

"Unikal" qəzetinin məlumatına görə, dünya və Avropa çempionu Bolqarıstanın paytaxtı Sofiyada keçiriləcək Dünya Olimpiya Təsnifat turnirində iştirak edə bilməyəcək.

Onun bu yarışdan məhrum qalmasına səbəb zədələrinin olmasıdır.

# FİFA Boykota qoşuldu

***Sosial şəbəkələrin futbol ictimaiyyəti tərəfindən boykot edilməsi aksiyası genişlənir.***

"Unikal" qəzetiniun məlumatına görə, UEFA-nın ardından FİFA da İngiltərə futbol klubları və təşkilatlarının addımını dəstəkləyib.

Bu, dünya futbol qurumunun bəyanatında əksini tapıb. Bildirilib ki, FİFA sosial şəbəkə və hökumətləri irqçilik və ayrı-seçkiliklə mübarizəyə çağırır.

Qeyd edək ki, İngiltərə klubları aprelin 30-dan mayın 3-dək sosial şəbəkələrdə heç nə paylaşmayacaq. Bu, səhifələrdə yer alan irqçilik və ayrı-seçkiliyə etiraz xarakteri daşıyır. Eyni addımı UEFA və FİFA-da atacaq.

# Mourinyo yeni vəzifədə

***İngiltərənin "Tottenhem" klubundan ayrılan Joze Mourinyonun yeni iş yeri bəlli olub.***

"Unikal" qəzetinin məlumatına görə, portuqaliyalı mütəxəssis fəaliyyətini Böyük Britaniyada davam etdirəcək.

O, özünü yeni vəzifədə sınayacaq. Mourinyo "talkSPORT" radiostansiyasında çalışacaq.

Belə düşünməyə radionun rəsmi tvitter səhifəsinin yaydığı rolik əsas verib. Əlində şirkət adı yazılan futbolka tutan, lakin üzü görünməyən şəxsin Mourinyo olduğu bildirilir.

# Premyer Liqamızda növbəti turun oyun cədvəli açıqlandı

***Azərbaycan Premyer Liqasında XXVI turun oyun cədvəli açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, turun oyunları iki günü əhatə edəcək.

Matçların vaxtı və yeri dəqiqləşib. Turun bütün görüşləri "CBC Sport" kanalı vasitəsilə canlı yayımlanacaq.

Azərbaycan Premyer Liqası XXVI tur 8 may (şənbə) "Keşlə" - "Sumqayıt" "ASK Arena", 18:00

"Səbail" - "Neftçi" "ASCO Arena", 20:15

9 may (bazar) "Sabah" - "Qarabağ" "Bank Respublika Arena", 20:15

"Zirə" -"Qəbələ" Zirə İdman Kompleksinin stadionu, 18:00

# Çempionlar Liqasında həftənin oyunçusu bilindi

***UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinin ilk oyunlarından sonra həftənin ən yaxşı futbolçusu açıqlanıb.***

"Unikal" qəzetinin məlumatına görə, bu ada İngiltərənin "Çelsi" klubunun yarımmüdafiəçisi N Qolo Kante layiq görülüb.

30 yaşlı fransalı oyunçunun İspaniyada "Real Madrid"lə 1:1 hesablı heç-heçə etdikləri matçda ötürmələrinin 86 faizi dəqiq alınıb.

# Millimizin keçmiş qapıçısı "Sabah" klubunu məhkəməyə verdi

***Azərbaycanın 21 yaşadək futbolçulardan ibarət milli komandasının sabiq qapıçısı Oleq Karnaux "Sabah" klubundan İdman Arbitraj Məhkəməsinə (CAS) şikayət edib.***

Bu barədə "Unikal" qəzeti CAS-ın rəsmi saytına istinadən xəbər verir. Ukrayna əsilli qolkiper "Sabah"la 2019-cu ilin iyulunda 3 illik müqavilə bağlasa da, bir ildən sonra komandadan göndərilib. O, paytaxt təmsilçisinin heyətində heç vaxt meydana çıxmayıb.

"Sabah"ın mətbuat katibi Elnur Həmidov isə "Report"a açıqlamasında məsələyə belə aydınlıq gətirib: "Oleq Karnaux müqaviləsinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı FİFA-ya müraciət etmişdi. FİFA bu məsələdə klubun mövqeyinin haqlı olması barədə qərar verdi. Futbolçu bundan sonra CAS-a müraciət etdi. Aprelin 23-də məsələ ilə bağlı məhkəmə oldu. Qərar yaxın vaxtlarda açıqlanacaq". Qeyd edək ki, Oleq Karnaux hazırda Ukraynada "Yarud" (Mariupol) komandasının formasını geyinir.

Səhifəni hazırladı: Aygün İlqarqızı